RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 244 (9989) 18 noyabr 2025-ci il ÇƏRŞƏNBƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# Düşünülmüş strategiyanın parlaq nəticəsi

## Azərbaycan Mərkəzi Asiya ölkələrinin əməkdaşlıq formatına qoşuldu

Noyabrın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin dəvəti ilə Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşündə iştirak etmək üçün Özbəkistana səfərə gedib.

Daşkənddə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev ilə təkbətək görüşü olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Daşkənddə İslam Sivilizasiyası Mərkəzi ilə tanış olub.

Daşkənddə "Gələcəyin İrsi" Beynəlxalq Mükafatının təntənəli təqdimat mərasimi keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Noyabrın 16-da Özbəkistanın paytaxtı Daşkənddə Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşü keçirilib. Prezident İlham Əliyev tədbirdə çıxış edib.

Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Özbəkistan Respublikasına səfəri başa çatıb.

2-3

## Prezident İlham Əliyev Milli Dirçəliş Günü münasibətilə paylaşım edib




## Birinci vitse-prezident Mehriban Əliyeva Milli Dirçəliş Günü ilə bağlı paylaşım edib




## Azərbaycan Fələstin məsələsinə münasibətdə daim həmrəylik nümayiş etdirib

### Fələstin Dövlətinin Prezidenti zati-aliləri cənab Mahmud Abbasa

Hörmətli cənab Prezident!

Fələstin Dövlətinin milli bayramı münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Azərbaycan ilə Fələstin xalqlarını dostluq və qardaşlıq əlaqələri birləşdirir. Azərbaycan Fələstin məsələsinə münasibətdə daim həmrəylik nümayiş etdirmiş, bu məsələnin paytaxtı Şərqi Qüds olan müstəqil Fələstin Dövlətinin yaradılması və BMT-nin müvafiq qətnamə və qərarlarına uyğun olaraq iki dövlət prinsipi əsasında həllini dəstəkləyir. Şarm əl-Şeyxdə keçirilən Yaxın Şərq Sülh Sammitinin nəticələrinin regionda sülhə, sabitliyə, əmin-amanlığa töhfə verəcəyinə ümidimi ifadə edirəm.

Biz bundan sonra da Fələstinə lazımi humanitar yardım göstərməyə davam edəcəyik. İnanıram ki, Azərbaycan ilə Fələstin arasında xoş ənənələr üzərində qurulmuş dostluq əlaqələri və əməkdaşlıq gələcəkdə də uğurla inkişaf edəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, qardaş Fələstin xalqına sülh və əmin-amanlıq diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 noyabr 2025-ci il*

## Şəhid əməkdaşımızın xatirəsinə...

### "Azərbaycan" qəzetinin şəhid əməkdaşı Elgün İsmayılovun xatirəsinə həsr edilən növbəti yaradıcılıq müsabiqəsinə yekun vurulub




Cəmi 20 yaşında əbədiyyətə qovuşan Elgün İsmayılovun xatirəsi artıq 23 ildir çalışdığı "Azərbaycan" qəzeti redaksiyasında böyük ehtiramla yad edilir, xatirəsinə həsr olunan yaradıcılıq müsabiqəsi təşkil edilir. Hər il olduğu kimi, bu il də şəhidin doğum günündə redaksiya kollektivi İkinci Şəhidlər xiyabanına gedərək onun məzarını ziyarət etdilər, məzarına çiçəklər düzərək ruhuna dualar oxudular. Redaksiyada davam edən anım mərasimi Vətən uğrunda canından keçən şəhidlərin xatirəsinin birdəqiqəlik sükutla yad edilməsi ilə başladı.

6

## Azərbaycanın yeni geoiqtisadi mandatı

"C5+Azərbaycan"a keçidlə yaranan yeni regional konfiqurasiya mühüm yeniliklər vəd edir. "C5+1" platforması ilk illərdə daha çox siyasi dialoq, təhlükəsizlik, terrorizmə qarşı mübarizə kimi klassik mövzuları əhatə edirdi. Sonrakı mərhələdə isə ticarət və investisiyalar, enerji təhlükəsizliyi və "yaşıl keçid", nəqliyyat və logistik zəncirlərin şaxələndirilməsi, texnoloji əməkdaşlıq və insan kapitalı bu formatın əsas sütunlarına çevrildi.

Azərbaycanın bu məntiqlə "C5+1" əməkdaşlıq formatına daxil olması, əslində, üç paralel xətti birləşdirir. Birincisi, "C5+Azərbaycan" Xəzərin iki sahilini vahid iqtisadi və nəqliyyat məkanına çevirən regiondaxili platforma olacaq.



İkincisi, "C5+Azərbaycan"+ ABŞ/Aİ böyük güclərlə artıq tək-tək deyil, blok+hub modelində dialoq forması vəd edir. Və üçüncüsü, "C5+ Azərbaycan"+Türk Dövlətləri Təşkilatı və Orta dəhliz türk coğrafiyasında şaxələnmiş inteqrasiya xəttini təşkil edəcəkdir.

8

## BTC üçün "yaşıl işıq" yandıran saziş

### 26 il əvvəl İstanbulda kəmərin marşrutunu müəyyənləşdirən sənəd imzalandı




1998-ci il oktyabrın 19-da Ankarada kəmərin inşa edilməsi haqqında Bəyannamə imzalanmışdı. İstanbulda imzalanan, BTC qarşısında "yaşıl işıq" yandıran növbəti sazişin imzalanması isə "Əsrin müqaviləsi"ndən sonra Azərbaycan üçün tarixi əhəmiyyət kəsb edən daha bir böyük hadisə idi.

Bu zaman artıq iki il idi ki, "Çıraq" platformasından "Əsrin müqaviləsi"nin nefti alınırdı. Qarşıdakı illərdə isə "Azəri"nin üç böyük hissəsindən - Mərkəzi, Qərbi və Şərqi hissələrindən, eləcə də "Günəşli"nin dərinlikdə yerləşən hissəsindən hasilata başlanılması gözlənilirdi. Neft hasilatı artdıqca mövcud olan kəmərlərdən əlavə, daha böyük bir ixrac marşrutuna ehtiyac yaranacağı labüd idi.

9

◆ Azərbaycan Prezidenti İlham Əliyevin Özbəkistana səfəri

# Düşünülmüş strategiyanın parlaq nəticəsi

## Daşkənd Beynəlxalq Hava Limanında qarşılanma

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin dəvəti ilə Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşündə iştirak etmək üçün noyabrın 15-də Özbəkistana səfərə gəlib.

AZƏRTAC xəbər verir ki, Daşkənd Beynəlxalq Hava Limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi Özbəkistanın Baş naziri Abdulla Aripov və digər rəsmi şəxslər qarşıladılar.



## Azərbaycan Prezidenti İlham Əliyevin Özbəkistan Prezidenti ilə təkbətək görüşü

Noyabrın 15-də Daşkənddə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev ilə təkbətək görüşü olub.

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycanla Özbəkistan arasında müttəfiqliyə və strateji tərəfdaşlığa əsaslanan münasibətlərin uğurla inkişaf etdiyi bildirildi.

Prezident İlham Əliyevin Özbəkistana, Prezident Şavkat Mirziyoyevin isə ölkəmizə mütəmadi səfərlərinin əlaqələrimizin inkişafında rolu vurğulandı.



Azərbaycanla Mərkəzi Asiya ölkələri arasında əməkdaşlığın son dövrlərdə daha da genişləndiyi məmnunluqla qeyd edilərək, bu xüsusda dövlətimizin başçısının Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşündə iştirakının önəminə toxunuldu. Söhbət zamanı dövlət başçıları ölkələrimiz arasında əlaqələrin perspektivləri ilə bağlı fikir mübadiləsi apardılar.

## Prezident İlham Əliyev Daşkənddə "Gələcəyin İrsi" Beynəlxalq Mükafatının təqdimat mərasimində iştirak edib

**Noyabrın 15-də Daşkənddə "Gələcəyin İrsi" Beynəlxalq Mükafatının təntənəli təqdimat mərasimi keçirilib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Qeyd edək ki, Azərbaycandan bu mükafata Xalq artisti Alim Qasımov layiq görülüb.







## Prezident İlham Əliyev Daşkənddə İslam Sivilizasiyası Mərkəzi ilə tanış olub

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 15-də Daşkənddə İslam Sivilizasiyası Mərkəzi ilə tanış olub.**

AZƏRTAC xəbər verir ki, Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin Qərarı ilə təsis edilən İslam Sivilizasiyası Mərkəzinin təməli 2018-ci ildə qoyulub. Layihənin həyata keçirilməsində yüzlərlə alim, ekspert, həmçinin dini və ictimai xadim iştirak edib. Səmərqənd şəhərinin qədim memarlıq abidələri üslubunda hazırlanmış mərkəz 10 hektardan çox ərazini əhatə edir. Binada 65 metr hündürlüyündə günbəz inşa olunub. Mərkəzə tədqiqat, nadir əlyazmaların milli reyestrinin aparılması, əlyazmalar fondu, kitabxana və arxivlər, nəşriyyat şöbələri və digər şöbələr daxildir.

Buradakı sərgi qalereyasında müxtəlif tarixi dövrlərə aid əşyalar və əsərlər təqdim olunur, əcdadların yaradıcılıq potensialı müasir texnologiyalar və rəqəmsal cihazların köməyi ilə nümayiş etdirilir.

Mərkəzin binasında həmçinin 100 min əlyazma və bir milyondan çox kitab daxil olmaqla, nəhəng kitabxana və İslam Sivilizasiyası Mərkəzinin elmi şöbəsi, beynəlxalq təşkilatların ofisləri yerləşir. Mərkəzin muzey ekspozisiyası "İslamdan əvvəl sivilizasiyalar", "Birinci İntibah dövrü", "İkinci İntibah dövrü", "XX əsrdə Özbəkistan", "Yeni Özbəkistan - Üçüncü İntibahın əsası" və "Müqəddəs Quran" adlı zallardan ibarətdir.

Ekspozisiyanın mərkəzində yerləşən "Müqəddəs Quran" zalında müsəlman dünyasının mənəvi incisi - "Osman Quranı" saxlanılır. Zalda Samanilər, Qaraxanlılar, Xarəzmşahlar, Teymurilər və digər sülalələr dövründə yazılmış "Quran"ın əlyazma nüsxələri, həmçinin onların özbək dilinə tərcümələri təqdim olunur. Mərkəzdə dini-maarifləndirici və innovativ media layihələri reallaşdırılıb.

Holoqrafiya, qurğular və proyeksiya texnologiyalarının köməyi ilə "Zaman divarı" nəhəng multimedia panelində müxtəlif dövrlərin ən mühüm tarixi mərhələləri, böyük kəşflər və görkəmli şəxsiyyətlər barədə məlumat verilir. Bu Mərkəz UNESCO və ICESCO da daxil olmaqla bir sıra beynəlxalq təşkilatlarla əməkdaşlıq əlaqələri qurub.














◆ Azərbaycan Prezidenti İlham Əliyevin Özbəkistana səfəri

# Düşünülmüş strategiyanın parlaq nəticəsi

## Daşkənddə Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşü keçirilib
## Prezident İlham Əliyev tədbirdə çıxış edib

Noyabrın 16-da Özbəkistanın paytaxtı Daşkənddə Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşü keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Konqres Mərkəzinə gəldi.

Özbəkistan Prezidenti Şavkat Mirziyoyev dövlətimizin başçısını qarşıladı.

Tədbirin iştirakçıları birgə foto çəkdirdilər.

Görüşdə çıxış edən Özbəkistan Respublikasının Prezidenti **Şavkat Mirziyoyev** qardaş xalqlar üçün tarixi bir gün yaşandığını vurğulayaraq dedi: "Biz Azərbaycan Respublikasının tamhüquqlu iştirakçı qismində Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Görüşü formatına qoşulmasına dair prinsipial qərarlar qəbul edirik. Biz Mərkəzi Asiya ilə Cənubi Qafqaz arasında güclü bir körpü quracağıq və vahid əməkdaşlıq məkanının formalaşmasına yol açacağıq. Bu, sözsüz ki, hər iki regionun strateji qarşılıqlı əlaqəsini və dayanıqlılığını gücləndirəcək. Bu vacib qərarı qəbul etdiklərinə görə bütün həmkarlarıma səmimi-qəlbdən təşəkkürümü bildirmək və Məşvərət görüşlərinə tamhüquqlu iştirakçı qismində qoşulması münasibətilə İlham Heydər oğlunu təbrik etmək istəyirəm".






Şavkat Mirziyoyev bildirdi ki, həmrəyliyin gücləndirilməsi və birgə inkişafa can atmaq Mərkəzi Asiyanın beynəlxalq mövqeyinin möhkəmlənməsinə və qlobal rolunun artırılmasına töhfə verir. "Mərkəzi Asiya +" formatlarının qarşılıqlı fəaliyyəti güclənib. Region nüfuzlu beynəlxalq platformalarda vahid mövqedən çıxış edir. Şübhəsiz ki, Azərbaycanın bizim formata qoşulması ilə regionumuzun qlobal miqyasda səsi daha əhəmiyyətli olacaq", - deyə Özbəkistan Prezidenti vurğuladı.

"Bu gün Azərbaycanın tamhüquqlu iştirakçı qismində bizim formata qoşulmasına dair tarixi qərar qəbul etdik". Bu fikri isə Qazaxıstan Respublikasının Prezidenti **Kasım-Jomart Tokayev** söylədi. O, Azərbaycanın bu yeni formatda regional əməkdaşlığın möhkəmləndirilməsinə mühüm töhfə verəcəyinə əminliyini ifadə etdi.

Qırğız Respublikasının Prezidenti **Sadır Japarov** da ölkəsinin Azərbaycanın tamhüquqlu üzv qismində Məşvərət görüşləri formatına qoşulması təşəbbüsünü dəstəklədiyini vurğulayaraq qeyd etdi: "Qardaş Azərbaycanın iştirakı ilə formatımızın genişləndirilməsi Mərkəzi Asiyanın qarşısında xüsusilə beynəlxalq tranzit, logistika və energetika sahələrində yeni imkanlar, geniş əməkdaşlıq üfüqləri açacaq. Bu gün əminliklə deyə bilərik ki, Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət görüşlərinin formatı baş tutub. Bu format öz səmərəliliyini sübut edib, təkcə regionumuzda mövcud problemlərin müzakirə olunduğu deyil, həm də yeni təşəbbüslərin və təkliflərin fəal şəkildə irəli sürüldüyü real, özünəməxsus yeganə platformaya çevrilib".

"Bu gün regionun yeni nəqliyyat arteriyasının meydana çıxmasının şahidi oluruq", - deyən Sadır Japarov əlavə etdi ki, strateji cəhətdən mühüm Çin-Qırğızıstan-Özbəkistan dəmir yolunun tikintisi logistikanı birləşdirməklə yanaşı, həm də formatını genişləndirəcək, ölkələrimizə Asiya və Avropanın çox böyük bazarlarına ən qısa yolu açacaq. Bu kontekstdə Zəngəzur dəhlizinin tikintisi layihəsi Çin-Qırğızıstan-Özbəkistan dəmir yolunun məntiqi və strateji davamı kimi görünür.

Tacikistan Respublikasının Prezidenti **Emoməli Rəhmon** da ölkəmizi Məşvərət görüşlərinə qoşulması münasibətilə təbrik edərək dedi: "Hörmətli İlham Heydər oğlu Əliyevi Azərbaycan Respublikasının Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət görüşlərinə qoşulması münasibətilə təbrik edirəm. Sevindirici haldır ki, məkanımız beynəlxalq və regional proseslərin mühüm iştirakçısının timsalında öz əhəmiyyətini inamla artırır. Bu balanslaşdırılıb və region ölkələrinin artan maraqlarının inkişafına səyləri nümayiş etdirir".

Tədbirdə çıxış edən Türkmənistan Prezidenti **Sərdar Berdiməhəmmədov** dövlətimizin başçısına Azərbaycanın tamhüquqlu iştirakçı qismində Məşvərət görüşlərinə qoşulması münasibətilə təbriklərini çatdırdı.

Özbəkistan Prezidenti **Şavkat Mirziyoyev** dedi: "İndi isə icazənizlə, söz Azərbaycan Respublikasının Prezidenti hörmətli İlham Heydər oğlu Əliyevə verilir. Buyurun, İlham Heydər oğlu".

Prezident İlham Əliyev tədbirdə çıxış etdi.

### Prezident İlham Əliyevin çıxışı

- Hörmətli Şavkat Miromonoviç.

Hörmətli dövlət başçıları.

Əziz dostlar.

İlk növbədə Özbəkistan Prezidenti Şavkat Miromonoviç Mirziyoyevə Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşünə dəvətə görə dərin minnətdarlığımı bildirirəm. Özbəkistan tərəfinə ənənəvi qonaqpərvərliyinə görə təşəkkür edirəm.

Özbəkistan qardaşım Şavkat Miromonoviç Mirziyoyevin müdrik rəhbərliyi ilə inkişaf və quruculuq yolunda inamla irəliləyir. Onun güclü beynəlxalq nüfuzu, səmərəli iqtisadi islahatları, sənaye, nəqliyyat və kənd təsərrüfatı sahələrində həyata keçirdiyi irimiqyaslı layihələr Özbəkistanı regionda lider mövqeyə yüksəldib. Prezidentin gündəlik qayğısı sayəsində Özbəkistan dünyanın aparıcı idman dövlətləri sırasında yer alıb. Bu yaxınlarda keçirilən Yay Olimpiya Oyunları bunu əyani şəkildə nümayiş etdirdi. Şavkat Miromonoviç müdrik dövlət xadimi olmaqla yanaşı, həm də Özbəkistan-Azərbaycan əlaqələrinin inkişafına mühüm töhfə vermiş insandır. O, konkret fəaliyyətinə, xalqımıza xoş münasibətinə görə Azərbaycanda sevilir və hörmətlə qarşılanır. Uzaqgörən siyasi xadim Şavkat Miromonoviç Mərkəzi Asiya ölkələri ilə Azərbaycan arasında daha sıx əməkdaşlığa ehtiyac olduğunu aydın görür. Şavkat Miromonoviç, hər şeyə görə Sizə bir daha sağ olun deyirəm.

Dünən biz İslam Sivilizasiyası Mərkəzini ziyarət etdik. Özbəkistan Prezidentinin təşəbbüsü ilə yaradılan bu mərkəz Özbəkistan Prezidentinin ölkənin zəngin mədəni irsinə sadiqliyinin daha bir göstəricisidir. Bəzi ölkələrdə dinimizə qarşı hücumların artdığı bir şəraitdə islamofobiya sistemli xarakter alır. İslam Sivilizasiyası Mərkəzinin açılması bütün dünyaya göstərir ki, islam quruculuq, dözümlülük, dostluq və qardaşlıq dinidir. İsam aləminin görkəmli nümayəndələri dünya elminə, mədəniyyətinə böyük töhfə veriblər və İslam Sivilizasiyası Mərkəzi bunu əyani şəkildə nümayiş etdirir. Əminəm ki, möhtəşəm və nadir ekspozisiyaları olan Daşkənddəki İslam Sivilizasiyası Mərkəzi bütün İslam dünyası üçün qürur mənbəyinə çevriləcək.

Hörmətli həmkarlar, Azərbaycan artıq üçüncü dəfədir ki, Mərkəzi Asiya sammitlərində iştirak edir. 2023-cü ildə Tacikistan Prezidenti hörmətli Emoməli Şaripoviç Rəhmonun, 2024-cü ildə isə Qazaxıstan Prezidenti hörmətli Kasım-Jomart Kemeleviç Tokayevin dəvəti ilə sammitlərin işində iştirak etdim.

Azərbaycanla Mərkəzi Asiya dövlətləri arasında münasibətlər xüsusi xarakter daşıyır. Bizi çoxəsrlik ortaq tarix, mənəvi və mədəni irs, qardaşlıq, dostluq, həmrəylik birləşdirir. Biz bu əlaqələri nəinki qoruyub saxlamışıq, həm də onlara strateji tərəfdaşlıq xarakterinə malik olan yeni dinamika bəxş etmişik.

Son illər yüksəksəviyyəli qarşılıqlı səfərlər müntəzəm xarakter alıb. Son üç ildə mən Mərkəzi Asiya ölkələrində 14 dəfə səfərdə olmuşam. Bu müddət ərzində həmkarlarım ölkəmizə 23 dəfə səfər ediblər.

Azərbaycan Mərkəzi Asiya ölkələri ilə müttəfiqlik və strateji tərəfdaşlıq, o cümlədən birgə investisiya fondlarının yaradılması haqqında müqavilə və bəyannamələr imzalayıb. Mütəmadi olaraq keçirilən mədəniyyət günləri, sərgilər, konsertlər xalqlarımızı daha da yaxınlaşdırır, bizim yaxınlığımızı, dostluğumuza verdiyimiz dəyəri nümayiş etdirir.

Azərbaycan Cənubi Qafqazda yerləşsə də, bu gün fəal qarşılıqlı fəaliyyət sayəsində Mərkəzi Asiya və Azərbaycan artıq qlobal miqyasda nüfuzu əhəmiyyətli dərəcədə artan vahid geosiyasi və geoiqtisadi regiondur.

Biz müxtəlif beynəlxalq təşkilatlar çərçivəsində uğurla əməkdaşlıq edir, bir-birimizin təşəbbüslərini dəstəkləyir, qlobal və regional problemlərin həllində ümumi yanaşmalar işləyib hazırlayırıq.

Ölkəmiz öz ərazi bütövlüyünü və suverenliyini bərpa etdikdən sonra işğaldan azad olunmuş ərazilərin dirçəldilməsi üzrə genişmiqyaslı işlərə başlayıb. Biz bu məsələdə Mərkəzi Asiya ölkələrinin Azərbaycana göstərdiyi qardaş dəstəyini yüksək qiymətləndiririk.

Xüsusilə qeyd edək ki, artıq Füzuli şəhərində Mirzə Uluqbəy adına məktəb və Kurmanqazı adına Uşaq İncəsənət Mərkəzi, Ağdamda isə Manas məktəbi fəaliyyət göstərir. Bu, özbək, qazax və qırğız qardaşlarımızın hədiyyələridir.

Bu ilin oktyabrında Füzulidə Türkmənistanın qardaşlıq dəstəyinin rəmzinə çevriləcək məscidin təməli qoyulub. Bütün bunlar qardaşlığımızın və həmrəyliyimizin sübutu kimi qədirbilən Azərbaycan xalqının yaddaşında qalacaqdır.

Bu gün Azərbaycan və Mərkəzi Asiya Şərqlə Qərb, Şimalla Cənub arasında birləşdirici bənd və körpüdür.

Orta dəhlizin inkişafı ölkələrimiz üçün strateji əhəmiyyət kəsb edir. Nəqliyyat və logistika infrastrukturunun müasirləşdirilməsi, gömrük prosedurlarının sinxronlaşdırılması və rəqəmsallaşdırılması üzrə birgə səylər yükdaşımaların həcminin artırılması, iqtisadi dayanıqlılığın gücləndirilməsi və beynəlxalq bazarlarda əməkdaşlığın inkişaf etdirilməsi üçün geniş imkanlar açır.

Son üç ildə Orta dəhliz üzrə Azərbaycandan keçən yükdaşımalar 90 faiz artıb. Dəhliz boyu gediş vaxtları xeyli azaldılıb.

Yaxın illərdə buraxılış qabiliyyəti ildə 25 milyon tona çatacaq Ələt Beynəlxalq Limanı, Bakı-Tbilisi-Qars dəmir yolu, doqquz beynəlxalq hava limanı, regionun ən böyük yük aviaşirkəti və digər amillər Azərbaycanı beynəlxalq nəqliyyat qovşağına çevirmişdir.

Əminəm ki, Azərbaycanın əsas hissəsini onun Naxçıvan Muxtar Respublikası ilə birləşdirmək üçün bu ilin avqustunda Vaşinqtonda əldə edilmiş razılaşmalar beynəlxalq daşımalar üçün tranzit imkanlarının genişləndirilməsinə töhfə verəcək. Azərbaycanda Zəngəzur dəhlizinin tikintisi başa çatmaq üzrədir. İlkin mərhələdə 15 milyon ton yükdaşıma qabiliyyətinə malik bu dəmir yolu Orta dəhlizin əsas arteriyasına çevriləcək. Həmçinin Zəngəzur dəhlizinin bir hissəsi olacaq avtomagistralın tikintisi də başa çatmaq üzrədir.

Rəqəmsal rabitə sahəsində əməkdaşlığımız böyük potensiala malikdir. "Rəqəmsal İpək Yolu" layihəsinə Xəzər dənizinin dibi ilə fiber-optik kabel şəbəkəsinin çəkilməsi planları daxildir.

Xəzər dənizinin dibi ilə elektrik kabelinin çəkilməsi layihəsi qlobal bazarlara elektrik enerjisinin birgə ixracı üçün böyük perspektivlər açır.

Sonda Azərbaycanın Mərkəzi Asiya ölkələrinin əməkdaşlıq formatına qoşulması ilə bağlı qərara görə hörmətli həmkarlarıma təşəkkür etmək istəyirəm. Bu qərar münasibətlərimizin dostluq və qardaşlıq xarakterini bir daha təsdiqləyir, həmçinin geniş coğrafi məkanda əməkdaşlığın və qarşılıqlı fəaliyyətin möhkəmlənməsinə xidmət edəcəkdir. Eyni zamanda bizim formatımızda sədrliyi qəbul etdiyinə görə qardaş Türkmənistanı təbrik etmək istəyirəm.

Diqqətinizə görə sağ olun.

* * *

Qardaş Azərbaycanın Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət görüşlərinə qatılması münasibətilə dövlətimizin başçısını bir daha təbrik edən Prezident **Şavkat Mirziyoyev** bildirdi: "Bu, həqiqətən də bizim üçün böyük tarixi hadisədir. Özbək xalqı və Özbəkistanda aparılan islahatlar barədə dediyiniz sözlərə görə bir daha Sizə təşəkkür edirik. Çox sağ olun ki, Siz İslam sivilizasiyası barədə söz açdınız. Həqiqətən də Siz dediyiniz kimi, bu bizim daha da təşviq etməli olduğumuz amildir. Bu mərkəz bizim ümumi nailiyyətimizdir. Düşünürəm ki, bu, gələcəkdə bizim müvafiq istiqamətdə birgə tədbirlər görməyimizə kömək olacaq. Bir daha Sizə təşəkkür edirəm. Dolğun çıxış üçün və bizim ümumi əməkdaşlığımızın genişlənməsi ilə bağlı təşəbbüslərinizə görə Sizə minnətdarlığımı bildirirəm".

* * *

Daha sonra BMT-nin Baş katibi Antonio Quterreşin görüş iştirakçılarına məktubu oxundu.

*Tədbirdə Azərbaycan Respublikasının Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Görüşündə tamhüquqlu iştirakı haqqında qəbul edilən Qərar və digər sənədlər imzalandı.*

## Prezident İlham Əliyevin Özbəkistana səfəri başa çatıb



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Özbəkistan Respublikasına səfəri noyabrın 16-da başa çatıb.**

AZƏRTAC xəbər verir ki, Daşkənd Beynəlxalq Hava Limanında Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Dövlətimizin başçısını Özbəkistan Prezidenti Şavkat Mirziyoyev yola saldı.

# Beynəlxalq Telekommunikasiya İttifaqının (BTİ) Ümumdünya Telekommunikasiyanın İnkişafı Konfransının iştirakçılarına

Hörmətli tədbir iştirakçıları!

Sizi Beynəlxalq Telekommunikasiya İttifaqının (BTİ) Ümumdünya Telekommunikasiyanın İnkişafı Konfransında Bakı şəhərində səmimi-qəlbdən salamlayıram.

Telekommunikasiya sahəsində mötəbər beynəlxalq tədbir - Ümumdünya Telekommunikasiyanın İnkişafı Konfransının Cənubi Qafqaz və Mərkəzi Asiya regionunda ilk dəfə olaraq Azərbaycanda keçirilməsi əlamətdar hadisədir. Bu, Azərbaycan ilə Beynəlxalq Telekommunikasiya İttifaqı arasında mövcud olan uzunmüddətli səmərəli əməkdaşlıq ənənələrinin təzahürü, eyni zamanda ölkəmizin rəqəmsal inkişaf sahəsində qlobal müstəvidə aparıcı mövqeyə malik olmasının bariz göstəricisidir.

Telekommunikasiya və informasiya texnologiyaları sahəsində fəaliyyət göstərən tənzimləyici orqanları, beynəlxalq təşkilatları və bütün maraqlı tərəfləri bir araya gətirən bu konfransın məqsədi strategiya və tənzimləmə mexanizmlərini təkmilləşdirmək, inklüziv və dayanıqlı rəqəmsal transformasiyanın təşviqi istiqamətində müzakirələr aparmaq, rəqəmsal əlçatanlığı artırmaqdır.

Dünya artıq yeni bir rəqəmsal dövrə qədəm qoymuşdur. Hazırda texnoloji inkişaf və rəqəmsallaşma ölkənin inkişaf səviyyəsini şərtləndirən, bəşəriyyətin gələcəyini müəyyənləşdirən əsas amillərdən birinə çevrilmişdir. Təəssüf ki, rəqəmsal dünyanın bu qədər inkişaf etdiyi bir dövrdə iki milyarddan çox insan hələ də internetə çıxış imkanından məhrumdur. Müasir dövrdə heç bir ölkə və heç bir insan rəqəmsal gələcəkdən kənarda qalmamalıdır. Bunun təmin olunması bizim ortaq məsuliyyətimizdir.

Kommunikasiya texnologiyaları sahəsi Azərbaycanın qeyri-neft iqtisadiyyatının aparıcı qüvvəsinə çevrilmiş, son dörd ildə sabit artım ritmi qazanmışdır. Bütün bunlar süni intellektin inkişaf etdirilməsi, kiberhücumların qarşısının alınması və rəqəmsal infrastrukturun genişləndirilməsi sahəsində görülən ardıcıl tədbirlərlə müşayiət olunur.

İnformasiya təhlükəsizliyi və kibertəhlükəsizlik strategiyası Azərbaycanın milli təhlükəsizlik arxitekturasının əsasını təşkil edir. Bundan əlavə "Azərbaycan 2030: Sosial-iqtisadi inkişaf üzrə milli prioritetlər" sənədinə uyğun olaraq rəqəmsal iqtisadiyyatın inkişaf etdirilməsi ölkəmizin əsas strateji istiqamətlərindən biri kimi müəyyənləşdirilmişdir. Biz bu istiqamətdə dövlət və özəl sektorları arasında əməkdaşlığa xüsusi önəm veririk.

Azərbaycan bu gün 100 faizlik genişzolaqlı internet əhatə dairəsi ilə regionda lider mövqe tutur. Rəqəmsal şəxsiyyət sahəsində də ölkəmiz qabaqcıl ölkələr sırasındadır. SİMA adlı biometrik rəqəmsal imza sistemi artıq 3,6 milyon istifadəçi tərəfindən qəbul edilmiş, 80-dən çox dövlət informasiya sisteminə inteqrasiya olunmuşdur. Təsadüfi deyil ki, Azərbaycan BMT-nin "Elektron Hökumətin İnkişafı İndeksi"nin ən yüksək kateqoriyası qrupuna daxil olmuşdur. Məqsədimiz növbəti beş il ərzində bu indeksdə ilk 40 ölkə sırasında yer almaqdır.

Ümumdünya Telekommunikasiyanın İnkişafı Konfransına evsahibliyi edən Bakı bu gün yalnız qlobal telekommunikasiya mərkəzi deyil, həm də beynəlxalq rəqəmsal əməkdaşlıq məkanıdır. Konfrans çərçivəsində eyni zamanda Bakı şəhərində BTİ-nin Regional Akselerasiya Mərkəzinin açılması planlaşdırılır. BTİ-nin qlobal innovasiya şəbəkəsinin bir hissəsi olacaq bu mərkəz region üçün innovasiya və sahibkarlıq sahəsində aparıcı platformaya çevriləcəkdir.

Əminəm ki, konfrans çərçivəsində aparılacaq müzakirələr, qəbul olunacaq qərarlar, yaradılacaq tərəfdaşlıqlar inklüziv, təhlükəsiz və dayanıqlı rəqəmsal gələcəyin qurulmasına xidmət edəcək, milyardlarla insanın həyatına öz təsirini göstərəcəkdir.

Sizə bir daha ən xoş arzularımı yetirir, məhsuldar müzakirələr, tədbirin işinə uğurlar arzulayıram.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 noyabr 2025-ci il*

# "Mərkəzi icra hakimiyyəti orqanlarının Nümunəvi Əsasnaməsi"nin təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Mərkəzi icra hakimiyyəti orqanlarının Nümunəvi Əsasnaməsi" təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. bu Fərmanın 1-ci hissəsi ilə təsdiq edilən Nümunəvi Əsasnamənin tələbləri nəzərə alınmaqla, mərkəzi icra hakimiyyəti orqanlarının əsasnamələrinin təkmilləşdirilməsinə dair təkliflərini altı ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

3. "Mərkəzi icra hakimiyyəti orqanlarının Nümunəvi Əsasnaməsi"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 13 fevral tarixli 363 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 2, maddə 80 (Cild I); 2025, № 2, maddə 129) ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 noyabr 2025-ci il*

*Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 17 noyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir*

# Mərkəzi icra hakimiyyəti orqanlarının nümunəvi əsasnaməsi

### 1. Ümumi müddəalar

1.1. Mərkəzi icra hakimiyyəti orqanı (bundan sonra - Orqan) normativ hüquqi aktlarla müəyyən edilmiş sahələrdə (bundan sonra - müvafiq sahədə) dövlət siyasətini, dövlət nəzarətini, dövlət tənzimləməsini və əlaqələndirməni həyata keçirir.

1.2. Orqan öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikasının qanunlarını, Orqan haqqında Əsasnaməni, Azərbaycan Respublikası Prezidentinin digər fərmanlarını, həmçinin sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını və Orqanın hüquqi aktlarını rəhbər tutur.

1.3. Orqan öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən digər dövlət orqanları (qurumları), yerli özünüidarəetmə orqanları, beynəlxalq və qeyri-hökumət təşkilatları ilə, habelə digər hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.4. Orqanın müstəqil balansı, istifadəsində olan dövlət əmlakı, xəzinə və bank hesabları, üzərində Azərbaycan Respublikası Dövlət Gerbinin təsviri və öz adı həkk olunmuş möhürü, kargüzarlıq xidmətinin gerbsiz möhürü, müvafiq ştampları və blankları vardır.

1.5. Orqanın saxlanma xərcləri və fəaliyyəti, habelə maddi-texniki təminatı Azərbaycan Respublikasının dövlət büdcəsi, normativ hüquqi aktlarla müəyyən edilmiş hallarda büdcədənkənar vəsait və qanunda nəzərdə tutulan digər mənbələr hesabına maliyyələşdirilir.

1.6. Orqan Bakı şəhərində yerləşir.

### 2. Orqanın fəaliyyət istiqamətləri

2.1. Orqanın fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.1.1. müvafiq sahədə vahid dövlət siyasətinin formalaşmasında iştirak etmək və bu siyasətin həyata keçirilməsini təmin etmək;

2.1.2. müvafiq sahədə dövlət tənzimləməsini, dövlət nəzarətini və əlaqələndirməni həyata keçirmək;

2.1.3. müvafiq sahənin inkişafını təmin etmək;

2.1.4. müvafiq sahədə normayaratma fəaliyyətini həyata keçirmək;

2.1.5. Orqan haqqında Əsasnamədə göstərilən və Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərmək.

### 3. Orqanın vəzifələri

3.1. Orqan haqqında Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq, Orqanın vəzifələri aşağıdakılardır:

3.1.1. müvafiq sahədə normayaratma fəaliyyətindən irəli gələn vəzifələri həyata keçirmək;

3.1.2. müvafiq sahədə dövlət proqramlarının və inkişaf konsepsiyalarının hazırlanmasını və həyata keçirilməsini aidiyyəti dövlət orqanları ilə birlikdə təmin etmək;

3.1.3. müvafiq sahədə dövlət tənzimləməsi mexanizmlərinin təkmilləşdirilməsi üçün tədbirlər görmək;

3.1.4. "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, müvafiq sahədə korrupsiya risklərini azaltmaq məqsədilə korrupsiya risklərini və həmin risklərə uyğun olaraq hədəfləri müəyyən etmək, eləcə də həmin risklərin təhlili, qiymətləndirilməsi və qarşısının alınması üzrə tədbirlər görmək;

3.1.5. müvafiq sahə ilə bağlı dövlət orqanlarının (qurumlarının) fəaliyyətini əlaqələndirmək;

3.1.6. müvafiq sahədə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin həyata keçirilməsini təmin etmək;

3.1.7. müvafiq sahədə dövlət nəzarətini həyata keçirmək;

3.1.8. "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən, müvafiq olaraq lisenziya və icazə vermək, lisenziyanın və icazənin şərtlərinə riayət olunmasına nəzarət etmək, lisenziya və icazə verən orqanın digər səlahiyyətlərini həyata keçirmək, Orqanın fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı lisenziya və icazə verilməsinə rəy (razılıq) vermək, habelə normativ hüquqi aktlarda nəzərdə tutulan hallarda və qaydada digər hüquqmüəyyənedici sənədlər vermək;

3.1.9. müvafiq sahədə insan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsini təmin etmək və onların pozulmasının qarşısını almaq;

3.1.10. müvafiq sahədə dövlət əmlakından səmərəli istifadə olunmasına nəzarət etmək və dövlət maraqlarının qorunmasını təmin etmək;

3.1.11. müvafiq sahədə inzibati xəta və cinayət əlamətləri aşkar etdikdə, müvafiq olaraq Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə və Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinə uyğun tədbirlər görmək;

3.1.12. müvafiq sahədə dövlət-özəl tərəfdaşlığının inkişafı üçün tədbirlər görmək;

3.1.13. qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla müvafiq sahədə elmi-texniki nailiyyətlərin tətbiqini təmin etmək, habelə elmi tədqiqatlar aparılmasını təşkil etmək;

3.1.14. müvafiq sahəyə ayrılan büdcə vəsaiti, fəaliyyət istiqamətləri üzrə əldə edilən büdcədənkənar vəsaitdən, kredit, qrant və digər maliyyə vəsaitindən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

3.1.15. dövlət sirrinin və məxfilik rejiminin qorunması üçün zəruri tədbirlər, habelə fəaliyyət istiqamətlərinə uyğun təhlükəsizlik tədbirləri görmək;

3.1.16. öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, rəsmi internet informasiya ehtiyatının yaradılmasını, malik olduğu və siyahısı "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin internet informasiya ehtiyatında yerləşdirilməsini və bu informasiyanın daimi yenilənməsini təmin etmək;

3.1.17. müvafiq sahədə kadr hazırlığını təmin etmək, həmçinin mütəxəssislərin hazırlanması və əlavə təhsili üçün tədbirlər görmək;

3.1.18. fəaliyyət sahəsində əməyin mühafizəsi və əmək şəraitinin yaxşılaşdırılması ilə bağlı tədbirlər görmək;

3.1.19. Orqanın Aparatının, strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki qurumların işçilərinin sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı tədbirlər görmək;

3.1.20. Orqanın fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində tədbirlər görmək;

3.1.21. Orqanın Aparatının, strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki qurumların işini əlaqələndirmək, onların fəaliyyətinə, o cümlədən vəzifələrini yerinə yetirmək üçün ayrılan büdcə vəsaitindən və digər vəsaitdən təyinatı üzrə istifadə olunmasına nəzarəti həyata keçirmək;

3.1.22. Orqanın strukturuna daxil olan qurumlar və strukturuna daxil olmayan tabeliyindəki qurumlar tərəfindən fəaliyyət istiqamətləri üzrə daxil olan təklifləri ümumiləşdirmək və tədbirlər görmək;

3.1.23. Orqanın fəaliyyəti ilə bağlı daxil olan müraciətlərə "Vətəndaşların müraciətləri haqqında", "İnzibati icraat haqqında" və "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq baxmaq və qanunla müəyyən edilmiş qaydada tədbirlər görmək;

3.1.24. Orqanın sistemində yeni informasiya və kommunikasiya texnologiyalarının tətbiqi işini təşkil etmək;

3.1.25. müvafiq sahə üzrə statistik uçot aparılmasını təmin etmək;

3.1.26. Orqanda kargüzarlıq, rəqəmsal sənəd dövriyyəsi və arxiv işinin aparılmasını təşkil etmək;

3.1.27. Orqanda icra və əmək intizamına riayət olunması üçün tədbirlər görmək;

3.1.28. inzibati icraata dair fəaliyyətini "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunmuş prosedur qaydaları daxilində və prinsiplər əsasında həyata keçirmək;

3.1.29. "İctimai iştirakçılıq haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, Orqan yanında İctimai Şura yaradılmasını təmin etmək;

3.1.30. "Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, səfərbərlik hazırlığı və səfərbərlik tədbirlərinin həyata keçirilməsində iştirak etmək;

3.1.31. Orqan haqqında Əsasnamədə göstərilən və Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

### 4. Orqanın hüquqları

4.1. Orqan haqqında Əsasnamə ilə müəyyən edilmiş vəzifələrini yerinə yetirmək üçün Orqan aşağıdakı hüquqlara malikdir:

4.1.1. müvafiq sahədə normayaratma fəaliyyətindən irəli gələn hüquqları həyata keçirmək;

4.1.2. müvafiq sahə üzrə Azərbaycan Respublikasının beynəlxalq müqavilələrə tərəfdar çıxması barədə təşəbbüslə çıxış etmək;

4.1.3. beynəlxalq tədbirlərdə, o cümlədən forum, konfrans, sərgi və digər tədbirlərdə iştirak etmək və belə tədbirlərin keçirilməsini təşkil etmək;

4.1.4. fəaliyyət istiqamətlərinə aid məsələlərə dair dövlət orqanlarına (qurumlarına) və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

4.1.5. fəaliyyət istiqamətləri üzrə beynəlxalq təcrübəni öyrənmək, verilmiş səlahiyyətlər daxilində beynəlxalq əməkdaşlığı həyata keçirmək;

4.1.6. fəaliyyət istiqamətlərinə uyğun rəy və təkliflər vermək, təhlillər, tədqiqatlar, araşdırmalar, yoxlamalar və ümumiləşdirmələr aparmaq, metodiki və analitik materiallar, habelə tövsiyələr hazırlamaq;

4.1.7. normativ hüquqi aktlarla müəyyən olunmuş qaydada tabeliyində müvafiq qurumlar və ya strukturu daxilində bölmələr (idarə, şöbə) yaratmaq, yenidən təşkil və ləğv etmək, həmçinin strukturuna daxil olmayan tabeliyindəki qurumların yaradılması, yenidən təşkil və ləğv edilməsi üçün təkliflər vermək;

4.1.8. müstəqil ekspertləri və mütəxəssisləri, məsləhətçi və elmi təşkilatları müqavilə əsasında, bu məqsəd üçün nəzərdə tutulmuş vəsait çərçivəsində öz fəaliyyətinə cəlb etmək, işçi qruplar və komissiyalar yaratmaq;

4.1.9. xüsusi bülletenlər və digər nəşrlər buraxmaq;

4.1.10. istifadəsinə verilmiş dövlət əmlakı üzərində normativ hüquqi aktlarla müəyyən olunmuş hüquqlardan istifadə etmək;

4.1.11. səlahiyyətlərinə aid edilmiş məsələlərlə bağlı məhkəmələrdə müvafiq prosessual qanunvericilikdə nəzərdə tutulmuş hüquqları həyata keçirmək;

4.1.12. "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq satınalmalar təşkil etmək;

4.1.13. Orqan haqqında Əsasnamədə göstərilən və Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

### 5. Orqanın fəaliyyətinin təşkili

5.1. Orqanın Aparatı və onun strukturuna daxil olan qurumlar (dövlət agentlikləri, dövlət xidmətləri, yerli bölmələr və s.) və strukturuna daxil olmayan tabeliyindəki digər qurumlar (hüquqi şəxslər və s.), habelə Naxçıvan Muxtar Respublikasının aidiyyəti icra hakimiyyəti orqanı (əgər vardırsa) Orqanın vahid sistemini təşkil edir. Orqan öz fəaliyyətini bilavasitə və həmin qurumlar vasitəsilə həyata keçirir.

5.2. Orqan işçilərinin ümumi say həddi Azərbaycan Respublikasının Prezidenti tərəfindən və ya Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi hallarda Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilir. Orqanın strukturunu Azərbaycan Respublikasının Prezidenti müəyyən edir. Orqanın strukturuna daxil olmayan tabeliyindəki qurumların (hüquqi şəxslərin və s.) siyahısını Azərbaycan Respublikasının Nazirlər Kabineti təsdiq edir.

5.3. Orqanın fəaliyyətinə Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən şəxs (nazir, sədr, rəis və s.) rəhbərlik edir. Orqanın rəhbəri Orqana həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır.

5.4. Orqanın rəhbərinin Azərbaycan Respublikasının Prezidenti tərəfindən və ya Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi hallarda Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən müavini (müavinləri) vardır. Orqan rəhbərinin müavini ona Orqan rəhbərinin həvalə etdiyi vəzifələri yerinə yetirir və bunun üçün şəxsən məsuliyyət daşıyır.

5.5. Orqanın rəhbəri:

5.5.1. Orqanın fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

5.5.2. müavinləri arasında vəzifə bölgüsü aparır, habelə Orqanın digər vəzifəli şəxslərinin səlahiyyətlərini müəyyənləşdirir və qarşılıqlı fəaliyyətini təmin edir;

5.5.3. Orqanın Aparatının struktur bölmələrinin, strukturuna daxil olan qurumların (əsasnamələri Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilən qurumlar istisna olmaqla) və Elmi-Texniki Şurasının əsasnamələrini, strukturuna daxil olmayan tabeliyindəki qurumların (nizamnamələri Azərbaycan Respublikasının Prezidenti, Azərbaycan Respublikasının Nazirlər Kabineti və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən təsdiq edilən hüquqi şəxslər istisna olmaqla) nizamnamələrini təsdiq edir;

5.5.4. bu Əsasnamənin 5.11-ci bəndində Orqanın Kollegiyasının səlahiyyətlərinə aid edilməmiş məsələlər barədə normativ hüquqi aktları qərarlar formasında qəbul edir;

5.5.5. Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi hallarda Orqanın strukturuna daxil olan qurumların əsasnamələrini və strukturuna daxil olmayan tabeliyindəki qurumların nizamnamələrini təsdiq üçün təqdim edir;

5.5.6. dövlət büdcəsindən ayrılmış vəsait və işçilərin müəyyən olunmuş say həddi daxilində Orqanın Aparatının struktur bölmələrini və Orqanın strukturuna daxil olan qurumların struktur bölmələrini (müvafiq strukturların Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edildiyi hallar istisna olmaqla) yaradır və ləğv edir;

5.5.7. "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, korrupsiya ilə əlaqədar hüquqpozmalara qarşı tədbirlər görür, o cümlədən korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumatların idarədaxili qaydada verilməsi mexanizmini, həmçinin bu məlumatların qəbul edilməsi və araşdırılması, maraqlar toqquşması və korrupsiyanın qarşısının alınması məsələləri üzrə konfidensial məsləhət verilməsi və korrupsiya risklərinin idarə edilməsi üçün bir və ya bir neçə səlahiyyətli struktur bölməni (şəxsi) müəyyən edir;

5.5.8.Azərbaycan Respublikası Prezidentinin başqa qayda müəyyən etdiyi hallar istisna olmaqla, müəyyən edilmiş struktur, əməyin ödənişi fondu və işçilərin say həddi daxilində Orqanın Aparatının, strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki qurumların strukturunu (bu Əsasnamənin 5.5.6-cı yarımbəndi nəzərə alınmaqla), ştat cədvəlini, ayrılmış büdcə təxsisatı və büdcədənkənar gəlirləri daxilində onların gəlir və xərclər smetasını təsdiq edir;

5.5.9. dövlət büdcəsindən ayrılan vəsaitin, büdcədənkənar vəsaitin, habelə tabeliyindəki qurumların göstərdiyi xidmətlərdən (gördüyü işlərdən) əldə olunan gəlirlərin sərəncamçısı olaraq, maliyyə vəsaitini bölüşdürür, ayrılmış vəsaitin həddi nəzərə alınmaqla, Orqanın Aparatının struktur bölmələrinin, strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki qurumların işçilərinin vəzifə maaşlarına əlavələrin, maddi yardım, mükafat və qanunla müəyyən olunmuş digər ödənişlərin verilməsini təmin edir;

5.5.10. Orqanın səlahiyyətlərinə aid edilmiş məsələlər üzrə müvafiq il üçün dövlət büdcəsinin və büdcədənkənar fondların formalaşdırılması ilə bağlı təkliflər verir;

5.5.11. Azərbaycan Respublikasının və xarici ölkələrin dövlət orqanları (qurumları), hüquqi və fiziki şəxslər ilə, habelə beynəlxalq təşkilatlarla münasibətlərdə Orqanı təmsil edir, verilmiş səlahiyyətlər daxilində danışıqlar aparır və müvafiq beynəlxalq sənədləri imzalayır;

5.5.12. Apellyasiya Şurasının sədrini, habelə Apellyasiya Şurası sədrinin təqdimatı (təklifi) əsasında Apellyasiya Şurasının digər üzvlərini, Katibliyin rəhbərini və tərkibini təsdiq edir;

5.5.13. Azərbaycan Respublikası Prezidentinin başqa qayda müəyyən etdiyi hallar və Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən şəxslər istisna olmaqla, Orqanın Aparatının, strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki qurumların işçilərini vəzifəyə təyin və vəzifədən azad edir, onlar barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görür;

5.5.14. Orqanın Aparatının, onun strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki qurumların işçilərinə müvafiq olaraq xüsusi, hərbi, diplomatik rütbələr və ixtisas dərəcələri verir, ali xüsusi, hərbi, diplomatik rütbələrin və ixtisas dərəcələrinin verilməsi, həmçinin xüsusi fərqlənmiş işçilərə Azərbaycan Respublikasının fəxri adlarının verilməsi və ya onların dövlət təltifləri ilə təltif olunması üçün Azərbaycan Respublikasının Prezidentinə təqdimat verir;

5.5.15. əmr və sərəncamlar formasında qeyri-normativ hüquqi aktlar qəbul edir və onların, habelə Orqanda qəbul edilmiş normativ hüquqi aktların icrasını təşkil edir, yoxlayır və buna nəzarəti həyata keçirir;

5.5.16. Orqanın vəzifəli şəxslərinin normativ hüquqi aktlara zidd olan qərarlarını ləğv edir;

5.5.17. Orqan haqqında Əsasnamədə göstərilən və normativ hüquqi aktlara uyğun olaraq digər səlahiyyətləri həyata keçirir.

5.6.Orqanın rəhbəri öz səlahiyyətlərinin bir hissəsinin həyata keçirilməsini, yaxud vəzifələrinin müvəqqəti icrasını müavinlərindən birinə həvalə edə bilər.

5.7. Orqanın strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki qurumların rəhbərləri onlara həvalə edilmiş vəzifələrin yerinə yetirilməsi və funksiyaların həyata keçirilməsi üçün birbaşa məsuliyyət daşıyırlar.

5.8. Orqanda Orqanın rəhbərindən (Kollegiyanın Sədri), onun müavinindən (müavinlərindən), Naxçıvan Muxtar Respublikasının aidiyyəti icra hakimiyyəti orqanının (əgər vardırsa) rəhbərindən və Orqanın digər rəhbər işçilərindən ibarət Kollegiya yaradılır. Orqanın Kollegiyasının tərkibinə mütəxəssislər və alimlər də daxil edilə bilərlər.

5.9. Orqanın Kollegiyası üzvlərinin sayı və tərkibi Azərbaycan Respublikasının Prezidenti tərəfindən və ya Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi hallarda Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilir.

5.10. Orqanın Kollegiyası öz iclaslarında Orqanın fəaliyyəti ilə bağlı məsələləri müzakirə edir və müvafiq qərarlar qəbul edir.

5.11. Orqanın Kollegiyası qərarlar formasında aşağıdakı normativ hüquqi aktları qəbul edir:

5.11.1. Orqanla digər şəxslər (qurumlar) arasında münasibətləri tənzimləyən normativ hüquqi aktlar;

5.11.2. qəbul edilməsi Azərbaycan Respublikasının Prezidenti və ya Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən Orqana tapşırılmış konkret normativ hüquqi aktlar;

5.11.3. bir neçə dövlət orqanının fəaliyyətini tənzimləyən vahid (birgə) normativ hüquqi aktlar;

5.11.4. aidiyyəti dövlət orqanları ilə razılaşdırılmalı olan normativ hüquqi aktlar;

5.11.5. bu Əsasnamənin 5.11.1-5.11.4-cü yarımbəndlərinə uyğun olaraq Orqanın Kollegiyasının qəbul etdiyi normativ hüquqi aktların ləğvi və ya onlarda dəyişiklik edilməsi barədə normativ hüquqi aktlar.

5.12. Orqanın Kollegiyasının iclasları onun üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir. Orqanın Kollegiyasının qərarları onun üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir. Orqanın Kollegiyasının qərarı qəbul edilərkən səslər bərabər olduqda, Kollegiya sədrinin səsi həlledici hesab edilir.

5.13. Orqanın Kollegiyasının üzvləri arasında fikir ayrılığı yarandığı hallarda Orqanın rəhbəri bu barədə bu Əsasnamənin 5.9-cu bəndinə əsasən, müvafiq olaraq Azərbaycan Respublikasının Prezidentinə və ya Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat verərək öz qərarını həyata keçirir. Orqanın Kollegiyasının üzvləri şəxsi fikirlərini bu Əsasnamənin 5.9-cu bəndinə əsasən, müvafiq olaraq Azərbaycan Respublikasının Prezidentinə və ya Azərbaycan Respublikasının Nazirlər Kabinetinə çatdıra bilərlər (hərbi qurumlara münasibətdə həmin sahədə qanunların tələbləri nəzərə alınmaqla).

5.14. Orqanın Kollegiyasının iclaslarına digər dövlət orqanlarının (qurumlarının) və hüquqi şəxslərin, o cümlədən qeyri-hökumət təşkilatlarının nümayəndələri dəvət edilə bilərlər.

5.15. Müvafiq sahədə elmi-texniki nailiyyətlərin və qabaqcıl təcrübənin öyrənilməsi və həyata keçirilməsi üçün Orqanda ictimai (ödənişsiz) əsaslarla fəaliyyət göstərən Elmi-Texniki Şura yaradıla bilər.

5.16. Orqanda, sahibkarlıq fəaliyyəti göstərən fiziki və hüquqi şəxslər tərəfindən özlərinin sahibkarlıq fəaliyyəti ilə bağlı Orqanın, onun strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki digər qurumların qərarlarından, hərəkət və ya hərəkətsizliyindən (Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 3 fevral tarixli 762 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Mərkəzi icra hakimiyyəti orqanlarının Apellyasiya Şuraları haqqında Nümunəvi Əsasnamə"nin 1.9-cu bəndində nəzərdə tutulmuş hallar istisna olmaqla) verdikləri şikayətlərə, habelə dövlət qulluğuna qəbulla bağlı keçirilən müsahibənin nəticələrindən namizədlərin verdikləri şikayətlərə baxan, ictimai (ödənişsiz) əsaslarla fəaliyyət göstərən və kollegial orqan olan Apellyasiya Şurası yaradılır.

# Azərbaycanın xarici siyasətinin uğurları

## Yeni perspektivlər və imkanlar yaranır

**Noyabrın 16-da Daşkənddə Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşü keçirildi. Görüşdə Qazaxıstan, Qırğızıstan, Tacikistan, Türkmənistan və Özbəkistan prezidentləri ilə yanaşı, Azərbaycan Prezidenti İlham Əliyev ilk dəfə olaraq tamhüquqlu iştirakçı kimi iştirak etdi.**



Əlbəttə ki, bu görüşün əsas nəticə sənədi Azərbaycanın "Mərkəzi Asiya" formatına tamhüquqlu üzv kimi qəbul edilməsi qərarı oldu. Birgə Bəyanatda həmçinin Mərkəzi Asiyanın Regional Təhlükəsizlik, Sabitlik və Davamlı İnkişaf Konsepsiyası, eləcə də 2026-2028-ci illər üçün Təhlükəsizlik Riskləri Kataloqu təsdiqləndi. Xarici işlər nazirlərinə tənzimləyici sənədləri Azərbaycanın yeni statusuna uyğunlaşdırmaq tapşırıldı.

Bu addımı regional əməkdaşlıq arxitekturasında yeni bir mərhələnin, həm də daha institusional "Mərkəzi Asiya+Azərbaycan" formatının başlanğıcı kimi qəbul etmək olar. Mərkəzi Asiya məsləhət formatına daxil olmaq Azərbaycanın regionda körpü rolunu gücləndirir. Azərbaycan Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi: " Azərbaycan Cənubi Qafqazda yerləşsə də, bu gün fəal qarşılıqlı fəaliyyət sayəsində Mərkəzi Asiya və Azərbaycan artıq qlobal miqyasda nüfuzu əhəmiyyətli dərəcədə artan vahid geosiyasi və geoiqtisadi regiondur". Bu, ölkəmizin xüsusən də Avrasiya xəritəsindəki strateji təsirini genişləndirir. Eyni zamanda onun beynəlxalq mövqeyini gücləndirir və tranzit, su ehtiyatları, enerji və təhlükəsizlik kimi strateji məsələlərdə ortaq mövqelərin inkişaf etdirilməsinə imkan verir. Bundan əlavə, Azərbaycanın Mərkəzi Asiya ölkələrinin əməkdaşlıq formatına qoşulması qərarı regionda qlobal səhnədə vahid və əlaqələndirilmiş mövqe nümayiş etdirmək istəyinin artmasını əks etdirir. Bu qərar Mərkəzi Asiya ölkələrinin beynəlxalq forumlarda səsini gücləndirəcəkdir.

Azərbaycanın Mərkəzi Asiya dövlətləri ilə birlikdə Təhlükəsizlik Konsepsiyası və Risk Kataloqu kimi sənədlərə daxil edilməsi sərhədyanı təhdidlərə kollektiv cavab vermək potensialını artırır. Müasir risklərə (ekstremizm, kibertəhdidlər, su qeyri-sabitliyi) birgə yanaşmaların hazırlanması bütün iştirakçıların dayanıqlılığını artırır.

Bu tarixi qərarın Azərbaycan üçün iqtisadi faydaları da olacaq. Belə ki, sənaye və investisiya əməkdaşlığı gücləndiriləcək. Nazirlər səviyyəsində "Orta Asiya+ Azərbaycan" formatı çərçivəsində birgə sənaye əməkdaşlığını dərinləşdirmək, birgə istehsal müəssisələrini inkişaf etdirmək və dəyər zəncirləri yaratmaq niyyəti artıq açıqlanmışdı.

Proses Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi, yeni bazarlara çıxış və genişmiqyaslı birgə investisiya layihələrinin həyata keçirilməsi üçün yeni imkanlar açır. Coğrafiyasına görə Azərbaycanın əsas tranzit əlaqəsi olduğunu nəzərə alsaq, Daşkənd görüşü Cənubi Qafqazdan keçən Orta dəhlizin inkişafı üçün əlavə stimul hesab edilə bilər. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, ölkə ərazisindən tranzit həcmləri əhəmiyyətli dərəcədə artıb və nəqliyyat dəhlizlərindən rəqəmsal layihələrə qədər infrastrukturun modernləşdirilməsi gündəmdədir.

Beləliklə, Daşkənddə keçirilən 7-ci Məşvərət Görüşündə qəbul edilən qərar regional əməkdaşlıq arxitekturasında mühüm dönüş nöqtəsidir. "Mərkəzi Asiya+ Azərbaycan" formatı sadəcə deklarativ deyil, həm də institusional formata çevrilir. Bu sistemin konturları illər ərzində - ticarət, enerji, nəqliyyat, mədəni mübadilə, qarşılıqlı diplomatik dəstək və liderlər arasında davamlı təmaslar vasitəsilə formalaşmışdı. Yeni qərar isə Azərbaycan və beş Mərkəzi Asiya ölkəsi üçün iqtisadi, logistika və bütövlükdə strateji müstəvidə yeni perspektivlər açır. Buna görə də bu qərarı tarixi hadisə də adlandırmaq olar.

***Hicran HÜSEYNOVA,***
***Milli Məclisin komitə sədri, professor***

## Regional inteqrasiyanın yeni mərhələsi başlayır

### Azərbaycan ilə Mərkəzi Asiya arasında əlaqələr güclənir

**Azərbaycan bundan sonra Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Görüşündə tamhüquqlu üzv kimi iştirak edəcək. Beləliklə, Mərkəzi Asiya ilə Azərbaycan arasında regional inteqrasiyanın yeni mərhələsi başlayır.**



Milli Məclisin deputatı Nigar Məmmədova qəzetimizə açıqlamasında bildirib ki, Prezident İlham Əliyevin Özbəkistana səfəri, Daşkənddə Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşü bunu bir daha təsdiqləyib. Belə ki, Azərbaycan və Mərkəzi Asiya vahid bir formata çevrilir. Burada Cənubi Qafqazın lokomotivi olan Azərbaycanın fəaliyyətini Mərkəzi Asiya istiqamətində genişləndirməsindən söhbət gedir. "Cənab Prezidentin də söylədiyi kimi, Azərbaycan Cənubi Qafqazda yerləşsə də, bu gün fəal qarşılıqlı fəaliyyət sayəsində ölkəmiz və Mərkəzi Asiya artıq qlobal miqyasda nüfuzu əhəmiyyətli dərəcədə artan vahid geosiyasi və geoiqtisadi regiondur. Azərbaycanla Mərkəzi Asiya dövlətləri arasında münasibətlər xüsusi xarakter daşıyır. Azərbaycan Mərkəzi Asiya ölkələri ilə müttəfiqlik və strateji tərəfdaşlıq, o cümlədən birgə investisiya fondlarının yaradılması haqqında müqavilə və bəyannamələr imzalayıb".

Dövlət başçımız bu günlərdə Özbəkistan Milli İnformasiya Agentliyinə müsahibəsində də qeyd etmişdi ki, Mərkəzi Asiya ölkələri ilə Azərbaycan arasında ikitərəfli əsasda qurulan strateji tərəfdaşlıq və müttəfiqlik münasibətləri, həmçinin fəal siyasi dialoq və qarşılıqlı səfərlər bu əməkdaşlıq formatının uğurunda mühüm rol oynayır. Azərbaycanın bu formata məhz Özbəkistanın paytaxtı Daşkənddə keçirilən toplantıda qəbul edilməsi təsadüfi deyil. Belə ki, bu il Bakı ilə Daşkənd arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümüdür. Prezident qeyd edib ki, son illər reallaşan qarşılıqlı səfərlər Azərbaycan-Özbəkistan münasibətlərinin həm ikitərəfli əsasda, həm də Mərkəzi Asiya və Xəzər regionu da daxil olmaqla, vahid coğrafi məkanda yeni tərəfdaşlıq imkanlarının reallaşdırılması baxımından bütün sahələrdə möhkəmləndirilməsinə əhəmiyyətli təkan verib.

Deputat vurğulayıb ki, tərəflər müxtəlif beynəlxalq təşkilatlar çərçivəsində uğurla əməkdaşlıq edir, bir-birinin təşəbbüslərini dəstəkləyir, qlobal və regional problemlərin həllində ümumi yanaşmalar sərgiləyirlər. Xüsusilə Azərbaycan öz ərazi bütövlüyü və suverenliyini tam bərpa etdikdən sonra Mərkəzi Asiya ölkələri Azərbaycana qardaş dəstəyi nümayiş etdirir. Prezident İlham Əliyev Məşvərət Şurasının toplantısında bu məsələyə bir daha diqqət çəkib və bu dəstəyi yüksək qiymətləndirib.

Deputatın sözlərinə görə, mürəkkəb geosiyasi proseslər kontekstində region ölkələri arasında birliyin və qarşılıqlı dəstəyin gücləndirilməsi zərurətə çevrilib. Əməkdaşlığı daha da gücləndirmək, təhlükəsizliyə və davamlı inkişafa, təhdidlərə qarşı koordinasiyalı cavab hazırlamaq yeni dövrün əsas vəzifələrindəndir. Bu xüsusda regional dialoqun strateji formata çevrilməsi vacibdir.

N.Məmmədova bildirib ki, region ölkələri həmçinin ticarət, iqtisadi və investisiya əməkdaşlığını keyfiyyətcə yeni səviyyəyə qaldırmaq niyyətindədirlər: "Belə ki, ilkin mərhələdə hədəf qarşılıqlı ticarət həcmini və ümumi xarici ticarət dövriyyəsini 1,5-2 dəfə artırmaqdır. Regionda vahid investisiya mühitinin formalaşdırılması, virtual ticarət platformalarının yaradılması da prioritetlər sırasındadır. Regionun yüksək texnologiyalı infrastrukturu və nəqliyyat-logistika potensialı yaxşı imkanlar yaradır. Bu xüsusda Orta dəhlizin əsas seqmenti olan Zəngəzur dəhlizinin (TRIPP) xüsusi əhəmiyyəti var. Dövlət başçımız bir daha bəyan etdi ki, Azərbaycanda Zəngəzur dəhlizinin (TRIPP) tikintisi başa çatmaq üzrədir. İlkin mərhələdə 15 milyon ton yükdaşıma qabiliyyətinə malik bu dəmir yolu Orta dəhlizin əsas arteriyasına çevriləcək. Həmçinin Zəngəzur dəhlizinin (TRIPP) bir hissəsi olacaq avtomagistralın tikintisi də başa çatmaq üzrədir".

Orta dəhliz çərçivəsində Azərbaycanın Özbəkistan və Mərkəzi Asiya dövlətləri üçün mühüm tranzit ölkə qismində çıxış etdiyini deyən deputat bildirib ki, son illərdə Orta dəhliz vasitəsilə ixrac imkanlarının və daşımaların artması xüsusi strateji əhəmiyyət daşıyır. Zəngəzur dəhlizinin (TRIPP) açılması bütün Mərkəzi Asiya ölkələrinə fayda gətirəcək. "Bununla yanaşı, "yaşıl dəhliz"lərin, fiberoptik xətlərin və digər obyektlərin tikintisi və modernləşdirilməsi üçün strateji əhəmiyyətli regional layihələrin həyata keçirilməsi səyləri birləşdirilir. Beləliklə, qısa müddət ərzində Mərkəzi Asiya dialoqdan real tərəfdaşlığa keçdi. Bu region ilə Azərbaycan arasında güclü bir körpü formalaşmaqdadır. Bu isə region ölkələri arasında strateji əlaqələri və sabitliyi gücləndirəcək", - deyə N.Məmmədova bildirib.

***Ə.QARDAŞXANOVA,***
***"Azərbaycan"***

## Azərbaycan Mərkəzi Asiya üçün strateji tranzit qovşağına çevrilib

**Azərbaycan ilə Mərkəzi Asiya ölkələrini dərin tarixi köklər, ortaq mədəni irs, mənəvi dəyərlər birləşdirir. Ölkəmiz Mərkəzi Asiya dövlətləri ilə əlaqələrin genişlənməsinə daim xüsusi önəm verib və bu ölkələrlə əməkdaşlığı xarici siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyənləşdirib.**



Milli Məclisin Gənclər və idman komitəsinin sədri Şahin İsmayılov "Azərbaycan" qəzetinə açıqlamasında bildirib ki, intensiv siyasi dialoq, müxtəlif platformalarda və ikitərəfli əsasda reallaşan təmaslar ölkələr arasında əməkdaşlığın möhkəmlənməsində həlledici rol oynayır. Bu xüsusda Azərbaycan Prezidentinin Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət görüşlərində iştirakı ölkəmiz ilə bu regionun dövlətləri arasında əlaqələrin genişlənməsi baxımından xüsusi əhəmiyyət kəsb edir.

Ş.İsmayılov bildirib ki, Prezident İlham Əliyevin Özbəkistanın Milli İnformasiya Agentliyinə müsahibəsində də qeyd edildiyi kimi, ilk baxışda Xəzər dənizi Azərbaycanı Mərkəzi Asiya ölkələrindən fiziki olaraq ayırsa da, əslində, mühüm birləşdirici amildir: "Bu gün Xəzər dənizi sadəcə coğrafi anlayış deyil, hər şeydən əvvəl xalqlarımızın strateji birliyinin, iqtisadi potensialının və tarixi əməkdaşlığının rəmzidir. Mərkəzi Asiya dövlətləri ilə Azərbaycan arasında əməkdaşlıq gündəliyində Orta dəhliz layihəsi əsas diqqət mərkəzindədir. Bu layihə region ölkələri üçün yeni iqtisadi və logistika imkanları açaraq Azərbaycanı Mərkəzi Asiya üçün strateji tranzit qovşağına çevirir".

Komitə sədri xatırladıb ki, Mərkəzi Asiya Dövlət Başçılarının növbəti Məşvərət görüşü Azərbaycan Prezidentinin də iştirakı ilə dost və qardaş Özbəkistanda baş tutub. Özbəkistan Azərbaycan üçün müttəfiq ölkədir. Xüsusən ölkə prezidentlərinin birgə səyləri nəticəsində son illər əlaqələr sürətlə genişlənir. Həm ikitərəfli, həm də regional formatlarda əməkdaşlıq qardaş xalqlarımızı daha da yaxınlaşdırır. Özbəkistan hökuməti adından Füzulidə məktəbin inşası əsl qardaşlıq nümunəsi, xalqlarımız arasındakı sarsılmaz dostluğun tarixi ifadəsidir.

Şahin İsmayılovun sözlərinə görə, Azərbaycan-Özbəkistan münasibətlərində iqtisadi əməkdaşlıq əlaqələrinin genişlənməsi üzrə davamlı iş aparılır. Dövlətimizin başçısı müsahibəsində qeyd edib ki, Azərbaycanla Özbəkistan arasında ticarət sürətli templə inkişaf edir. Belə ki, 2024-cü ildə əmtəə dövriyyəsi 252 milyon ABŞ dolları təşkil edib və 2025-ci ilin yanvar-sentyabr aylarında bu göstərici keçən ilin eyni dövrü ilə müqayisədə 87,5 faiz artaraq 319 milyon ABŞ dollarına çatıb. "Eyni zamanda ümumi kapitalı 500 milyon ABŞ dolları olan Azərbaycan-Özbəkistan İnvestisiya Şirkəti yaradılıb ki, bu şirkət həm qardaş ölkələrimizdə, həm də digər dövlətlərdə investisiyalar yatırmaq imkanına malikdir. Beləliklə, qarşılıqlı sərmayə layihələrinin genişlənməsi, enerji, sənaye, kənd təsərrüfatı, nəqliyyat və xidmət sektorlarında mövcud əməkdaşlıq qısa müddət ərzində real nəticələr verir. Xankəndidə yaradılan tikiş fabriki isə bu əməkdaşlığın həm iqtisadi, həm də sosial məzmun daşıdığını nümayiş etdirir", - deyə Ş.İsmayılov əlavə edib.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

## *Qırğız politoloq:* "İki xalqın ortaq tarixi yaddaşı uzunmüddətli tərəfdaşlığın möhkəm təməlini formalaşdırır"

**Qırğızıstan-Azərbaycan münasibətləri hazırda dinamik inkişaf mərhələsindədir. Bu yaxınlaşma təkcə siyasi və iqtisadi aspektləri deyil, həm də iki ölkə arasında uzunmüddətli etimadın möhkəmləndirilməsində mühüm rol oynayan mədəni və humanitar əlaqələri əhatə edir.**



Qırğızıstanlı politoloq Mars Sarıyev AZƏRTAC-a müsahibəsində ikitərəfli humanitar əməkdaşlığın perspektivləri barədə danışıb.

- *Qırğızıstan-Azərbaycan münasibətlərinin hazırkı dinamikasını necə qiymətləndirirsiniz? Bu əlaqələrin mədəni və humanitar ölçüsünün əhəmiyyəti barədə nə deyə bilərsiniz?*

- Qırğızıstan ilə Azərbaycan arasındakı münasibətlər hazırda dinamik və sistemli şəkildə inkişaf edir. Hər iki ölkə bir-birini strateji tərəfdaş kimi görür və bu, təkcə siyasət və iqtisadiyyatda deyil, həm də humanitar sahədə - təhsil, mədəniyyət və gənclər mübadiləsində öz əksini tapır. Bu əlaqələr uzunmüddətli etimad və qarşılıqlı anlaşmanın təməlini formalaşdırır.

Xalqlarımız arasında mədəni və tarixi əlaqələrin tarixi dərin keçmişə gedib çıxır. Stalin dövründə bir çox Qafqaz xalqının nümayəndələri, o cümlədən azərbaycanlılar Qırğızıstana deportasiya edildi. Onların nəsilləri qırğız cəmiyyətinin ayrılmaz hissəsinə çevrildi və ölkənin inkişafına əhəmiyyətli töhfələr verdilər.

Onların kənd təsərrüfatına verdiyi töhfələr xüsusilə diqqətəlayiqdir. Qırğızıstanda üzümçülük və şərabçılıq mədəniyyəti əhəmiyyətli dərəcədə qafqazlı immiqrantlarla bağlıdır. Qırğızıstan şampanı tanınan bir brendə çevrilib və fransız mütəxəssisləri onun Fransanın Şampan bölgəsində müəyyən edilmiş standartlara cavab verdiyini təsdiqləyiblər. Bu, azərbaycanlıların və digər Qafqaz xalqlarının gətirdiyi ənənələrin milli nailiyyətlərə və real iqtisadi uğurlara necə çevrildiyinin bariz nümunəsidir.

- *Çoxmillətli mühit Qırğızıstanın müasir mədəniyyətinə necə təsir göstərib?*

- Köçürülmüş xalqların töhfəsi çox böyükdür. Qafqaz mətbəxi Koreya, uyğur, rus və Ukrayna mətbəxləri ilə yanaşı, Qırğızıstan mətbəxinin də təbii bir hissəsinə çevrilib. Bu ənənələrin məcmusu bu gün dünyanın hər yerindən turistləri cəlb edən unikal bir kulinariya səhnəsi yaradıb. Qastronomik müxtəliflik ölkənin vizit kartlarından birinə çevrilib.

Bundan əlavə, mədəni və ədəbi irs xüsusi əhəmiyyət kəsb edir. Azərbaycanda Çingiz Aytmatovun irsi türk xalqlarını birləşdirən amil kimi fəal şəkildə təbliğ olunur. Onun əsərləri və humanist ideyaları ölkələr arasında mənəvi körpü yaradır, türk cəmiyyətlərinin ortaq dəyərlərini, kimliyini və taleyini nümayiş etdirir. Beləliklə, humanitar komponent təkcə mədəni dialoqun elementi deyil, həm də siyasi və sivilizasiya birliyinin amili olur.

- *Belə bir qənaət hasil olur ki, humanitar komponent strateji tərəfdaşlığı gücləndirən amilə çevrilib.*

- Əlbəttə. Məhz humanitar və mədəni əlaqələr təkcə diplomatiya yolu ilə əldə edilə bilməyən etimad mühiti yaradır. Ortaq tarixi yaddaş, azərbaycanlıların Qırğızıstanın inkişafına verdiyi töhfə, mədəni və kulinariya ənənələri və Çingiz Aytmatovun ədəbi irsinin təbliği - bütün bunlar uzunmüddətli tərəfdaşlıq üçün möhkəm təməl təşkil edir. Bu gün Bişkek və Bakı logistika, enerji, nəqliyyat və təhlükəsizlik sahələrində əməkdaşlığı genişləndirir və bu kontekstdə mədəni-humanitar aspekt əsas amil olaraq qalır. Bu isə onların bir-birini sadəcə tərəfdaş deyil, həm də yaxın, qohum xalqlar kimi qəbul etməsinə imkan verir.

## *Robert SEKUTA:* "TRIPP layihəsi Azərbaycan ilə Ermənistan arasında sülhün qurulması baxımından vacib əhəmiyyət daşıyır"

**"TRIPP layihəsi Azərbaycan ilə Ermənistan arasında uzun müddətdir ehtiyac duyulan sülhün qurulması, eyni zamanda Avrasiya boyunca ticarət marşrutlarının genişləndirilməsi baxımından daha vacib əhəmiyyət daşıyır".**



Bu sözləri AZƏRTAC-a açıqlamasında ABŞ-nin Azərbaycandakı keçmiş səfiri Robert Sekuta deyib.

O bildirib ki, ABŞ və Mərkəzi Asiya arasında aparılan müzakirələrdə ABŞ ilə dünyanın bu hissəsi arasında daha geniş iqtisadi əlaqələrin inkişaf etdirilməsi yolları nəzərdən keçirilib. Lakin əgər nadir torpaq, uran və digər növ mineralların daşınması haqqında danışılırsa, dəmir yolu və avtomobil nəqliyyatı sistemlərinin təkmilləşdirilməsinə ehtiyac duyulacaq.

"Düşünürəm ki, bunlar indi edilməlidir və burada iki əsas səbəb var. Birincisi, Mərkəzi Asiya və Avrasiyanın inteqrasiyasına, inkişafına dair ortaq prinsiplərin mövcudluğu, digəri isə Azərbaycanla Ermənistan arasında davamlı sülh baxışının inkişafı, konkretləşməsi və reallaşmasıdır. ABŞ-nin burada daha çox iştirakını görməliyik. Beləliklə, indi hərəkətə keçmək lazımdır. Azərbaycanın yerləşdiyi bu coğrafiyaya baxsaq görərik ki, əgər siz Rusiya və ya İrana daxil olmadan Avrasiyaya getmək istəyirsinizsə, Azərbaycandan keçməlisiniz. Bu infrastrukturun qurulması və bunun reallaşması üçün Azərbaycan, Ermənistan və Türkiyə ilə birgə işləmək çox vacib olacaq. Hazırda bunun üzərində işləməliyik", - deyə R.Sekuta əlavə edib.

# Şəhid əməkdaşımızın xatirəsinə...

## "Azərbaycan" qəzetinin şəhid əməkdaşı Elgün İsmayılovun xatirəsinə həsr edilən növbəti yaradıcılıq müsabiqəsinə yekun vurulub

**Bu gün uzun illər düşmən əsarətində olan torpaqlarımız işğaldan azad olunubsa, suverenliyimiz tamdırsa, Azərbaycanın hər guşəsində bayrağımız dalğalanırsa, bu, həyatını, canını, qanını Vətəninə fəda edən igidlərimiz sayəsindədir. Qəhrəman şəhidlərimizin əziz xatirəsini daim qəlbimizdə yaşatmalı, xatirələrini əbədiləşdirərək gələcək nəsillərə çatdırmalıyıq.**





Bu qəhrəmanlardan biri də şəhidliyinin 31 ili tamam olan, torpaqlarımızın azadlığı uğrunda əbədiyyətə qovuşan "Azərbaycan" qəzetinin əməkdaşı Elgün Dağbəyi oğlu İsmayılovdur. 1974-cü il noyabrın 16-da Bakıda dünyaya göz açan Elgün 1993-cü ildə həqiqi hərbi xidmətə çağırılır və həmin ilin oktyabrında "N" saylı hərbi briqadanın tərkibində Füzuli rayonuna göndərilir. Bir il sonra - 1994-cü ilin yanvarında briqadanın yeri dəyişdirilərək Kəlbəcər bölgəsinə - Murovdağ istiqamətinə keçirilir. Burada bölüyün keçirdiyi 20 əməliyyatdan 16-da iştirak edir. Elgün İsmayılov həmin il mayın 25-dən 26-na keçən gecə Murovun Ömər yüksəkliyində düşmən arxasına keçərək vacib məlumatların gətirilməsi üçün yola çıxan 4 nəfərlik kəşfiyyat dəstəsində yer alır. Bu tapşırıq zamanı düşmən hücumuna məruz qalan və son nəfəsinədək döyüşərək şəhidlik zirvəsinə ucalan Elgün İsmayılov Bakıda torpağa tapşırılır.



Cəmi 20 yaşında əbədiyyətə qovuşan Elgün İsmayılovun xatirəsi artıq 23 ildir çalışdığı "Azərbaycan" qəzeti redaksiyasında böyük ehtiramla yad edilir, xatirəsinə həsr olunan yaradıcılıq müsabiqəsi təşkil edilir. Hər il olduğu kimi, bu il də şəhidin doğum günündə redaksiya kollektivi İkinci Şəhidlər xiyabanına gedərək onun məzarını ziyarət etdilər, məzarına çiçəklər düzərək ruhuna dualar oxudular. Redaksiyada davam edən anım mərasimi Vətən uğrunda canından keçən şəhidlərin xatirəsinin birdəqiqəlik sükutla yad edilməsi ilə başladı.

Tədbiri "Azərbaycan" qəzetinin baş redaktoru Bəxtiyar Sadıqov açaraq bildirdi ki, redaksiya əməkdaşları Elgün İsmayılovun xatirəsinə həsr olunan yaradıcılıq müsabiqəsinə həvəslə qoşulurlar: "Bu gün Vətən müharibəsində əldə edilən möhtəşəm Zəfər Birinci Qarabağ savaşında canından keçən şəhidlərimizin əziz xatirəsinin gənclər üçün əsl qəhrəmanlıq məktəbi olduğunu sübut edir". Baş redaktor vurğuladı ki, 5 il öncə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin "dəmir yumruğ"u ilə xalqın qisası alındı və heç bir şəhidin qanı yerdə qalmadı: "Dövlət başçısının müharibəyə qədər apardığı çətin, qətiyyətli və diplomatik bacarıq tələb edən siyasət, eləcə də müharibənin hərb, diplomatiya və informasiya cəbhələrində qazanılan qələbə bizi qalib dövlətə çevirdi. Azərbaycan Silahlı Qüvvələrinin Vətən müharibəsində qazandığı tarixi hərbi-siyasi qələbə sayəsində xalqımızın milli qüruru özünə qayıtdı. Bu gün biz artıq qalib dövlətik, qalib xalqıq. Öz torpağına sahib çıxmağı, şəhidinin qisasını almağı bacaran qüdrətli dövlətik. Ərazimizdə bir nəfər də olsun separatçı, terrorçu yoxdur. Qalib xalqın nümayəndələri kimi Elgünün xatirəsinə həsr olunmuş yaradıcılıq müsabiqəsini də artıq beş ildir ki, zəfər ovqatı ilə qeyd edirik. 30 il təqvimlərimizdə yer alan qara günlərin yerini indi bayram günləri əvəzləyib. Bu qalibiyyət xoşbəxtliyini bizə ürəklərində vətən sevgisi daşıyan, gözlərini qırpmadan düşmənə sinə gərib ölümün üzərinə gedən qəhrəman oğullarımız bəxş ediblər".



Baş redaktor vurğuladı ki, indi xalqımız Qarabağ və Şərqi Zəngəzurda Müzəffər Lider İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən böyük quruculuğun təntənəsini yaşayır: "Budəfəki müsabiqəyə təqdim olunmuş jurnalist yazılarının hər birinin Vətən müharibəsi qəhrəmanları, işğaldan azad edilmiş ərazilərimizdə icra edilən bərpa-quruculuq işləri ilə bağlı olması da bu baxımdan təsadüfi deyil. Biz hərbi vətənpərvərlik tərbiyəsinə daim diqqət ayırmalı olduğumuzun məsuliyyətini yaxşı anlayırıq".

Sonra müsabiqənin nəticələri elan edildi. Redaksiyanın əməkdaşları Vahid Məhərrəmov, Züleyxa Əliyeva və Ülkər Xaspoladova vətənpərvərlik mövzusunda məqalələrinə görə qalib elan olundular.

*"Azərbaycan"*

# Vətən müharibəsi şəhidinin xatirəsi anılıb



**Şirvandakı Şəhidlər xiyabanında şəhid Əli Əflan oğlu Mənəflinin anım gününə həsr olunmuş tədbir keçirilib.**

Anım mərasimində çıxış edən ŞİH-in başçısı İlqar Abbasov Azərbaycan Ordusunun qüdrətindən, şəhidlərimizin döyüş zamanı göstərdikləri şücaət və vətənpərvərlikdən söz açıb, tarixi Zəfərin əldə olunmasında canından keçən bütün qəhrəman oğullarımızın xatirəsinin əbədi yaşayacağını qeyd edib. Həmçinin şəhid və qazi ailələrinə dövlət səviyyəsində göstərilən diqqət və qayğıdan bəhs edərək Şirvan şəhərində də hər bir şəhid ailəsinin və müharibə iştirakçısının probleminə həssaslıqla yanaşıldığını diqqətə çatdırıb.

YAP Şirvan şəhər təşkilatının sədri Zahir Qəhrəmanov, Polis şöbəsinin rəisi Seymur Əfəndiyev, DTX şəhər şöbəsinin rəisi Mehman Qasımov, şəhid ataları Alim Zülfüqarov, Rəhim Hüseynov da qazanılan tarixi qələbədən və şəhidlərimizin qəhrəmanlıqlarından danışıblar. Bildirilib ki, Vətən müharibəsi bizim şanlı tariximiz, şəhidlər və qazilər qürur mənbəyimizdir. Xalqımız və dövlətimiz qəhrəman övladlarının şücaətini daim yüksək qiymətləndirir, şəhidlərimizin ruhuna ehtiramla yanaşır, xatirəsini uca tutur.

Şəhidin ailə üzvləri göstərilən yüksək diqqət və qayğıya görə minnətdarlıqlarını ifadə ediblər.

Əli Mənəfli ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

*Seyran CAVADOV,*
*"Azərbaycan"*

# Şəhid İlham Abbasovun xatirəsi anılıb

**44 günlük Vətən müharibəsinin şəhidi İlham Əli oğlu Abbasovun anım günündə məzarı ziyarət olunub.**

AZƏRTAC xəbər verir ki, anım günündə şəhidin ailə üzvləri ilə bərabər Füzuli Rayon İcra Hakimiyyətinin əməkdaşları, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Füzuli rayon şöbəsinin nümayəndələri, təhsil və mədəniyyət işçiləri, döyüş yoldaşları, şəhid ailələri, qazilər və sakinlər iştirak ediblər.

Mərasimdə şəhid İlham Abbasovun həyatından və döyüş yolundan danışılıb. Bildirilib ki, əslən Füzuli rayonunun Dilağarda kəndindən olan İlham Abbasov 2000-ci ildə Biləsuvar rayonunun İkinci Çadır şəhərciyində anadan olub. 2003-cü ildə ailəsi ilə birlikdə Füzuli rayonu 3 saylı Qayıdış qəsəbəsinə köçüblər. 2018-ci ildə həqiqi hərbi xidmətə yollanan İlham sərhədçi olaraq Vətənin keşiyində dayanıb və hərbi xidməti fərqlənmə ilə başa vurub. İlham daha sonra müddətdən artıq hərbi qulluqçu kimi ordu sıralarında xidmətini davam etdirib. Vətən müharibəsində Füzuli istiqamətində gedən döyüşlərdə cəbhənin yarılmasında şücaəti ilə seçilib.



O, Füzuli rayonunun Qaraxanbəyli kəndi uğrunda gedən döyüşlərdə şəhid olub.

Prezident İlham Əliyevin sərəncamına əsasən, İlham Abbasov ölümündən sonra "Vətən uğrunda", "Döyüşlərdə fərqlənməyə görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.

# Son söz ədalət məhkəməsinindir

## Təqsirləndirilən erməni separatçıları cinayət əməllərini gizlədə bilmədilər

**Azərbaycan Ordusunun 19-20 sentyabr 2023-cü ildə Qarabağda həyata keçirdiyi lokal antiterror əməliyyatı nəticəsində erməni separatizminə son qoyuldu. 30 ilə yaxın Qarabağda yuva salmış və zaman-zaman Azərbaycan xalqına qarşı qanlı hadisələr, o cümlədən dünyanı sarsıdan Xocalı faciəsi törətmiş separatçıların yuvası darmadağın edildi.**

Uğurla həyata keçirilən antiterror əməliyyatı nəticəsində erməni separatçılarının liderləri və üzvləri - Harutyunyan Arayik Vladimiri, Qukasyan Arkadi Arşaviri, Sahakyan Bako Sahaki, İşxanyan Davit Rubeni, Manukyan David Azatini, Babayan David Klimi, Mnatsakanyan Levon Henrikoviç, Beqlaryan Vasili İvani, Qazaryan Erik Roberti, Allahverdiyan Davit Nelsoni, Stepanyan Qurgen Homeri, Balayan Levon Romiki, Babayan Madat Arakeloviç, Martirosyan Qarik Qriqori, Paşayan Melikset Vladimiri həbs edilərək mühakimə olunmaq, törətdikləri qanlı əməllərə görə qanun qarşısında cavab vermək üçün ölkəmizin paytaxtına gətirildi.

Separatçılar saxlanıldıqları gündən onların əməlləri ölkəmizin peşəkar müstəntiqləri tərəfindən təhqiq olunmağa başlanıldı. Təhqiqat işləri başa çatdıqdan sonra separatçılar məhkəmə qarşına çıxarıldı. Artıq xeyli müddətdir ki, açıq məhkəmə prosesi davam edir.

Noyabrın 13-də Bakı Hərbi Məhkəməsində keçirilən məhkəmə prosesində dövlət ittihamını müdafiə edən prokuror bildirib ki, BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələri Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycan Respublikasının suveren ərazilərinin işğal edildiyini, bununla da Ermənistanın Azərbaycana qarşı təcavüzkar müharibə apardığını təsdiqləyib.

İttiham çıxışında göstərilib ki, Ermənistan tərəfindən Azərbaycana qarşı təcavüzkar müharibə aktiv hərbi əməliyyatların aparılmadığı dövrdə belə faktiki olaraq



dayandırılmayıb, Ermənistan hər zaman təcavüzə, işğala can atıb.

Məhkəmə prosesində o da öz təsdiqini tapıb ki, erməni separatçıları xalqımıza qarşı çirkin əməllərini həyata keçirmək məqsədilə Qarabağ müharibəsinin gedişində atəşkəs rejimini dəfələrlə pozmuşlar. Separatçılar Azərbaycan Respublikası ərazisində qanuni fəaliyyət göstərən onun Silahlı Qüvvələrinin üzvləri, mülki şəxslər, onların əmlakları, mülki təyinatlı dövlət obyektləri, dini, təhsil, elm, tibb obyektləri, xəstə və yaralıların yerləşdiyi yerlər, habelə mühüm strateji əhəmiyyətə malik obyektlər, o cümlədən Bakı-Tbilisi-Ceyhan neft kəmərini hücum obyektinə çeviriblər. Bütün bu qanlı əməllərin beynəlxalq qanunvericiliklə qadağan olunmasına baxmayaraq, erməni separatçıları buna məhəl qoymayaraq cinayətlərini törətməkdə davam ediblər.

Məhkəmə prosesində qeyd edilib ki, istintaqın gedişi zamanı təqsirləndirilən şəxslər - Arayik Harutyunyan, Arkadi Qukasyan və Bako Sahakyan ifadələrində Azərbaycanın işğal altında olan bölgələrinə, xüsusən də Laçın rayonuna Ermənistandan əhalinin köçürüldüyünü təsdiqləyiblər. Bu faktlar həmçinin məhkəmə istintaqında tədqiq edilmiş məktublar, erməni mənbələrinin məlumatları və internet informasiya ehtiyatında olan məlumatlara əsasən təsdiq olunub.

Ümumiyyətlə, erməni separatçıları məhkəmə prosesində nə qədər yalan danışsalar da, onların cinayət əməlləri həm şahid ifadələri, həm də məhkəmə istintaqında tədqiq edilmiş məktublar, erməni mənbələrinin məlumatları və internet informasiya ehtiyatında olan məlumatlarla təsdiqini tapmışdır. Araşdırma zamanı o da məlum olub ki, Ermənistanın hərbi təcavüzü yalnız Azərbaycan Silahlı Qüvvələrinin üzvlərinə yönəlməmiş, eyni zamanda Gəncə, Bərdə, Ağcabədi, Yevlax, Mingəçevir, Zərdab, Kürdəmir, Qəbələ və digər əraziləri hücum obyekti kimi müəyyənləşdirmişdir.

Göründüyü kimi, erməni separatçılarının qanlı əməlləri sərhəd tanımır. Onlar harada, hansı bölgədə olursa-olsun, zaman-zaman xalqımıza qarşı qanlı əməllər törədiblər. Odur ki, erməni separatçıları haqq məhkəməsindən heç yana qaça bilməyəcəklər. Təqsirli bilinən separatçıların günahları sübuta yetirildikdən sonra layiqli cəzalarını alacaqlar. Çox yerində deyilib ki, heç bir cinayət cəzasız qalmır.

Prosesin gedişindən hiss olunur ki, separatçıların məhkəməsi sona yaxınlaşmaq üzrədir. Son məhkəmə prosesində təqsirləndirilən şəxslərin cəzalandırılmasına dair prokurorların təklifləri səsləndirilib. Son söz ədalət məhkəməsinindir.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

# Maqsud İbrahimbəyov Yaradıcılıq Mərkəzində "Neft bumu hamıya gülümsəyir" festivalının açılışı olub





**Maqsud İbrahimbəyov Yaradıcılıq Mərkəzində görkəmli yazıçı, dramaturq və ssenarist Maqsud İbrahimbəyovun 90 illik yubileyinə həsr olunmuş "Neft bumu hamıya gülümsəyir" festivalının açılışı olub.**



AZƏRTAC xəbər verir ki, tədbirdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva iştirak edib.

Mərkəzin direktoru Anna İbrahimbəyova layihəni dəstəkləyən və onun hazırlanmasında iştirak edən hər kəsə minnətdarlığını bildirib. Kurator Nigar Rzayeva qeyd edib ki, festival teatr, ədəbiyyat, kino, təsviri incəsənət və müasir düşüncəni bir araya gətirir, keçmişlə indiki zaman arasında canlı mədəni dialoq yaradır.

N.Rzayeva vurğulayıb ki, Maqsud İbrahimbəyovun eyniadlı pyesi əsasında yaradılan festival insanın böyük bir irəliləyişin astanasında dayandığı anı təsvir edir.

"Baş qəhrəman çaşqınlıq hiss edir. Bu yeni mərhələnin onu hara aparacağını bilmir. Bu gün biz də öz texnoloji, sürətli və həyəcanlı "bum"umuzda yaşayırıq. Dövrlər dəyişir, amma insanın daxili dünyası və əsas dəyərləri dəyişməz olaraq qalır", - deyə N.Rzayeva qeyd edib.

Festival müəllifin yaradıcı irsindən ilhamlanan çoxjanrlı bir məkan yaradır və onun əsərlərinin bədii potensialını yenidən kəşf edir. 1960-cı illərdə yazılmış "Neft bumu hamıya gülümsəyir" pyesi seçim, məsuliyyət və taleyin universal mövzularını XXI əsrdə də aktuallığını qoruyan suallar kimi ortaya çıxarır.

Tədbir Azərbaycan Respublikasının Əməkdar artisti Firdovsi Atakişiyevin Maqsud İbrahimbəyovun "Timka ilə neftimiz" hekayəsinin hissə-hissə oxunuşu ilə davam edib.

Mərasimin sonunda tanınmış rusiyalı jurnalist Mixail Qusman dostu Maqsud İbrahimbəyov haqqında səmimi xatirələrini bölüşüb. O, Maqsudla tanış olmaq və ünsiyyət qurmaq fürsətinin "taleyin bir hədiyyəsi" və çox dəyərli bir həyat təcrübəsi olduğunu vurğulayıb.

M.Qusman qeyd edib ki, o, İbrahimbəyovu təkcə görkəmli yazıçı və dramaturq kimi deyil, həm də olduqca gənc və enerjili bir insan kimi xatırlayır.

Onun fikrincə, Maqsud İbrahimbəyov əbədi olaraq Azərbaycanın ən dəyərli oğullarından biri - ölkəsini və xalqını sonsuz sevən, doğma torpağına bütün varlığı ilə sadiq bir şəxsiyyət olaraq qalacaq.

Qeyd edək ki, Maqsud İbrahimbəyov Yaradıcılıq Mərkəzinin fəaliyyəti yazıçının irsinin qorunması və yeni mədəni təşəbbüslərin dəstəklənməsinə yönəldilib. Festival bu missiyanı keçmişi və bu günü birləşdirərək, nəsillər arasında dialoq məkanını genişləndirərək və bu gün də əhəmiyyətini itirməyən müəllifin ideyalarına diqqəti qaytararaq davam etdirir.

# Daşkənddə Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşündə iştirak edən dövlət başçılarının şərəfinə atəşfəşanlıq olub



Noyabrın 15-də Daşkənddə Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşündə iştirak edən dövlət başçılarının şərəfinə atəşfəşanlıq olub.

# Qırğız gömrük xidmətinin nümayəndə heyəti ilə görüş keçirilib

**Noyabrın 17-də Dövlət Gömrük Komitəsində Qırğız Respublikası Nazirlər Kabineti yanında Dövlət Gömrük Xidmətinin nümayəndə heyəti ilə görüş keçirilib.**



Səfər Dövlət Gömrük Komitəsinin gömrük işinin təşkili sahəsində əldə etdiyi qabaqcıl təcrübələrin öyrənilməsi məqsədilə təşkil olunub.

Görüşdə iki ölkə arasında müxtəlif sahələrdə, o cümlədən gömrük işinin təşkili istiqamətində səmərəli əməkdaşlıqdan məmnunluqla bəhs edilib. Qeyd olunub ki, gömrük işinin səmərəliliyinin artırılmasında təcrübə mübadiləsi mühüm amillərdən biridir və Azərbaycan gömrüyü bu istiqamətdə əldə etdiyi uğurlu nəticələri paylaşmağın ümumi işə fayda verəcəyi qənaətindədir.

Qeyd edək ki, beş gün davam edəcək səfər çərçivəsində Dövlət Gömrük Komitəsinin mütəxəssisləri qırğız həmkarlarını bir pəncərə sistemi, risklərin idarəedilməsi, texniki nəzarət vasitələrindən istifadə, rəqəmsallaşma, süni intellektin tətbiqi, hədəf qrupları ilə əlaqələrin qurulması və digər sahələrdə əldə etdikləri qabaqcıl təcrübələr barədə məlumatlandıracaqlar. Həmçinin Qırğız Respublikası gömrük xidmətinin əməkdaşları da təqdimatla çıxış edəcəklər.

Səfər çərçivəsində Qırğız gömrük xidmətinin əməkdaşları, həmçinin Bakı Baş Gömrük İdarəsində və Abşeron Logistika Mərkəzində gömrük işinin təşkili ilə tanış olacaq, əməliyyatları əyani şəkildə izləyəcəklər.

# Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası və Vəkillər Kollegiyası arasında Əməkdaşlıq haqqında Memorandum imzalanıb

**Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasında (AHİK) Vəkillər Kollegiyasının nümayəndələri ilə görüş keçirilib.**



Konfederasiya sədri Sahib Məmmədov ölkəmizdə həmkarlar ittifaqlarının səmərəli fəaliyyəti üçün yaradılan əlverişli şəraiti vurğulayıb, ittifaq üzvlərinin əmək, sosial-iqtisadi hüquqlarının müdafiəsi, sağlamlığının qorunması, müalicə və istirahətinin təşkili istiqamətində görülən işlərdən danışıb.

Görüşdə həmkarlar ittifaqları sistemində aparılan islahatlar, tətbiq edilən yeniliklər, həyata keçirilən layihələr barədə də ətraflı məlumat verilib. Qeyd edilib ki, Konfederasiyanın Əməyin Mühafizəsi və Hüquqi Yardım Mərkəzi tərəfindən müraciətçilərə işçi hüquqları ilə bağlı ödənişsiz dəstək göstərilir, maarifləndirmə tədbirləri təşkil olunur.

Vəkillər Kollegiyasının sədri Anar Bağırov Azərbaycan qanunvericiliyində əmək hüquqlarını tənzimləyən mükəmməl qanunvericilik bazasını vurğulayıb, əmək hüquqlarının müdafiəsi sahəsində AHİK tərəfindən aparılan islahatları və tətbiq edilən yenilikləri yüksək dəyərləndirib.

Tədbirdə iki qurum arasında əlaqələrin əhəmiyyətindən bəhs edilib, əməkdaşlığın istiqamətlərinə dair fikir mübadiləsi aparılıb.

Görüşdə Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası ilə Vəkillər Kollegiyası arasında birgə Əməkdaşlıq haqqında Memorandum imzalanıb.

Memorandum həmkarlar ittifaqı üzvlərinin hüquq və maraqlarının daha etibarlı müdafiəsi, hüquqi maarifləndirmə tədbirlərinin artırılması və bu sahədə birgə fəaliyyətin genişləndirilməsini nəzərdə tutur.

Sənədə əsasən, tərəflər əmək hüquqları üzrə elmi-praktiki araşdırmaların təşviqi, həmkarlar ittifaqı üzvləri və vəkillər üçün seminar, təlim və konfransların keçirilməsi və s. sahələrdə əməkdaşlıq edəcəklər.

Sonra Vəkillər Kollegiyasının nümayəndələri "Kurort" Turizm İnformasiya Mərkəzində tətbiq edilən yeniliklər, eləcə də Əməyin Mühafizəsi və Hüquqi Yardım Mərkəzinin fəaliyyəti ilə tanış olublar.

*Nərminə ƏSGƏROVA,*
*"Azərbaycan"*

# Bakı Ümumdünya Telekommunikasiyanın İnkişafı Konfransına evsahibliyi edir

**Noyabrın 17-də Bakı Konqres Mərkəzində Beynəlxalq Telekommunikasiya İttifaqının (BTİ) Ümumdünya Telekommunikasiyanın İnkişafı Konfransının (WTDC25) açılış mərasimi keçirilib.**




BTİ və Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tərəfdaşlığı ilə keçirilən konfrans "İnklüziv və dayanıqlı rəqəmsal gələcək üçün universal, faydalı və əlçatan bağlantı" mövzusuna həsr olunub.

AZƏRTAC xəbər verir ki, rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev açılış mərasimində Azərbaycan Prezidenti İlham Əliyevin tədbir iştirakçılarına müraciətini oxuyub.

Sonra tədbirdə BTİ-nin baş katibi xanım Dorin Boqdan-Martin və qurumun Telekommunikasiya İnkişaf Bürosunun direktoru Kosmas Lakison Zavazava çıxış ediblər.

Konfransda Azərbaycanda telekommunikasiyanın inkişaf tarixinə həsr edilmiş videoçarx nümayiş olunub.

Noyabrın 28-dək davam edəcək konfransda rəqəmsal inkişaf üçün qlobal yol xəritəsinin (2026 - 2029) qəbul edilməsi, qlobal səviyyədə razılaşdırılmış Bəyannamə və Fəaliyyət Planının hazırlanması, yeni regional təşəbbüslərin müəyyənləşdirilməsi, qlobal səviyyədə telekommunikasiyanın inkişaf prioritetlərinin müəyyən edilməsi, ən az inkişaf etmiş ölkələrin (LDCs), dənizə çıxışı olmayan inkişaf etməkdə olan ölkələrin (LLDCs) və kiçik ada və inkişaf etməkdə olan dövlətlərin (SIDS) rəqəmsal inkişaf ehtiyaclarının həll edilməsi məsələləri diqqət mərkəzində olacaq.

Tədbirə ABŞ, Almaniya, Türkiyə, Rusiya, Fransa, İsrail, Yaponiya, Çin, Tailand, İsveçrə, Yunanıstan, Malayziya, Slovakiya, Qazaxıstan da daxil olmaqla, 160-dan çox ölkədən 2500 iştirakçı qatılıb. Təxminən 60 ölkədən nazir və nazir müavini səviyyəsində nümayəndələr iştirak edirlər.

Konfransa, həmçinin 500-dən artıq gənc qatılıb. Bakıdakı konfransda həm beynəlxalq, həm də yerli gənclərin iştirakı onlara qlobal texnoloji meyillərlə tanış olmaq və beynəlxalq tərəfdaşlıqlar qurmaq üçün imkanlar yaradır.

Qeyd edək ki, Ümumdünya Telekommunikasiyanın İnkişafı Konfransı ölkələr arasında rəqəmsal fərqliliyi aradan qaldırmaq və rəqəmsal transformasiyanı təşviq etmək məqsədilə BTİ tərəfindən 4 ildən bir keçirilir.

"WTDC"yə MDB regionunda ilk dəfə olaraq Azərbaycan evsahibliyi edir. Bu da öz növbəsində regionda texnoloji və elmi sahələrdə, habelə rəqəmsallaşmada ölkəmizin rolunu daha da möhkəmləndirəcək və respublikamızın beynəlxalq miqyasda nüfuzunu gücləndirəcək.

"WTDC-25" kibertəhlükəsizlik, rəqəmsal inklüzivlik, informasiya və kommunikasiya texnologiyaları tətbiqləri, innovasiya, İKT üzrə statistika və indikatorlar, İKT-nin tənzimlənməsi və digər bu kimi sahələr üzrə inkişafa dair mövzuları, layihələri və proqramları nəzərdən keçirmək üçün nadir imkan yaradır.

# *Türkiyəli ekspert:* "Ankara-Bakı ittifaqı Cənubi Qafqazda sabitliyin təminatıdır"

**"Türkiyə və Azərbaycan arasındakı münasibətlərin mövcud səviyyədə qorunması bölgədə sabitliyin təminatıdır və Cənubi Qafqazda dayanıqlı sülhün təməl daşını təşkil edir".**

AZƏRTAC xəbər verir ki, bu fikirləri Ankaradakı Avrasiya Araşdırmaları Mərkəzinin (AVİM) eksperti Hazel Çağan Elbir bildirib. Onun sözlərinə görə, qardaş ölkələrin ittifaqı iki xalqın tarixi və mədəni birliyinə əsaslanır, hər iki dövlətin strateji maraqlarına cavab verir.

"Türkiyə və Azərbaycanın qarşılıqlı fəaliyyəti "Bir millət, iki dövlət" ifadəsinin təcəssümüdür və regionda qüvvələr balansının formalaşmasında əsas rol oynayır", - deyə H.Ç.Elbir vurğulayıb.




Ekspert qeyd edib ki, Ankara və Bakının xarici siyasətinin fəal koordinasiyası Cənubi Qafqazda sabitliyi möhkəmləndirir: "Heç də təsadüfi deyil ki, rəsmi Ankara İrəvanla münasibətlərin normallaşdırılmasını Azərbaycan və Ermənistan arasında danışıqlarda əldə edilən irəliləyişlə açıq şəkildə əlaqələndirir. Bu, Türkiyənin strateji seçimidir və göstərir ki, iki qardaş ölkənin maraqları sıx şəkildə bir-biri ilə bağlıdır, Ankara və Bakı qarşılıqlı etimada əsaslanan tərəfdaşlıq modeli qurublar".

"Regiondakı proseslərə istənilən yanaşma qərəzsiz olmalı, Cənubi Qafqazın tarixi reallıqlarına və beynəlxalq hüquq normalarına əsaslanmalı, tərəflərin qarşılıqlı maraqları nəzərə alınmalıdır", - deyə Ankara analitik mərkəzinin eksperti vurğulayıb.

O, ekspert icmasını və xarici siyasətçiləri Türkiyə və Azərbaycan ittifaqının mədəni və strateji "dərinlik" amilini əsas götürməyə çağırıb.

AVİM eksperti əminliyini ifadə edib ki, "Türkiyə və Azərbaycanın həmrəyliyi Qafqaz regionundakı ziddiyyətlərin qordi (gordian) düyününü açmağa imkan verəcək".

# Azərbaycanı dünya siyasətində söz sahibinə çevirən Lider



## "Mərkəzi Asiya+Azərbaycan" iqtisadi cəhətdən ölkəmizə nə verəcək

### İlham ƏLİYEV: "Azərbaycan və Mərkəzi Asiya Şərqlə Qərb, Şimalla Cənub arasında birləşdirici bənd və körpüdür"

**Mərkəzi Asiya Dövlət Başçılarının Daşkənddə keçirilən 7-ci Məşvərət Görüşü region diplomatiyasının tarixinə mühüm bir hadisə kimi yazıldı. Budəfəki görüş yeni bir mərhələnin başlanğıcı kimi bütün tərəflər üçün vacib dönüş nöqtəsi oldu. Azərbaycan isə rəsmi şəkildə Mərkəzi Asiya Məşvərət Görüşünün tamhüquqlu üzvü seçildi.**

Bununla da Mərkəzi Asiya ilə Azərbaycan arasında əməkdaşlığın coğrafiyası genişləndi və "Mərkəzi Asiya + Azərbaycan" adlanan yeni bir platformanın qapıları açıldı. Azərbaycanın bu formata daxil olması Mərkəzi Asiyada yeni əməkdaşlıq əlaqələrinin formalaşması baxımından vacib addımdır. Bu vaxta kimi əsasən "beşlik"dən ibarət olan Mərkəzi Asiya formatı indi Azərbaycanın qoşulması ilə "altılıq" şəklinə keçir ki, bu da regionda inteqrasiyanın yeni dərinliklərinin zəminini yaradır.

Qeyd edək ki, Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət görüşləri ilk dəfə 2018-ci il martın 15-də Qazaxıstanın paytaxtı Astanada keçirilib. Bu format Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin 2017-ci ildə BMT Baş Assambleyasında irəli sürdüyü təşəbbüs əsasında yaranıb. Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət görüşləri Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Türkmənistan və Tacikistan liderlərini bir masa arxasında birləşdirən regional siyasi dialoq platformasıdır. 2018-ci ildən etibarən keçirilən bu görüşlərin əsas məqsədi bölgədə sabitliyi möhkəmləndirmək, iqtisadi əməkdaşlığı genişləndirmək və ölkələr arasında yaranan problemləri həll etmək üçün kollektiv yanaşma formalaşdırmaqdır.

Artıq "Mərkəzi Asiya+Azərbaycan" adlanan platformanın özəlliyi ondadır ki, burada qərarlar sərt protokollar və ya məcburi öhdəliklər üzərində deyil, qarşılıqlı etimad və könüllü siyasi iradə əsasında qəbul edilir. Məşvərət görüşləri Mərkəzi Asiya dövlətlərinin regionda vahid mövqedən çıxış edən birlik kimi görünmək istəklərindən formalaşıb və zamanla təhlükəsizlik, ticarət, nəqliyyat sahələrində əməkdaşlığın əsas koordinasiya meydanına çevrilib.

Coğrafi baxımdan Azərbaycan Asiya ilə Avropanı birləşdirən əlverişli tranzit ölkədir. Xəzərin qərb sahilində yerləşən Azərbaycan həm Şərqdən Qərbə, həm də Şimaldan Cənuba uzanan əsas ticarət yollarının təbii kəsişmə nöqtəsidir. Bu mövqe Mərkəzi Asiya dövlətləri üçün Azərbaycanı dünya bazarları ilə birləşdirən strateji körpü kimi önə çəkir. Həmin məqamı Prezident İlham Əliyev Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşündə çıxış edərkən belə ifadə edib: "Bu gün Azərbaycan və Mərkəzi Asiya Şərqlə Qərb, Şimalla Cənub arasında birləşdirici bənd və körpüdür. Orta dəhlizin inkişafı ölkələrimiz üçün strateji əhəmiyyət kəsb edir. Nəqliyyat və logistika infrastrukturunun müasirləşdirilməsi, gömrük prosedurlarının sinxronlaşdırılması və rəqəmsallaşdırılması üzrə birgə səylər yükdaşımaların həcminin artırılması, iqtisadi dayanıqlılığın gücləndirilməsi və beynəlxalq bazarlarda əməkdaşlığın inkişaf etdirilməsi üçün geniş imkanlar açır. Son üç ildə Orta dəhliz üzrə Azərbaycandan keçən yükdaşımalar 90 faiz artıb. Dəhliz boyu gediş vaxtları xeyli azaldılıb. Azərbaycanda Zəngəzur dəhlizinin tikintisi başa çatmaq üzrədir. İlkin mərhələdə 15 milyon ton yükdaşıma qabiliyyətinə malik bu dəmir yolu Orta dəhlizin əsas arteriyasına çevriləcək. Həmçinin Zəngəzur dəhlizinin (TRIPP) bir hissəsi olacaq avtomagistralın tikintisi də başa çatmaq üzrədir".

Prezidentin qeyd etdiyi Orta dəhliz və yükdaşımaların artımı tranzit və logistika imkanlarının genişləndirilməsi Azərbaycanın Mərkəzi Asiya ilə iqtisadi əməkdaşlıq perspektivlərini birbaşa gündəmə gətirir. Bu isə tamhüquqlu üzvlük vasitəsilə ölkəmizin qazanacağı faydaların açıq göstəricisi olmaqla yanaşı, iqtisadi baxımdan yeni bir qapının açılması deməkdir. Coğrafi mövqeyi baxımından Azərbaycan Orta dəhliz layihəsinin mərkəzində olduğu üçün tamhüquqlu üzvlük Mərkəzi Asiya ilə birbaşa əlaqələri gücləndirəcək, tranzit və logistika imkanlarını artıracaq, yük daşımalarını sürətləndirəcək. Azərbaycan və Mərkəzi Asiya ölkələri arasında iqtisadi layihələrin daha da genişlənməsi həmçinin investisiya axınlarını artıraraq ölkəmizin maliyyə resurslarını da zənginləşdirəcək.

Bu mənada Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşündə Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin "Biz Azərbaycan Respublikasının tamhüquqlu iştirakçı qismində Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Görüşü formatına qoşulmasına dair prinsipial qərarlar qəbul edirik. Biz Mərkəzi Asiya ilə Cənubi Qafqaz arasında güclü bir körpü quracağıq və vahid əməkdaşlıq məkanının formalaşmasına yol açacağıq. Bu, sözsüz ki, hər iki regionun strateji qarşılıqlı əlaqəsini və dayanıqlılığını gücləndirəcək" fikirləri Azərbaycanın regional əhəmiyyətini bir daha təsdiqləyir.

"Mərkəzi Asiya+Azərbaycan" formatı vasitəsilə birgə enerji layihələri, inteqrasiya edilən nəqliyyat dəhlizləri və rəqəmsal platformaların yaradılması mümkün olacaq. Nəticədə ticarət əlaqələri genişlənəcək, Azərbaycanın məhsulları Mərkəzi Asiya bazarına daha asan çıxacaq, ticarət dövriyyəsi artacaq, kənd təsərrüfatı, sənaye və xidmət sektorlarında yeni perspektivlər yaranacaq, Azərbaycan üçün real və ölçülə bilən faydalar gətirəcək. Bu iqtisadi perspektivləri İlham Əliyev Daşkənd səfərindən bir neçə gün əvvəl Özbəkistan Milli İnformasiya Agentliyinə verdiyi müsahibəsində belə vurğulayıb: "Azərbaycanla Özbəkistan arasında ticarət sürətli templə inkişaf edir. Belə ki, 2024-cü ildə əmtəə dövriyyəsi 252 milyon ABŞ dolları təşkil edib və 2025-ci ilin yanvar-sentyabr aylarında bu göstərici keçən ilin eyni dövrü ilə müqayisədə 87,5 faiz artaraq 319 milyon ABŞ dollarına çatıb".

Azərbaycanın quruma tamhüquqlu üzv seçilməsi ölkəmizin strateji çəkisini artıran mühüm qərardır. Bu qərar tranzit və logistika imkanlarını genişləndirəcək, enerji və nəqliyyat layihələrinə yeni nəfəs verəcək, ticarət və investisiya axınlarını canlandıracaq. "Mərkəzi Asiya+Azərbaycan" formatı eyni zamanda ölkəmizin regional inteqrasiyadakı rolunu möhkəmləndirəcək və Azərbaycanı Cənubi Qafqazla Mərkəzi Asiya arasında etibarlı, güclü tərəfdaş kimi önə çıxaracaq.

***Züleyxa ƏLİYEVA, "Azərbaycan"***

## Azərbaycanın yeni geoiqtisadi mandatı

**Mərkəzi Asiyanın beş dövləti - Qazaxıstan, Özbəkistan, Türkmənistan, Qırğızıstan və Tacikistan uzun illərdir "C5" formatında regional dialoq aparır. Son on ildə bu formatın üzərinə "+1" komponenti əlavə olunaraq ABŞ, Aİ, Yaponiya kimi böyük oyunçularla "C5+1" modelləri formalaşıb. İndi isə həmin arxitektura faktiki olaraq yeni bir element qazanır: Azərbaycan.**

Bu yeni konfiqurasiya - şərti olaraq "C5+Azərbaycan" və ya "C6" adlandıra biləcəyimiz yanaşma Bakını təkcə nəqliyyat xəritəsində tranzit nöqtəsi kimi deyil, Cənubi Qafqaz-Mərkəzi Asiya-Avropa üçbucağının geoiqtisadi "oyun qurucusu" kimi mövqeləndirmək potensialına malikdir. Məsələ artıq sadəcə diplomatik jestlərdən yox, Orta dəhliz, TRIPP/Zəngəzur dəhlizi, data mübadiləsi, enerji və qeyri-neft ixracı üzrə çoxillik real gündəmdən gedir.

"C5+Azərbaycan"a keçidlə yaranan yeni regional konfiqurasiya mühüm yeniliklər vəd edir. "C5+1" platforması ilk illərdə daha çox siyasi dialoq, təhlükəsizlik, terrorizmə qarşı mübarizə kimi klassik mövzuları əhatə edirdi. Sonrakı mərhələdə isə ticarət və investisiyalar, enerji təhlükəsizliyi və "yaşıl keçid", nəqliyyat və logistik zəncirlərin şaxələndirilməsi, texnoloji əməkdaşlıq və insan kapitalı bu formatın əsas sütunlarına çevrildi.

Azərbaycanın bu məntiqlə "C5+1" əməkdaşlıq formatına daxil olması, əslində, üç paralel xətti birləşdirir. Birincisi, "C5+Azərbaycan" Xəzərin iki sahilini vahid iqtisadi və nəqliyyat məkanına çevirən regiondaxili platforma olacaq. İkincisi, "C5+Azərbaycan"+ ABŞ/Aİ böyük güclərlə artıq tək-tək deyil, blok+hub modelində dialoq forması vəd edir. Və üçüncüsü, "C5+ Azərbaycan"+Türk Dövlətləri Təşkilatı və Orta dəhliz türk coğrafiyasında şaxələnmiş inteqrasiya xəttini təşkil edəcəkdir.

Beləliklə, Bakı yalnız "dəvət edilən qonaq" deyil, "C5+1" məntiqini Xəzərin qərb sahilinə keçirən əsas qovşaq rolunu oynamağa başlayır. Azərbaycan bu formatı genişləndirir.

Digər mühüm bir məqam Orta dəhliz kimi artıq rəqabətli tranzit məkanında Azərbaycanın "core hub" potensialının reallşması ilə bağlıdır. Geoiqtisadi kontekstdən baxdıqda Şərq və Qərb arasında üç dəhliz üzərində mühüm rəqabət gedir.

Hazırda Avrasiya geoiqtisadiyyatında üç əsas quru marşrut sistemi mövcuddur: Şimal dəhlizi - Rusiya üzərindən keçən klassik Trans-Sibir və ona bağlı xətlər; Cənub dəhlizi - İran və Hind okeanı üzərindən marşrutlar; Orta dəhliz (Trans-Xəzər)-Çin-Mərkəzi Asiya-Xəzər-Azərbaycan-Gürcüstan-Türkiyə-Avropa zənciri.

Sanksiyalar, geosiyasi risklər və enerji təhlükəsizliyi gündəmi fonunda Orta dəhliz Qərb üçün daha əlçatan, Mərkəzi Asiya üçün isə daha çoxvektorlu seçimə çevrilir. Azərbaycan bu xəttin həm Xəzər üzərində, həm də Qafqaz daxilində əsas "bottleneck" və eyni zamanda "bottleneck-i açan" məntiqi nöqtəsidir.

Mövcud rəqəmlər də göstərir ki, son illərdə Orta dəhliz üzrə yüklər bir neçə dəfə artıb, lakin hələ də potensialın tamamını əks etdirmir. "C5+Azərbaycan" çərçivəsində tranzit tariflərinin hərtərəfli koordinasiyası, keçid müddətlərinin azaldılması, gömrük prosedurlarının tam rəqəmsallaşdırılması, multimodal logistikanın (dəniz-dəmir yolu-avtomobil) inteqrasiyası kimi addımlar tam reallaşacağı halda 2030-cu ilə qədər Azərbaycan üzərindən keçən tranzit yüklərinin ən azı bir neçə milyon ton artması reallıqdır.

Bəs praktik səviyyədə bu nə deməkdir? Orta ssenaridə əlavə yük axını Azərbaycan üçün onlarca milyon dollarlıq sabit tranzit gəliri formalaşdıracaq. Optimist ssenaridə bu rəqəm yüz milyonlarla dollara qədər yüksələ bilər. Daha önəmlisi, liman, dəmir yolu, logistika parkları, anbar, sığorta, bank və xidmət sektorlarında çoxqatlı multiplikativ ÜDM effekti yarana bilər.



Yəni "C5+Azərbaycan" formatı Azərbaycanın xəritədə "marşrut xətti" olmaqdan çıxaraq "tranzit ekosistemi" qurmasına imkan verəcəkdir.

Yeni format ölkəmiz üçün mühüm əhəmiyyət kəsb edən qeyri-neft ixracının struktur transformasiyasının inkişaf etməsinə mühüm təkan verə bilər. Azərbaycanın orta və uzunmüddətli inkişaf strategiyalarının mərkəzində qeyri-neft sektorunun gücləndirilməsi dayanır. "C5+Azərbaycan" bu baxımdan bir sıra mühüm funksiyaları yerinə yetirə bilər:

- Yeni bazar dərinliyi yaranır. Mərkəzi Asiya ölkələri üçün Azərbaycan həm Qara dəniz, həm Türkiyə, həm də Aralıq dənizi bazarlarına çıxış "qapısı"dır. Eyni məntiqlə Azərbaycan istehsalçıları üçün də Mərkəzi Asiya 100 milyondan artıq əhalini əhatə edən, tələbi artan, enerji gəlirləri fonunda alıcılıq qabiliyyəti yüksələn bazardır.

- Məhsul və xidmət strukturunun diversifikasiyası genişlənə bilər. "C5+Azərbaycan" çərçivəsində bir sıra məhsul və xidmət qruplarında daha aqressiv ixrac siyasəti aparmaq mümkündür: metal və kimya məhsulları, kənd təsərrüfatı və qida (meyvə-tərəvəz, konserv, şərab, qənnadı), İT və rəqəmsal xidmətlər (proqram təminatı, BPO, fintech, e-gov həlləri), "edu tourism" və "medical tourism" (təhsil və müalicə üçün qarşılıqlı axınlar).

- Regional dəyər zəncirlərinə qoşulma sürətlənə bilər. Təkcə xammal satmaq əvəzinə Mərkəzi Asiya xammalının və yarımfabrikatlarının Azərbaycanda emalı, daha sonra Avropaya çıxarılması üçün regional dəyər zəncirləri qurmaq mümkündür. Bu, qeyri-neft ixracının həcmini deyil, əlavə dəyər səviyyəsini də yüksəldən faktordur.

- Ssenari yanaşması ilə baxdıqda Mərkəzi Asiyaya ixracın 2-3 dəfə artması halında bu regionun Azərbaycanın qeyri-neft ixracında payı indiki ikirəqəmli səviyyədən 30-40 faizlik diapazona qədər yüksələ bilər. Bu isə artıq yalnız "coğrafi şaxələndirmə" deyil, struktur transformasiya deməkdir.

Azərbaycan Prezidenti cənab İlham Əliyevin tədbirdə çıxışı və digər dövlət başçılarının şərhləri onu göstərdi ki, Zəngəzur dəhlizi (TRIPP) təkcə yol deyil, mühüm bir geosiyasi və geoiqtisadi layihədir. Zəngəzur dəhlizi (TRIPP) Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması fonunda yaranmış ən mühüm geoiqtisadi konstruksiyalardan biridir. Dəhlizin mahiyyəti ondan ibarətdir ki Azərbaycanı Naxçıvanla birləşdirən qısa, lakin strateji əhəmiyyətli quru koridoru yaradılır, həmin koridorun içindən dəmir yolu, avtomobil yolu, enerji xətləri və rəqəmsal infrastruktur eyni paketdə keçir, marşrut Türkiyə və daha sonra Avropa istiqamətində yeni, daha qısa "döngə" yaradır.

Təhlillər göstərir ki, bu dəhlizin "C5+Azərbaycan" kontekstində bir neçə mühüm təsiri var:

1. Orta dəhlizin "ikili strukturu". Bakı-Tbilisi-Qars xətti ilə yanaşı, Bakı-Naxçıvan-Türkiyə xətti də formalaşır. Bu həm risklərin diversifikasiyası, həm də yüklərin optimallaşdırılması baxımından əhəmiyyətlidir.

2. Enerji və elektrik ötürülməsi üçün əlavə kanal. Neft, qaz və elektrik enerjisi üçün alternativ marşrutların yaranması Azərbaycanın enerji xəritəsində "təkkanallı" riskləri azaldır, Mərkəzi Asiya resursları üçün isə Qərbə doğru çıxış qapısı yaradır.

3. Siyasi normallaşmanın iqtisadi dividendə çevrilməsi. Regionda sülh gündəminin real infrastruktur layihəsi ilə dəstəklənməsi "C5+Azərbaycan" formatının geosiyasi etibarlılığını artırır və xarici investorlar üçün riskləri aşağı salır.

Yəni, əslində, Zəngəzur dəhlizi (TRIPP) bu mənada "C5+Azərbaycan" formatını kağızda qalan diplomatik mexanizmdən çıxarıb, konkret xəritə üzərində ölçülə bilən reallığa çevirən "möhkəm infrastruktur" sütunlarından biridir.

Qlobal iqtisadiyyatda əsas rəqabət edilən sahələr enerji, "yaşıl keçid" və kritik minerallar və onların yeni paylama xəritəsidir. "C5+Azərbaycan" yalnız logistika və ticarət platforması deyil, həm də enerji və resurs paylama mexanizmi kimi düşünülməlidir.

Azərbaycan artıq "Cənub qaz dəhlizi" vasitəsilə Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayır. "C5+Azərbaycan" Mərkəzi Asiya qazının (məsələn, Türkmənistan, Qazaxıstan) Xəzər üzərindən Azərbaycan infrastrukturu ilə Avropaya çıxarılması üçün əlavə siyasi baza yarada, mövcud boru kəmərlərinin (TANAP, TAP və s.) yüklənmə səviyyəsini artıraraq Azərbaycanın "baza tranzit gəlirlərini" yüksəldə bilər.

Xəzər hövzəsi bərpaolunan enerji potensialına görə artıq beynəlxalq diqqət mərkəzindədir. Azərbaycan dənizdə külək, günəş enerjisi və "yaşıl hidrogen" layihələri üzrə böyük investorlarla müqavilələr bağlayır. "C5+Azərbaycan" çərçivəsində dövlətimiz Mərkəzi Asiya ölkələrinin bərpaolunan enerji potensialı ilə öz imkanlarını "paket" şəklində Qərb bazarına təklif edə bilər. Bu modeldə Azərbaycan təkcə enerji istehsalçısı deyil, həm də "yaşıl enerji" tranzit və ticarət platforması" rolunu oynaya bilər.

Dünya iqtisadiyyatında enerji keçidi və texnoloji transformasiya fonunda nadir torpaq metalları, batareya metallarının xammalı (litium, kobalt və s.), uran və digər strateji resurslar getdikcə daha çox "geoiqtisadi silah"a çevrilir. Mərkəzi Asiya bu resursların əhəmiyyətli hissəsinə sahibdir. Orta dəhliz və Zəngəzur üzərindən bu resursların Rusiya və İran marşrutlarından yan keçərək Avropa və digər bazarlara çıxarılması və Azərbaycanda emal və yarımfabrikat istehsalı üçün sənaye klasterlərinin formalaşdırılması bütün tərəflərə mühüm rəqabət üstünlüyü qazandıra bilər. Bu üstünlük isə "C5+Azərbaycan" formatını kritik resursların idarə olunması üzrə də regional oyunçu statusuna yüksəldə bilər.

Bir məsələni də qeyd etmək vacibdir ki, "C5+Azərbaycan" formatının potensialı yüksək olsa da, bu potensialın reallaşması zaman tələb edir. Ölkəmizin bunun üçün bir sıra institusional addımlar atması faydalı olacaqdır. Ticarət və tranzit prosedurlarının daha da sadələşdirilməsi üzrə "Bir pəncərə" prinsiplərinin tam tətbiqi, gömrük və sərhəd nəzarətində rəqəmsallaşma səviyyəsinin daha da artırılması, risk əsaslı yanaşma, "data management" sistemlərinin tətbiqinin sürətləndirilməsinə nail olmaq lazımdır. Nəqliyyat infrastrukturunda dəmir yolu, avtomobil yolu, liman, hava yükdaşımalarının vahid master-plan çərçivəsində əlaqələndirilməsi, logistika parkları, azad ticarət zonaları və xüsusi iqtisadi zonaların Orta dəhliz "xəritəsi" üzrə sinxron dizaynının aparılması vacibdir. İnvestisiya mühiti və hüquqi sabitlik üçün uzunmüddətli konsessiya, PPP və infrastruktura yönəlmiş investisiyalar üçün proqnozlaşdırıla bilən vergi və tənzimləmə mühitinin daha da təkmilləşməsi, beynəlxalq arbitraj, mübahisə həlli mexanizmlərinin etibarlılığının daha da artırılması mühüm irəliləyişlərə təkan verə bilər. İnsan kapitalı və logistika bilikləri üzrə logistika menecmenti, rəqəmsal ticarət, enerji ticarəti, risk menecmenti üzrə ixtisaslı mütəxəssislərin hazırlanması, universitet-biznes-dövlət əməkdaşlığının daha da gücləndirilməsi xüsusi əhəmiyyət kəsb edir. Onu da qeyd edək ki, bütün bu istiqamətdə son illərdə xeyli işlər görülməkdədir.

Başqa sözlə, "C5+Azərbaycan" pəncərəsinin real nəticəyə çevrilməsi üçün ölkəmizin paralel şəkildə həm "möhkəm infrastruktur", həm də "yumşaq infrastuktur" (qanunvericilik, prosedur, insan kapitalı) sahəsində sinxron modernləşmə işlərini sürətli aparması iqtisadi faydaların daha da yüksək və tez olmasına imkan yaradacaqdır.

"C5+Azərbaycan" formatı Azərbaycan üçün imkanlarla yanaşı, bir sıra çağırışlar da yaradır və bizim bu çağırışlara layiqincə cavab vermək imkanlarımız mövcuddur:

- Böyük güclər arasında rəqabət kontekstində Orta dəhliz ABŞ və Aİ üçün, həm də Rusiya və Çin üçün geosiyasi həssas zonadır. Azərbaycanın sınaqdan uğurla çıxmış çoxvektorlu siyasətinin bu məqamda da ölkəmizə fayda verəcəyi şübhəsizdir.
- Regional təhlükəsizlik riskləri kontekstində mümkün gərginlik ocaqları, Əfqanıstan amili, hibrid təhlükələr (kiberhücumlar, informasiya müharibəsi) tranzit və investisiya qərarlarında risk amilini yüksəldə bilər. Bu məqamda da Azərbaycan Prezidentinin beynəlxalq siyasətdə təcrübəsi və regionda nüfüzü hər kəsə fayda verəcəkdir.
- İnstitusional ayaqlaşma kontekstində C5+1, Türk Dövlətləri Təşkilatı, MDB, ŞƏT kimi formatların mövcudluğu koordinasiya, qərarların icrasında əlavə səylər tələb edə bilər. Düşünürəm ki, burda da Azərbaycanın kifayət qədər təcrübəsi mövcuddur.

Bu mənada Azərbaycanın qarşısında duran əsas strateji vəzifə "uçuş zolağı"nın həddindən artıq yüklənməsinə yol vermədən, hər formatdan maksimal iqtisadi dəyər çıxarmaq üçün incə balanslı diplomatiya və praqmatik iqtisadi siyasət yürütməkdir. Azərbaycan Prezidentinin müdrik və peşəkar iqtisadi siyasəti bu çağırışların öhdəsindən uğurla gəlinəcəyinə təminat verir.

Beləliklə, yaxın gələcəyə proyeksiya etdikdə 2030 vizyonunda Azərbaycanın yeni geoiqtisadi kimliyi daha parlaq görünür. "C5+Azərbaycan" formatı, Orta dəhliz, Zəngəzur dəhlizi (TRIPP), enerji və kritik resurs layihələri birlikdə götürüldükdə, 2030-cu illərə doğru belə bir mənzərəni real edir:

- Azərbaycan Cənubi Qafqazda, Orta dəhlizdə sadəcə "marşrut ölkəsi" deyil, tamformatlı tranzit, logistika və ticarət ekosistemi yaradan regional hub statusu qazanır;
- qeyri-neft ixracında Mərkəzi Asiyanın payının əhəmiyyətli dərəcədə artması ilə ölkə struktur diversifikasiyasına real keçid edir;
- karbohidrogenlə yanaşı, "yaşıl enerji" və kritik minerallar üzrə də Azərbaycan əlverişli paylama nöqtəsi kimi formalaşır;
- Azərbaycan həm Mərkəzi Asiya ölkələri, həm Qərb, həm də digər böyük oyunçular üçün qaçılmaz dialoq ünvanına çevrilir.

Bu mənada "C5+Azərbaycan" sıradan diplomatik format deyil. Bu, Azərbaycanın coğrafi üstünlüyünü, milli birliyini geoiqtisadi üstünlüyə çevirmək üçün çox mühüm strateji pəncərədir.

***Tahir MİRKİŞİLİ, Milli Məclisin deputatı***

# İqtisadiyyat və sosial həyat

## Hesablama Palatası və Dövlət Vergi Xidməti arasında anlaşma memorandumu imzalanıb

**Azərbaycan Respublikası Hesablama Palatası ilə İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti (DVX) arasında əməkdaşlıq haqqında anlaşma memorandumu imzalanıb.**

Hesablama Palatasından bildirilib ki, sənəd dövlət maliyyə nəzarəti, vergi və mühasibat uçotu, institusional idarəetmə sahələrində qarşılıqlı fəaliyyətin yeni mərhələsini müəyyən edir.

Memorandumu Hesablama Palatasının sədri Vüqar Gülməmmədov və Dövlət Vergi Xidmətinin rəisi Orxan Nəzərli imzalayıblar.

Hesablama Palatasının sədri Vüqar Gülməmmədov imzalanmış sənədin dövlət vəsaitlərinin istifadəsinə nəzarət və risk əsaslı audit praktikasının inkişaf etdirilməsində əhəmiyyətini qeyd edib. DVX rəisi Orxan Nəzərli isə əməkdaşlığın vergi inzibatçılığı və maliyyə nəzarətində şəffaflığın gücləndirilməsinə verəcəyi töhfəni vurğulayıb.

Bildirilib ki, memorandum tərəflər arasında məlumat mübadiləsinin optimallaşdırılmasını, birgə analitik araşdırmaların aparılmasını, risklərin qiymətləndirilməsi metodlarının təkmilləşdirilməsini və dövlət vəsaitlərindən istifadə üzərində nəzarət mexanizmlərinin gücləndirilməsini təmin edir.

Əməkdaşlıq şəffaflıq və hesabatlılığın gücləndirilməsi, müasir rəqəmsal həllərin paylaşılması və institusional potensialın inkişaf etdirilməsi sahələrində qarşılıqlı fəaliyyət imkanlarını genişləndirir.

## COP30: "KOB-ların "yaşıl keçid"i üçün Bakı İqlim Koalisiyası: Belem statusu" mövzusunda panel müzakirə təşkil olunub

**Tədbirdə Azərbaycanın təşəbbüsü ilə irəli sürülmüş Bakı İqlim Bəyannaməsinin KOB-ların "yaşıl keçid"i baxımından əhəmiyyətli platformalardan olduğu qeyd edilib.**

Braziliyanın Belem şəhərində keçirilən BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 30-cu sessiyası - COP30 çərçivəsində "KOB-ların "yaşıl keçid"i üçün Bakı İqlim Koalisiyası: Belem statusu" mövzusunda panel müzakirə təşkil olunub.

Müzakirənin əsas məqsədi 2024-cü ildə Bakıda keçirilmiş COP29 çərçivəsində Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) tərəfindən irəli sürülmüş və bu sahədə ilk qlobal təşəbbüs olan "KOB-ların "yaşıl iqlim" keçidi üçün Bakı İqlim Koalisiyası üzrə Birgə Bəyannamə"nin beynəlxalq arenada təbliği və tərəfdaşlarının coğrafiyasının genişləndirilməsi, eləcə də sözügedən bəyannamənin icrası ilə bağlı növbəti addımların müzakirəsidir. Qeyd edək ki, bəyannaməyə qoşulan tərəfdaşların sayı artmaqdadır. Artıq 20-dən çox yerli və xarici ölkənin qurumları, beynəlxalq təşkilat və sahibkarlar şəbəkəsi müvafiq bəyannaməyə qoşulub və dəstəyini ifadə edib. Bəyannamə Azərbaycanın "yaşıl keçid" üçün qlobal liderliyini və qlobal iqlim dəyişikliyi ilə mübarizə prosesində ciddi tərəfdaş olduğunu bir daha nümayiş etdirir. Sözügedən bəyannamənin təşviqi və tərəfdaşlarının məlumatlandırılması məqsədilə xüsusi internet səhifəsi də (www.greensme.org) yaradılıb.

Azərbaycan pavilyonunda KOBİA-nın təşkilatçılığı ilə keçirilən panel müzakirədə rəsmi şəxslər, beynəlxalq təşkilatların nümayəndələri və iş adamları iştirak ediblər.

KOBİA-nın İdarə Heyəti sədrinin müşaviri Elnur Əliyevin moderatorluğu ilə keçirilən panel müzakirədə BMT-nin İqlim Dəyişikliyi üzrə yüksəksəviyyəli nümayəndəsi, COP29-un iqlim üzrə çempionu Nigar Arpadarai, SEBRAE-nın müşaviri Qustavo De Lima Cezario, "PAŞA Bank" ASC-nin icraçı direktorunun müavini Bəhruz Nağıyev, Beynəlxalq Ticarət Mərkəzinin Latın Amerikası və Karib hövzəsi üzrə ofisinin rəhbəri Matias Urrutigoity və Asiya İnkişaf Bankının İqlim Dəyişikliyi üzrə baş mütəxəssisi Esmyra Javier çıxış ediblər. Çıxışlarda KOB-ların "yaşıl keçid" prosesində üzləşdiyi çətinliklər, beynəlxalq təşkilatların mövcud dəstək mexanizmləri və təcrübələri barədə məlumat verilib. Həmçinin "KOB-ların "yaşıl keçid"i üçün Bakı İqlim Koalisiyası üzrə Birgə Bəyannamə"nin mövcud statusuna dair məlumat diqqətə çatdırılıb, bəyannamənin təbliği istiqamətində görülmüş işlərin videoicmalı təqdim edilib.

Panel müzakirədə Bakı İqlim Bəyannaməsinin icrası üzrə yol xəritəsi çərçivəsində atılacaq addımlar barədə fikir mübadiləsi aparılıb. İştirakçılar Azərbaycanın təşəbbüsü ilə irəli sürülmüş Bakı İqlim Bəyannaməsinin KOB-ların "yaşıl keçid"i baxımından əhəmiyyətli platformalardan olduğunu qeyd ediblər.

Qeyd edək ki, KOBİA nümayəndələri COP30 çərçivəsində keçirilən tədbir və təqdimatlarda aktiv iştirak edir, KOB-ların qlobal iqlim prosesinə verə biləcəyi töhfə, "yaşıl keçid"in sürətləndirilməsində KOB-ların rolu məsələlərinə dair müzakirələrdə iştirak edirlər.

# BTC üçün "yaşıl işıq" yandıran saziş

## 26 il əvvəl İstanbulda kəmərin marşrutunu müəyyənləşdirən sənəd imzalandı

**1999-cu il noyabrın 18-də İstanbulda, ATƏT-in Zirvə toplantısında Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac neft kəmərinin çəkilişi ilə bağlı sazişə imza atıldı. Bu, xam neftin BTC vasitəsilə Azərbaycan, Gürcüstanı və Türkiyənin əraziləri ilə nəql edilməsinə dair saziş idi. Kəmərin tikintisi üçün həlledici rol oynayan həmin mühüm sənədi Azərbaycanın, Gürcüstanın, Türkiyənin, Qazaxıstanın və ABŞ-nin ovaxtkı prezidentləri imzaladılar. Bu, Ulu Öndər Heydər Əliyevin siyasi uzaqgörənliyi və dünyadakı nüfuzu sayəsində mümkün oldu.**




Sözügedən hadisədən bir il əvvəl - 1998-ci il oktyabrın 19-da Ankarada kəmərin inşa edilməsi haqqında Bəyannamə imzalanmışdı. İstanbulda imzalanan, BTC qarşısında "yaşıl işıq" yandıran növbəti sazişin imzalanması isə "Əsrin müqaviləsi"ndən sonra Azərbaycan üçün tarixi əhəmiyyət kəsb edən daha bir böyük hadisə idi.

Bu zaman artıq iki il idi ki, "Çıraq" platformasından "Əsrin müqaviləsi"nin nefti alınırdı. Qarşıdakı illərdə isə "Azəri"nin üç böyük hissəsindən - Mərkəzi, Qərbi və Şərqi hissələrindən, eləcə də "Günəşli"nin dərinlikdə yerləşən hissəsindən hasilata başlanılması gözlənilirdi. Neft hasilatı artdıqca mövcud olan kəmərlərdən əlavə, daha böyük bir ixrac marşrutuna ehtiyac yaranacağı labüd idi.

Məhz belə bir şəraitdə müəllifi Ümummilli Lider Heydər Əliyev olan BTC əsas ixrac neft kəmərinin çəkilişi ideyası irəli sürüldü. Çünki Azərbaycan açıq dənizlərə çıxışı olmayan ölkədir. "Azəri-Çıraq-Günəşli" (AÇG) layihəsi çərçivəsində çıxarılan nefti dünya bazarlarına nəql etmək üçün boru kəmərləri çəkilməsi zərurəti həm də bu səbəbdən yaranmışdı. 1999-cu ildə Azərbaycan neftini Bakı-Supsa marşrutu ilə daşıyan Qərb İxrac Boru Kəməri (QİBK) istifadəyə verildi. Bu, texniki cəhətdən çox mürəkkəb layihə idi və böyük maliyyə vəsaiti hesabına reallaşdı. Tikintinin müvəffəqiyyətlə başa çatdırılması bir daha göstərdi ki, Azərbaycan böyük işlər görməyə, həm də onları qısa müddətdə həyata keçirməyə qadirdir.

Lakin BTC-nin həm ölkəmizdə, həm də xaricdə bədxahları çox idi. Onlar hər vasitə ilə bu layihənin gerçəkləşməsinə sədd çəkmək istəyirdilər. Əsassız bəhanələr gətirirdilər. Gah deyirdilər ki, Azərbaycanın bu xətti doldurmaq üçün yetərincə nefti yoxdur. Gah kəmərin seysmik zonalardan keçəcəyini söyləyir, gah da ətraf mühitə ziyan vuracağı barədə səs-küy qaldırırdılar.

Bununla belə Ulu Öndər Heydər Əliyevin dühası ilə düşünülən və siyasi nüfuzu ilə özünə yol açan bu möhtəşəm layihə qalib gəldi. 2002-ci il sentyabrın 18-də Səngəçal terminalında Ulu Öndərin iştirakı ilə kəmərin təməli qoyuldu. 2005-ci il mayın 25-də isə Prezident İlham Əliyevin iştirakı ilə xəttə ilk neft vuruldu. BTC tam sistem kimi 2006-cı il iyulun 13-də istifadəyə verildi.

Uzunluğu 1768 kilometr olan, Xəzər regionundan Aralıq dənizinə təhlükəsiz və məsuliyyətli şəkildə xam neft ixrac etmək üçün çəkilən kəmərə aid qısa arayışa nəzər salaq. Beləliklə, BTC Azərbaycanda 443, Gürcüstanda 249, Türkiyədə 1076 kilometr məsafə qət edir. Ölkəmizdə 13 rayondan - Qaradağ, Abşeron, Hacıqabul, Ağsu, Kürdəmir, Ucar, Ağdaş, Yevlax, Goranboy, Samux, Şəmkir, Tovuz və Ağstafadan keçir. Gürcüstanda 7 bölgənin - Qardabani, Marneuli, Tetritskaro, Tsalka, Borjomi, Axaltsixe və Agideni rayonlarının ərazisi boyu uzanır. Xəttin Türkiyədə keçdiyi 9 rayon isə Ərdahan, Qars, Ərzurum, Ərzincan, Sivas, Kayseri, Kahraman Maraş, Osmaniyə və Adanadır.

BTC əvvəlcə gündə bir milyon barel neft ötürmək gücündə layihələndirilmişdi. 2009-cu ilin yazından isə onun gündəlik ötürücülük qabiliyyəti 1,2 milyon barelə çatdırıldı. Kəmərin 8 nasos stansiyası və 98 siyirtmə məntəqəsi var. Baş nasos stansiyası Səngəçalda yerləşir. İkinci stansiya da ölkəmizin ərazisində, Yevlax rayonundadır. Daha iki stansiya Gürcüstanda fəaliyyət göstərir. Qalan dörd stansiya Türkiyənin payına düşür.

Tam sistem kimi istifadəyə verildiyi vaxtdan cari il sentyabr ayının sonunadək Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri vasitəsilə ümumilikdə təqribən 613 milyon ton (4,6 milyard bareldən çox) xam neft nəql edilib və həmin neft həcmləri Ceyhanda 6078 tankerə yüklənərək dünya bazarlarına göndərilib. BTC-nin operatoru BP şirkətinin məlumatına görə, cari ilin ilk üç rübü ərzində kəmərlə ixrac olunmuş təqribən 13 milyon ton (təxminən 159 milyon barel) xam neft və kondensat Ceyhan terminalında 216 tankerə yüklənib və dünya bazarlarına yola salınıb.

İllər keçir, yeni qlobal layihələr gerçəyə çevrilir. Lakin BTC-nin əhəmiyyəti və dəyəri azalmır. Təkcə ona görə yox ki, o, bütün regiona xeyir-bərəkət gətirir, həm də ona görə ki, elə həmin layihələrə yol açan da məhz bu kəmərdir.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Orta dəhlizin əhəmiyyəti getdikcə daha çox sərhəd aşır

## Bunun bir səbəbi də Zəngəzur dəhlizinin (TRIPP) açılacağına şübhə yerinin qalmamasıdır

**Dünyanın üç mühüm qlobal ticarət marşrutundan ikisi məlum səbəblər üzündən iflic vəziyyətə düşdüyü üçün hazırda Orta dəhliz dünya ticarətində təhlükəsiz və iqtisadi baxımdan səmərəli marşrut kimi dəyərləndirilir. O üzdən dəhlizlə yüklərin daşınma dinamikası sürətlə artır. Təkcə cari ilin 10 ayında Bakı limanından 7 milyon tona yaxın və ya ötən ilin müvafiq dövrü ilə müqayisədə 5,6 faiz çox yük daşınıb. İlin sonunda bu rəqəmin daha çox olması gözlənilir.**

Məlum olduğu kimi, Azərbaycan Orta dəhlizdə açar ölkə statusundadır. Belə bir mövqedə olmağımız təkcə coğrafi imkanlarımızla bağlı deyil, o, Prezident İlham Əliyevin apardığı uğurlu logistika diplomatiyası sayəsində mümkün olub. Məhz dövlət başçısının təşəbbüsü ilə vaxtında görülən tədbirlər marşrutu yükgöndərən və yükü qəbul edən tərəflər üçün cəlbedici edib. Onu da vurğulayaq ki, marşrutla yüklərin daşınmasında vahid tarif, yüklərin sənədləşdirilməsində sürəti təmin edən rəqəmsallaşmanın tətbiqi də İlham Əliyevin böyük səyləri nəticəsində mümkün olub. Bundan əlavə, marşrutun texniki cəhətdən də müasir dövrün tələblərinə cavab verilməsində ölkəmiz önəmli rol oynayır. Azərbaycan öz ərazisindən keçən dəmir yolu xətti ilə yanaşı, qonşu Gürcüstanın dəmir yolu xəttinin modernləşdirilməsinə maliyyə və texniki baxımdan yardım göstərir.

Prezident İlham Əliyev Özbəkistanın Milli İnformasiya Agentliyinə (UzA) verdiyi müsahibəsində Azərbaycanın qlobal logistika əlaqələrinin inkişafına verdiyi əhəmiyyəti vurğulayaraq demişdir: "Ölkələrimiz arasında əməkdaşlığın əsas istiqamətlərindən biri şaxələndirilmiş nəqliyyat və logistika infrastrukturunun inkişafı, tranzit imkanlarının genişləndirilməsidir. Bu sahədə ölkələrimizin Orta Dəhliz Beynəlxalq Nəqliyyat Marşrutunda iştirakı xüsusi əhəmiyyətə malikdir və onun çərçivəsində Azərbaycan Özbəkistan və Mərkəzi Asiya dövlətləri üçün mühüm tranzit ölkə qismində çıxış edir. Son illərdə Orta dəhliz vasitəsilə ixrac imkanlarının və daşımaların artması xüsusi strateji əhəmiyyətə malikdir".

Söz düşmüşkən qeyd edək ki, Azərbaycan və Özbəkistan arasında olan nəqliyyat əlaqələrinin inkişafı yükdaşımaların həcminin artmasına imkan yaradıb. Məsələn, 2024-cü ildə ölkələrimiz arasında tranzit daşımaların həcmi 2023-cü illə müqayisədə 18 faizdən çox artaraq 1,3 milyon tondan çox olub. Cari ilin 9 ayında isə bu rəqəm təxminən 1 milyon tona çatıb.

Dövlət başçısı sözügedən müsahibədə həmçinin region ölkələri ilə qurulan nəqliyyat əlaqələrinin əhəmiyyətini də qeyd edərək bildirmişdir ki, Azərbaycanda yaradılan müasir nəqliyyat infrastrukturu, o cümlədən ticarət donanması, yaxın illərdə gücü 25 milyon tona çatacaq Ələt Beynəlxalq Ticarət Limanı, Bakı-Tbilisi-Qars dəmir yolu və ölkənin 9 beynəlxalq hava limanı da daxil olmaqla, bütün bunlar Azərbaycanın qlobal nəqliyyat və logistika qovşağı kimi rolunu gücləndirən amillərdir. Bundan əlavə, Zəngəzur dəhlizinin (TRIPP) açılması bütün Mərkəzi Asiya ölkələrinə fayda gətirəcək.

Prezident İlham Əliyev Orta dəhlizi təkcə iqtisadi fayda gətirəcək layihə kimi görmür. Dövlət




başçısı bu marşruta həmçinin türk dünyasının həmrəyliyini yaratmaq baxımından bir fürsət kimi baxır. Uzaq hədəf isə türk dünyasını beynəlxalq arenaya siyasi və iqtisadi güc kimi çıxarmaqdır. Bu uzaqgörən siyasətin nəticəsini avqustun 8-də Vaşinqtonda Amerikanın şahidliyi ilə Zəngəzur dəhlizi barədə Ermənistanla bağlanan sənəddən sonra gördük.

Hazırda qlobal siyasətdə türk dünyasının əhəmiyyəti xeyli artıb. Rusiya, Çin və ABŞ bu regionda nüfuz qazanmaq üçün ciddi rəqabətə başlayıb. Xüsusən Amerika son dövrlər bu istiqamətdə diplomatik səylərini genişləndirib. Noyabrın 6-da Vaşinqtonda ABŞ, Qazaxıstan, Qırğızıstan, Tacikistan və Özbəkistan arasında "C5+1" formatında birgə imzalanan bəyanatda region ölkələrinin Trans-Xəzər marşrutu (Orta dəhliz) ilə bağlı maddələrin olması isə təsadüfi deyil. Həmin sənəddə deyilir: "Tərəflər təchizat zəncirinin əlaqəliliyini və dayanıqlılığını gücləndirmək məqsədilə Trans-Xəzər ticarət marşrutunun potensialını tam şəkildə inkişaf etdirmək və onu "Beynəlxalq Sülh və Rifah üçün Tramp Marşrutu" (TRIPP) ilə birləşdirməklə, yüklərin, məlumatların və enerjinin "C5+1" ölkələri və dünya üçün təhlükəsiz hərəkətini təmin etmək, gömrük rejimlərinin uyğunlaşdırılması və şəffaflığının artırılması istiqamətində səyləri davam etdirmək, "C5+1" ölkələri arasında kommersiya və mədəni əlaqələri gücləndirmək üçün aviasiya əlaqəliliyini genişləndirmək və texnologiya, hasilat və digər sürətlə inkişaf edən sahələrdə təlimləri asanlaşdıran təhsil mübadilələri vasitəsilə kommersiya əlaqələrini möhkəmləndirmək və əmək qüvvəsinin peşəkarlığını dəstəkləmək barədə razılığa gəlib".

Prezident Donald Tramp Vaşinqtonda "C5+1" görüşü zamanı Orta dəhliz və onun bir qolu olan Zəngəzur dəhlizi barədə demişdir: "TRIPP (Beynəlxalq Sülh və Rifah üçün Tramp Marşrutu) layihəsi dünyanın iqtisadi cəhətdən əhəmiyyətli regionundan keçən nəqliyyat dəhlizidir. Bu, Xəzər dənizi boyunca artan ticarət fəallığını stimullaşdıracaq və Mərkəzi Asiya ölkələrinin inkişafına kömək etmək məqsədi daşıyır".

Prezident İlham Əliyev isə Daşkənddə Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşü zamanı ölkəmizin tranzit imkanlarının region dövlətləri və dünya üçün əhəmiyyətini qeyd edərək bildirmişdir: "Son üç ildə Orta dəhliz üzrə Azərbaycandan keçən yükdaşımalar 90 faiz artıb. Dəhliz boyu gediş vaxtları xeyli azaldılıb. Yaxın illərdə buraxılış qabiliyyəti ildə 25 milyon tona çatacaq Ələt Beynəlxalq Limanı, Bakı-Tbilisi-Qars dəmir yolu, doqquz beynəlxalq hava limanı, regionun ən böyük yük aviaşirkəti və digər amillər Azərbaycanı beynəlxalq nəqliyyat qovşağına çevirmişdir. Əminəm ki, Azərbaycanın əsas hissəsini onu Naxçıvan Muxtar Respublikası ilə birləşdirmək üçün bu ilin avqustunda Vaşinqtonda əldə edilmiş razılaşmalar beynəlxalq daşımalar üçün tranzit imkanlarının genişləndirilməsinə töhfə verəcək. Azərbaycanda Zəngəzur dəhlizinin (TRIPP) tikintisi başa çatmaq üzrədir. İlkin mərhələdə 15 milyon ton yükdaşıma qabiliyyətinə malik bu dəmir yolu Orta dəhlizin əsas arteriyasına çevriləcək. Həmçinin Zəngəzur dəhlizinin (TRIPP) bir hissəsi olacaq avtomagistralın tikintisi də başa çatmaq üzrədir".

Dəhlizin necə adlandırılmasından asılı olmayaraq, bu, bir türk marşrutudur və dünyanın həmin marşruta böyük ehtiyacı var. Üstəlik, bu marşrut qlobal səviyyədə türk dünyasının iqtisadi və siyasi məsələlərdə söz sahibi olmasına imkan yaradacaq. Biz bunun Mərkəzi Asiya Ölkələrinin Məşvərət Şurası formatında keçirilən görüşdə bir daha şahidi olduq.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# I Türkoloji Qurultay - türk ruhunun qələbəsi

**Oktyabrın 22-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev respublikamızın mədəni həyatında mühüm hadisəyə şahidlik edən tarixi sərəncam imzaladı. Gələn il I Türkoloji Qurultayın 100 illiyi qeyd olunacaq.**



Türkoloji qurultay təkcə dünya türkologiyasının tarixində deyil, Azərbaycan siyasi tarixində mühüm hadisə idi və hətta əminliklə demək olar ki, o dövrdə ən əhəmiyyətli, hadisə idi. Bir əsr əvvəl Bakıda keçirilən bu tarixi qurultay yüz ildir ki, dünyanın humanitar platformasında ən aktual məsələlərdən biri olaraq qalır və getdikcə türk dövlətlərinin siyasi həyatına, türk düşüncəsinin məfkurəvi aspektlərinə sirayət edir. Bakının dünya türkologiyasının deyil, türk düşüncəsinin mərkəzinə çevrilməsinə rəvac verir. Qurultayda müzakirə olunan problemlər sırf elmi məsələlər idi, özündə tarixə, ədəbiyyata, linqvistikaya, etnoqrafiyaya dair ciddi məsələləri ehtiva edirdi. Alt qatda isə gələcəkdə yaradılacaq türk birliyinə yol açırdı ki, biz bu gün həmin tarixi prosesin iştirakçılarıyıq.

I Türkoloji Qurultayda qaldırılan məsələlərlə bağlı son otuz ildə çox işlər görülüb. Haqqında söhbət gedən sərəncam cənab İlham Əliyevin Türkoloji Qurultayla bağlı verdiyi ilk sərəncam deyil. Türkoloji Qurultay onun fəaliyyəti boyu diqqət mətkəzində saxladığı əsas məsələlərdən biri olub. Cənab Prezident Türkoloji Qurultayın səksən, doxsan illik yubileylərinin keçirilməsi üçün də sərəncamlar imzalamışdı Amma Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasından sonra 100 illik yubileyin keçirilməsinin xüsusi önəmi vardır. Siyasi-ideoloji baxımdan da bu çox əhəmiyyətlidir. Bakı yenidən həm türkoloji mərkəz kimi, həm də türk dövlətlərinin fikir mərkəzi kimi dünyanın diqqət mərkəzinə gəlir.

1926-cı ildə Bakıda keçirilən Türkoloji Qurultayın ideyaları sovetlər dönəmində düşüncələrə istiqamət verməkdə davam etdi. Görkəmli qazax yazıçısı Oljas Süleymenovun "Az i Ya" kitabı həmin istiqamətin yetirdiyi kitab idi və təsadüfi deyildi ki, o kitab erməni daşnak ideoloqlarının Azərbaycana qarşı yazdıqları kitablara, xüsusən Zori Balayanın "Ocaq" kitabına ilk sərt və amansız cavabı idi. Yaxud 100 il əvvəl keçirilmiş Türkoloji Qurultayın təsir gücü Stalin repressiyaları dövründə də türkdilli xalqların direniş gücünə stimul vermişdi.

1926-cı ildə I Türkoloji Qurultayın Bakıda keçirilməsinə böyük rus alimi Bartoldun mülahizələri ən dəqiq cavabı verirdi. Bartold deyirdi ki, "Hal-hazırda qurultay Bakıda çağırılır. Qurultayın Bakıda çağırılmasına bir çox dəlillər vardır... Danmaq olmaz ki, əksər əhalisi türk olan cümhuriyyətlərin hamısına nisbətən Azərbaycan Cümhuriyyəti və onun paytaxtı Bakı şəhəri universitet həyatını və ümumiyyətlə, elmi həyatı daha yüksək dərəcədə saxlamağa müvəffəq olmuşdur".

XX yüzilliyin iyirminci illərində dünya türkologiyasının ən aktual problemlərinin Bakıda müzakirə olunması ictimai fikir tariximizin bənzərsiz və qürurverici səhifəsini təşkil etməkdə idi. Bu gün isə Türkoloji Qurultayın 100 illiyinin keçirilməsi təsdiq edəcək ki, Bakı təkcə elmi həyatın deyil, türk birliyinin də siyasi həyatında mərkəzə çevrilməkdədir.

1926-cı ilin 26 fevral-6 mart tarixlərində Bakı şəhərində keçirilən I Türkoloji Qurultay türk xalqlarının milli oyanış tarixində və özünüdərkində mühüm rol oynadı. Qurultayda türk xalqlarının tarixi, ədəbiyyatı, dili, əlifbası, toponimikası, etnoqrafiyası, incəsənəti və sairə ilə bağlı qərarlar qəbul edildi, amma təəssüf ki, çox keçmədən həmin tədbirin əksər iştirakçıları, yəni türkologiya elminin fikir bayraqdarları sovet rəhbərliyinin hədəfinə tuş gələrək taleyin amansız zərbəsini aldılar: sürgün, güllələnmə, ən ağlasığmaz üsullarla cəzalanma və sairə.

Əlbəttə, qurultayda müzakirə edilən məsələlər zamanla İsmayıl bəy Qaspıralı, Vasili Radlov və başqaları tərəfindən dilə gətirilmişdi. Bu mənada I Türkoloji Qurultay onların düşüncələrə əkdikləri türklük ruhunun pərvəriş tapması, daha geniş fikir arealını çevrələməsi ilə əlamətdar idi. O da mühüm məqam idi ki, bu qurultay həmin illərdə yeganə hadisə idi ki, yalnız türk ruhunun daşıyıcılarını deyil, sovet ideologiyasının tanınmış simalarını da ətrafına cəm edə bilmişdi. Qurultayın elmi rəhbərliyində təmsil olunanlardan biri görkəmli türkoloq alim Bəkir Çobanzadə idi. Qurultay türk dünyası tarixinin dönüş nöqtəsi idi, onun ideyaları türk dünyasının ortaq yaddaşı, dili və mədəniyyətinin birgəliklərinin ifadəsi baxımından müstəsnalıq kəsb edirdi. Bu gün də, türk xalqlarının geniş inteqrasiyası ilə səciyyələnən müasir mərhələdə ümumtürk mədəniyyəti və genezisinin öyrənilməsinə böyük zərurət meydana qoyur.

Əslində, Türkoloji Qurultay Atatürklə Stalinin ideoloji qarşıdurmasının revanş nöqtəsi idi. Və bu mənada 1930-cu illərdə Stalin qalib gəldisə, 100 il sonra dünya Atatürkün zəfərini müşahidə etdi. Bunu da xatırladım ki, qurultayın alt qatında baş verən proseslər bizə indi, yəni 100 ildən sonra daha da aydın olur. İstər Azərbaycanın kommunist dövlət rəsmiləri, istərsə də Türkiyədən gələn atatürkçü professorlar qurultay günlərində necə riskli bir prosesdə iştirak etdiklərini anlayır və bir-birləri ilə diplomatik üslubda danışırdılar. Məsələn, həmin günlərdə Fuad Köprülünün verdiyi müsahibələrdə Türkiyənin hansı xətti müdafiə edəcəyi barədə açıq fikir söylənilmir. Eləcə də Əli bəy Hüseynzadənin fikirlərində. Bu, təbii ki, türk xalqları arasında inteqrasiyanın gələcək perspektivi üçün edilirdi. Mən bu məqamda fikrimi əsaslandırmaq üçün o dövrdə Fuad Köprülünün bir söhbətini xatırlatmaq istərdim. Əlifba islahatı, əslində, hərf inqilabı ilə bağlı suala baxın necə diplomatik cavab verir: "Azərbaycan tərəfindən ortaya atılan yeni əlifba məsələsinə də biganə deyilik. Bu yaxınlarda Maarif Nəzarəti tərəfindən xüsusi bir komisyon təşkil edildi. Bu komisyon imla və hürufatı tədqiq ilə məşğul olur, hənuz qəti bir fikir və qərara gəlmədilər. Zənn edirəm bu tədqiqat yenə bir kaç ay davam edəcəkdir.

- Şu halda, qurultayda Anadolu türkləri namına yeni əlifbanın lehinə və ya əleyhinə bir fikir verəmiyəcəksiniz?

- Təbii, deyilmi? Ancaq şurasını da ərz edəlim ki, yeni əlifbanın əleyhinə rəy vermək üçün əlimizdə bir əsas yoxdur, lehinə rəy vermək üçün də - maaləsəf - hənuz hazırlığımız olmadığı kibi hökumət tərəfindən də bu xüsusda əlimizdə bir təlimat yoxdur".

Halbuki Türkiyə Sovet İttifaqında məlum məsələ ilə bağlı prosesi diqqətlə izləyir, sovetlərin türk əhalisi üçün verəcəkləri qərarı səbirlə müşahidə edirdi. Türkiyədə məlum proseslərə rəhbərlik Türkoloji İnstitutun rəhbəri Fuad Köprülüyə həvalə olunmuşdu. Türkoloji Qurultay bir il əvvəl İstanbulda keçirilməli idi. Tələsmədilər. Gözlədilər. Bakıda keçirildi. Azərbaycan latın əlifbasına keçdi. Türkiyə də bir il sonra keçdi. Türkiyə latın əlifbasına keçən kimi Stalin prosesi dayandırdı. Türkoloji Qurultayla bağlı Stalinlə Leninin fikirləri fərqliydi. Baxmayaraq ki, Lenin qurultay günlərində artıq həyatda yox idi. Amma hərf inqilabını məhz o, Şərqdə böyük inqilab adlandırmışdı. İnqilab isə oldu və dərhal da Stalin tərəfindən ləğv edildi. Səbəb isə aydın, sadə bir həqiqət idi! Çünki Türkiyənin latın əlifbasına keçməsi ilə sovet türkləri ilə Anadolu türkləri mənəvi baxımdan birləşirdi.

Bu qurultayla bağlı öyrənilesi çox şey var. Təkcə çıxışlarda qaldırılan məsələlər baxımından deyil, eləcə də qurultay nümayəndələrinin kimliyini öyrənmək belə bizi müxtəlif sahələrdə araşdırmalara sövq edir. Məsələn, 1920-ci illərdə "türk respublikalarında uşaq ədəbiyyatının vəziyyəti necədir" sualını qurultay nümayəndələrindən bir qisminin yaradıcılığını tədqiq edərək cavablandırmaq olar. Məsələn, qurultayda dünya miqyaslı akademiklərlə, linqvistlərlə yanaşı, iştirak edənlərin arasında Abdrəhimov Qali Şakiroviç tatar uşaq ədəbiyyatının yaradıcılarından biridir. 1913-1915-ci illərdə "Ak yol" jurnalında uşaqlar üçün hekayələr və nağıllar dərc etdirib. Həmin yazıları 1923-cü ildə nəşr olunmuş "Qırmızı çiçəklər" adlı kitabında toplayıb. Yaxud Elbek Metrik özbək uşaq poeziyasının banisidir. Kazandan olan nümayəndə Hasan Səbri Ayvazov "Göz aydın" uşaq jurnalının redaktoru olub. Krımlı Şevqi Bektörənin gözəl uşaq şeirləri var və sairə.

I Türkoloji Qurultayın yaranma zəmini ilk növbədə mətbuatın yarandığı dövrlərdən başlanır. 1875-ci ildə Həsən bəy Zərdabinin redaktorluğu ilə işıq üzü görən "Əkinçi" qəzeti bizim yalnız milli düşüncəmizin deyil, eləcə də türk düşüncəmizin kökündə dayanan amildir. Sonrakı dövrdə - xüsusilə XX əsrin əvvəllərində milli ruh və idrak təəssübkeşliyimiz, müqavimət və direniş amalımızın qazanılmasında Zərdabi ideallarının nə qədər önəm kəsb etdiyi məlum məsələdir. Bu dövr həm də görk edir! XIX əsrin sonu, XX əsrin əvvəllərində yaşayıb-yaradan aydınlar mətbuatın, maarifin, oxumağın faydasını, elmlə ucalmağın zərurətini israrla ifadə edən mətnlərlə necə alovlu şəkildə çıxış etmiş, bunu konseptual olaraq yaradıcılıqlarının amalına çevirmişlər. Elm almaq, maariflənmək prosesi ardınca məfkurə xəttini gətirməli idi. Bunu böyük haqq işi uğrunda mücadiləyə atılan bütün milli münəvvərlər aydın dərk edirdilər. Zərdabi ilə qurulan vətən məfkurəsi sonradan pərvəriş tapan mətbuat orqanlarının hamısının ana xəttinə çevrildi. 1891-ci ildə "Kəşkül" qəzetində Azərbaycan adının milli kimlik məsələsi təsbit olundu, millətin adı ətrafında fikirlər səsləndirildi. "Tərcüman" qəzetində krımlı yazar İsmayıl Qaspıralı "Dildə, fikirdə, işdə birlik" məramı ilə türklərin ortaq problemlərinin qoyuluşunu hədəf götürdü. Ən böyük məfkurə dərsini isə 1905-1906-cı il aralığında çap olunan "Həyat" qəzeti verdi. Böyük ədəbi-mədəni coğrafiyanı ehtiva edən bu qəzetdə böyük ideoloq Əli bəy Hüseynzadənin qələmində təqdim olunan "Türklər kimdir və kimlərdən ibarətdir", eləcə də Əhməd bəy Ağaoğlu, Əlimərdan bəy Topçubaşov, Həsən bəy Zərdabi, Nəriman Nərimanov, Məhəmməd Hadi, Mirzə Ələkbər Sabir və digər ədiblərin yazdığı məqalə və bədii mətnlərlə milli varlıq tanıdılmağa, milli triadamızın əsası qoyulmağa, milli kimlik fənni aşılanmağa başlandı və qəzet bağlandıqdan az sonra, elə həmin il işıq üzü görən "Füyuzat" jurnalı (1906) 32 sayı ilə cəmi bir il davam edən yaradıcı fəaliyyətində geriyə dönüşü mümkün olmayan azadlıq, şüur hərəkatına imza atdı. "Bizə fədai lazımdır! Türk hissiyyatlı, islam etiqadlı, Avropa qiyafəli fədai" deyən Əli bəy Hüseynzadənin çağırışı ardınca istiqlala aparan yolun mübarizkar, mətin milli fədailərini yetişdirdi. Bu həm də M.F.Axundzadə və H.Zərdabi ilə başlanan yolçuluğun, millət və xalq fədailiyinin məntiqi sonucu, tarixi nəticəsi idi.

Bu mənada millətin elmi, bədii və siyasi potensialını meydana qoyan "Əkinçi" qəzetinin xalqa qazandırdığı nə oldu, - xüsusunda sual edəndə bu iki amilin məxsusiliyini önə çəkmək lazım gəlir. İlk növbədə milli şüurun formalaşması və milli dövlətçiliyin yaranması neməti! Mirzə Bala Məmmədzadə "Azerbaycan misaki-millisi" əsərində yazır: "Zənnimizcə, Mirzə Fətəli və Həsən bəy Zərdabi 50 il sonra dünyaya gəlsəydilər, istiqlal tarixi, Azərbaycan İstiqlal Bəyannaməsi də 50 il sonra meydana gələcəkdi. Bunların arasında sıx bir münasibət və rabitə vardır".

Bu mənada yalnız 1918-ci il mayın 28-də yaradılan Azərbaycan Xalq Cümhuriyyəti yox, elə ondan 8 il sonra təşkil olunan I Türkoloji Qurultay da tarixi, ideoloji və siyasi fakt olaraq yalnız tarixi şəraitin məhsulu deyil, XIX əsrin sonu - XX əsrin əvvəlləri milli mətbuat səhifələrində davam edən siyasi, ədəbi və fəlsəfi düşüncənin nəticəsidir. Çünki həmin illərdə bizdə milli dövlətçilik ideyasının tarixi uzağa getməsə də, milli mənlik şüurunun, türklük ruhunun yaranmasının aspektləri bədii-publisistik düşüncəyə söykənirdi.

Akademik Nizami Cəfərov analizlərində daha dərinlərə varır: "Türkologiyanın Azərbaycandakı vəziyyətini anlamaq üçün ilk növbədə türklük anlayışını təsəvvür etmək lazımdır. Bu isə bir qədər mücərrəd anlayışdır, amma bununla yanaşı, təsəvvür edilə bilməsə, nə türkçülük, nə də türkologiya anlayışlarını dəqiqləşdirə bilməyəcəyik. Türkçülük ideologiyadır. Azərbaycanda türklük ondan ibarətdir ki, biz dildə ədəbiyyatda, mədəniyyətdə, tarixdə coğrafiya ilə etnosun münasibətlərini dəqiq aydınlaşdıra bilək. Azərbaycanın coğrafi sərhədləri Səfəvilər dövründən artıq müəyyənləşməyə başladı. Bu gün azərbaycanlı adlanan etnos milləti yaratmaq mənasında həmin coğrafiyanın hüdudlarından kənara çıxmayıb. Bəs bu etnos bu coğrafiyaya hansı tarixi dövrdən bağlanır? Ən sadə izahı odur ki, dünya yaranandan. Bizim üçün əsaslandırılmış, ənənəvi türklük "Kitabi-Dədə Qorqud" eposudur".

Şübhəsiz, bütün yönləri ilə baxanda "Kitabi-Dədə Qorqud" bizim genofondumuzun əsasında dayanan məxəzdir. Bu mənada Ümummilli Lider Heydər Əliyev bilərəkdən hakimiyyətdə olduğu iki müxtəlif zaman kəsimlərində məfkurə istiqamətində işlərə məhz bu dastanın yubileyinin qeyd olunması ilə bağlı sərəncamlar imzalamaqla başlayırdı. Çünki Azərbaycanda türklüyün xalqın etnososiokulturoloji əsası kimi öz köklərini "Kitabi-Dədə Qorqud" eposundan aldığını bilirdi. Bəlkə buna görə XX əsr boyu, sovet dövrünün ən kəskin, ən qatı ideoloji dövrlərində belə türk yaddaşı öləzimədi, tarixin aşamalarından zədəsiz çıxaraq varlığını və milli mənliyini qorudu.

I Türkoloji Qurultayın tarix və yaddaş qarşısında ən böyük xidməti bəlkə də elə bu oldu! Çünki özü də zamanında ilk növbədə türk ruhunun intibahına hədəflənmiş strategiya ilə yola çıxmışdı. Dünyaya öz zəngin mədəniyyəti və keçmişi ilə ifadə olunmuş türk varlığının əzəmətini bəyan etmək! Əli bəy Hüseynzadənin qurultayla bağlı yazdığı gündəlikdə böyük türk alimi Fuad Köprülünün sözləri ilə desək, məqsəd o idi ki, "Ərəb mədəniyyəti yox, İslam mədəniyyəti, müsəlman millətlərin ortaq çalışmalarıyla meydana gəlmiş bir mədəniyyət vardır"!

Yeri gəlmişkən, qurultayla bağlı sonra da gündəlik yazan türkçü ideoloqumuz Əli bəy Hüseynzadə öz qeydlərini bura köçürməklə gələcək üçün faydalı bir irs miras qoymuşdur. Əli bəyin qeydlərini qurultayın 1926-cı ildə rusca nəşr olunmuş stenoqramını dolğunlaşdıran sənəd kimi dəyərləndirən türkoloq alim Azər Turanın məqaləsində oxuyuruq: "Onlar 1926-cı ildə İstanbuldan Bakıya - I Türkoloji Qurultaya bir yerdə gəlmişdilər: Fuad Köprülü, Dyula Messaroş, Vasili Bartold, Teodr Menzel və Əli bəy Hüseynzadə. Qurultayın aparıcı simaları da onlar idi. Qurultayda hamısı çıxış edib. Əli bəy Hüseynzadə və Menzel isə həm də gündəlik qeydlər yazıblar. Menzelin qeydləri Almaniyada nəşr olunub. 1927-ci ildə Bakı qəzetlərində professor Menzelin "Der 1. Turkologische Kongre in Baku" əsəri barədə məlumatlar dərc olunub. Amma Əli bəy Hüseynzadənin qeydləri yalnız 1969-cu ildə ortaya çıxıb və ilk dəfə 1970-ci ilin yanvar ayında "Yeni İnsan" dərgisində Hilmi Ziya Ülkenin təqdimatı ilə dərc olunub".

"Biz beynəlxalq təşkilatlarla bağlı bundan sonra da öz addımlarımızı atacağıq, ilk növbədə Türk Dövlətləri Təşkilatı çərçivəsində səylərimizi davam etdirəcəyik. Bu, bizim üçün prioritetdir!" Bu sözləri Prezident İlham Əliyev ötən il fevralın 14-də keçirilən andiçmə mərasimindəki çıxışında səsləndirmişdir. Azərbaycanın yürütdüyü siyasətin bunu aydın göstərdiyini vurğulayan dövlət başçısı həmçinin qeyd etmişdir: "Bu, bizim üçün əsas beynəlxalq təşkilatdır, çünki bu, bizim ailəmizdir. Bizim başqa ailəmiz yoxdur. Bizim ailəmiz türk dünyasıdır!"

İnanırıq ki, milli varlığımızın qorunmasında, milli kimliyimizin təsdiqində mühüm hadisə olan I Türkoloji Qurultayın 100 illiyi türk xalqlarının milli mədəniyyət və elm bayramı kimi qeyd olunmaqla növbəti dəfə triumfa imzasını atacaq, sözün həqiqi mənasında türk dünyası üçün hadisəyə çevriləcəkdir!

***Elnarə AKİMOVA,***
***Milli Məclisin deputatı,***
***YAP İdarə Heyətinin üzvü,***
***filologiya elmləri doktoru***

# Azərbaycanın müstəqillik tarixinə yazılan Zəfər salnaməsi

**Qələbə - Azərbaycanın iqtisadi və hərbi gücünün, diplomatik sahədəki üstünlüyünün və milli ruhun birləşdiyi andır. Ordumuz 5 il əvvəl qəhrəmanlıq dastanı yazaraq, Ermənistanın təxribatlarının və yeni işğal planlarının qarşısını aldı, torpaqlarımızı azad edərək böyük Zəfərə imza atdı. Silahlı Qüvvələrin modernləşdirilməsi və müasir texnologiyalarla təchiz edilməsi Zəfərin əsasını təşkil etdi.**




Qələbənin əsasını qoyan amillərdən biri də xalqın ordusuna olan dəstəyi idi. Vətən savaşında xalqla ordunun birliyinin, əsgər və zabitlərin öz torpaqları uğrunda fədakarlıqla mübarizə aparmasının böyük əhəmiyyəti vardı. Böyük əhəmiyyəti olan həm də Prezident İlham Əliyevin Azərbaycanın haqq səsini bütün dünyaya yayması və Qarabağın işğaldan azad edilməsi üçün hüquqi zəmin yaratması idi. Müharibə zamanı Azərbaycanın beynəlxalq səviyyədə həm siyasi, həm də hüquqi üstünlüyünü qoruyub saxlaması diplomatik zəfər hesab olunur. Prezidentin xarici ölkələrlə qurduğu əlaqələr, xüsusən Türkiyə ilə strateji müttəfiqlik bu qələbəni reallaşdıran amillərdən idi.

2020-ci ilin sentyabrında başlayan İkinci Qarabağ müharibəsi hərbi əməliyyatların yüksək səviyyədə təşkil edildiyini ortaya qoydu. Bunun sayəsində Azərbaycan Silahlı Qüvvələri müasir döyüş taktikalarından istifadə edərək qısa müddətdə böyük uğurlar əldə etdi. Xüsusən pilotsuz uçuş aparatlarının (PUA) istifadəsi düşmənin silah-sursatının və texnikasının məhv edilməsində əsas amillərdən oldu. 44 gün davam edən döyüşlər zamanı rəşadətli Azərbaycan Ordusu 5 şəhər, 4 qəsəbə və 286 kəndi işğaldan azad etdi. Cəbrayıl şəhəri və rayonun 90 kəndi, Füzuli şəhəri və rayonun 53 kəndi, Zəngilan şəhəri, rayonun Mincivan, Ağbənd, Bartaz qəsəbələri və 52 kəndi, Xocavənd rayonunun Hadrut qəsəbəsi və 35 kəndi, Tərtər rayonunun 3 kəndi, Qubadlı şəhəri və rayonun 41 kəndi, Xocalı rayonunun 9 kəndi, Şuşa şəhəri, Laçın rayonunun 3 kəndi, həmçinin Ağdərə və Murovdağ istiqamətlərində bir neçə strateji yüksəklik, Zəngilanda isə Bartaz, Sığırt, Şükürataz yüksəklikləri və daha 5 adsız yüksəklik düşməndən təmizləndi. Ən böyük strateji əhəmiyyətə malik Şuşa şəhərinin işğaldan azad edilməsi müharibənin həlledici mərhələsi oldu.

Prezident İlham Əliyevin qətiyyətli siyasəti, xalqı və ordunu motivasiya edən liderliyi, müharibə zamanı və onun öncəsində əldə olunan diplomatik uğurlarla yanaşı, iqtisadi müstəqilliyin gücləndirilməsi ilə bağlı gördüyü işlər qələbənin bünövrəsini təşkil etdi. Zəfər həmçinin təkcə hərbi güclə deyil, eyni zamanda diplomatik meydanda qazanılan böyük nailiyyət oldu. Uzun illər beynəlxalq arenada ədalətsiz vəziyyətdə olan Azərbaycan beynəlxalq hüququn bərpa edilməsini təmin etdi. Qarabağın azad edilməsi Azərbaycanın ərazi bütövlüyünün, BMT-nin qətnamələrinin yerinə yetirilməsi, Azərbaycanın beynəlxalq nüfuzunun daha da artması idi. Türkiyə başda olmaqla qardaş və dost dövlətlər Azərbaycanın yanında duraraq bu müharibədə ona dəstək verdilər. Xüsusən Türkiyə-Azərbaycan qardaşlığı və müttəfiqliyi münaqişənin həllində mühüm rol oynadı.

Müharibədən sonra regionda sabitlik və əməkdaşlıq üçün yeni perspektivlər açıldı. Ermənistanın məğlubiyyəti ilə birlikdə Cənubi Qafqazda yeni reallıqlar yarandı. Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən nəqliyyat və enerji layihələri regionun geosiyasi və iqtisadi xəritəsini dəyişdi. Zəngəzur dəhlizinin açılması ilə Azərbaycanın Naxçıvanla birbaşa əlaqəsinin təmin olunması xeyli yaxınlaşacaq.

Müharibədən sonra Azərbaycanın əsas hədəflərindən biri azad edilmiş ərazilərin bərpası və yenidən qurulmasıdır. Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığı ilə Qarabağın və Şərqi Zəngəzurun yenidən qurulması üçün geniş miqyaslı layihələrə start verildi. Bu gün həmin ərazilərə Böyük qayıdış çərçivəsində məcburi köçkünlərin öz yurdlarına dönməsi üçün müasir infrastrukturlar qurulur, yeni texnologiyaların tətbiqi ilə "ağıllı şəhərlər" və "ağıllı kəndlər" salınır.

Qarabağın işğaldan azad edilməsindən sonra Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva Qarabağın bərpa prosesində fəal iştirak edir. Heydər Əliyev Fondu xüsusilə mədəni irsin bərpası sahəsində mühüm layihələr həyata keçirir. Fondun təşəbbüsü ilə tarixi abidələr, məscidlər və dini-mədəni obyektlər yenidən qurulur. Mehriban xanım Əliyevanın təşəbbüsü ilə görülən bu işlər Azərbaycan mədəniyyətinə böyük töhfələr verir.

Müharibədən sonra Qarabağ və Şərqi Zəngəzurda minatəmizləmə işləri də səngimir. Ermənistanın işğal illəri ərzində Azərbaycan torpaqlarında çox sayda mina və partlayıcı maddələr yerləşdirilmişdir ki, bu da azad olunmuş ərazilərə insanların qayıdışını çətinləşdirir. Müharibə başa çatdıqdan sonra Azərbaycan ANAMA (Azərbaycan Respublikası Minatəmizləmə Agentliyi) və digər beynəlxalq tərəfdaşların köməyi ilə genişmiqyaslı minatəmizləmə əməliyyatları aparır.

Minatəmizləmə prosesi həm əhalinin təhlükəsiz qayıdışını təmin etmək, həm də bu ərazilərin yenidən qurulmasını mümkün etmək üçün həyati əhəmiyyət kəsb edir. Təəssüf ki, mina xəritələrinin Ermənistandan alınması ilə bağlı Azərbaycan beynəlxalq təşkilatların vasitəçiliyi ilə bir sıra danışıqlar aparsa da, problem hələ də tam həll olunmayıb.

Bu Zəfər Azərbaycanın dünyada milli birliyinin gücündə və gələcəyə inamında bir nümunə oldu. Bu Qələbə Azərbaycan xalqının iradəsinin, milli ruhunun və Prezident- Xalq birliyinin ən parlaq təzahürü oldu. İkinci Qarabağ müharibəsindən sonra Azərbaycanın regiondakı rolu daha da möhkəmləndi. Xüsusən enerji siyasəti sayəsində Azərbaycan Avropanın təbii qaz təchizatçılarından birinə çevrildi. Qarabağın azad olunması və regionun bərpası ilə ölkəmizin geosiyasi əhəmiyyəti də artdı. Azərbaycanın həm "Şərq-Qərb", həm də "Şimal-Cənub" nəqliyyat dəhlizlərinin kəsişmə nöqtəsində yerləşməsi ölkəmizin strateji nəqliyyat və logistika mərkəzinə çevrilməsini təmin etdi.

Müharibə dövründə və sonrakı illər Türkiyə Azərbaycanın ən yaxın müttəfiqi olaraq çıxış etdi. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan dəfələrlə Azərbaycanın haqlı mübarizəsini dəstəklədiyini və Qarabağın azad olunması məsələsində qardaş ölkəyə tam dəstək verdiyini bəyan etdi. Zəfər Günü ilə bağlı keçirilən tədbirlərdə Türkiyənin rəsmi nümayəndələrinin iştirakı və hərbi paradlarda Türkiyə hərbi birləşmələrinin yer alması Azərbaycan-Türkiyə dostluğunun və qardaşlığının bariz nümunəsi oldu. 2021-ci ilin iyun ayında Şuşada imzalanan Şuşa Bəyannaməsi isə iki ölkə arasında strateji əməkdaşlığın zirvəsi hesab edilir. Bu bəyannamə hərbi və təhlükəsizlik sahəsində ortaq fəaliyyətlərə dair əsas prinsipial razılaşmaları özündə əks etdirir və Azərbaycanın bölgədəki təhlükəsizliyini təmin etmək məqsədini güdür.

2020-ci ilin dekabr ayında Prezident İlham Əliyev Zəfər Gününün təsis edilməsi ilə bağlı sərəncam imzaladı və 8 Noyabr Zəfər Günü elan edildi. Zəfər Günü qeyd olunarkən dövlətin ali rəhbərliyi - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva şəhidlərimizin xatirəsini ehtiramla yad edirlər. Həmin gün eyni zamanda şəhid ailələri və qazilərlə görüşlər təşkil edilir. Zəfər Gününün qeyd olunmasının ayrılmaz hissəsi isə hərbi paraddır. 2020-ci ilin dekabr ayında Bakının Azadlıq meydanında keçirilən möhtəşəm Zəfər paradı bu gün də xatirimizdən silinmir. Həmin paradda Azərbaycan Ordusu ilə yanaşı, qardaş Türkiyənin Silahlı Qüvvələri də iştirak etdi. Bu, iki ölkənin qardaşlığının rəmzi olaraq yaddaşlara köçdü. Yaddaşlara köçən həm də bu il noyabrın 8-də keçirilən növbəti hərbi parad oldu.

Azərbaycanın Zəfər Günü təkcə ölkə daxilində deyil, xaricdə də böyük təntənə ilə qeyd edilir. Azərbaycanın xarici ölkələrdəki səfirliklərində və diplomatik nümayəndəliklərində Zəfər Günü ilə bağlı müxtəlif tədbirlər keçirilir. Bu tədbirlər Azərbaycan Ordusunun və xalqının qələbəsinin dünya ictimaiyyətinə çatdırılması üçün əhəmiyyətlidir.

Bu gün Azərbaycan bayrağı ölkəmizin bütün ərazisində dalğalanmaqdadır. Biz tarixi şərəflə qarlı dağlara dağ vüqarlı oğullarla yazdıq və yazmağa davam edirik. Çünki yazılacaq çox tariximiz var! Milli marşımız qəhrəmanlıq dastanımızdır. Dövlətlərimiz möhtəşəm tariximizin əmanətidir. Müharibənin taleyini müəyyənləşdirən başda Ali Baş Komandan İlham Əliyev olmaqla, döyüş meydanında qəhrəmanlıq göstərən Azərbaycan əsgəri və onun cəsur komandirləridir. 44 günün hər günü bizim şanlı tariximizdir. 23 saat 43 dəqiqəlik əməliyyatın hər anı qürur və şərəfimizdir.

8 Noyabr Azərbaycan xalqının qədim tarixinə Zəfər Günü kimi yazılıb. Xalq, ordu və liderin birliyi, əzm və iradə bu Zəfərin təməlidir. Bu gün Azərbaycan xalqı azad edilmiş torpaqlarında yeni həyat qurur, Qarabağ və Şərqi Zəngəzur yenidən dirçəlir. Bütün bunlar gələcək nəsillərə qürur mənbəyi olacaq və xalqımızın milli birliyinin təntənəsi kimi daim yaddaşlarda yaşayacaq.

***Murtəza HƏSƏNOV,***
***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Siyasi idarəetmə fakültəsinin dekanı, dosent***





# Mədəniyyət





Kino aktyorlarımız

# Sənətkarın ən böyük mükafatı...

**Onu geniş tamaşaçı kütləsinə filmlərdə böyük aktyorluq bacarığı ilə yaratdığı rollar tanıtdı. Gündüz Abbasovu "Onun böyük ürəyi"ndə Rəcəb, "Bir qalanın sirri"ndə Elşən, "Bizim küçə"də Rasim və başqa rolları kinoaktyor kimi məşhurlaşdırdı. Ədəbiyyatsevərlər isə onu istedadlı yazıçı və tərcüməçi kimi tanıdılar. Gündüz Abbasov həm də peşəkar jurnalist və rəssam idi...**



## Ədəbiyyata, incəsənətə vurğunluqla keçən uşaqlıq illəri

O, 1930-cu il noyabrın 20-də Bakının Dağlı məhəlləsində dünyaya gəlib. Adını Cəfər Cabbarlının "Sevil" pyesindəki Balaşın oğlu Gündüzün şərəfinə qoyublar. Gündüz Abbasovun atası Şəmsəddin Abbasov tanınmış yazıçı və jurnalist, Azərbaycan Radiosunun ilk sədri, Bakı kinostudiyasının direktoru olub. Anası Mələk xanım görkəmli dramaturq, şair, teatr xadimi Cəfər Cabbarlının qardaşı qızı idi.

Gündüz Abbasov ədəbiyyat və incəsənətlə sıx bağlı olan ailədə böyüyüb. Uşaqlığı teatrda, kinoda aktyorlar arasında keçib. Ağlı kəsəndən onu əhatə edən mühitdə ədəbiyyata, incəsənətə olan sevgi kiçik yaşlarından Gündüzün də qəlbinə hakim kəsilib. O, gördüyü dünyanı, hisslərini həm fırça, həm də qələmlə ifadə etmək arzusuna düşüb. Odur ki, 1952-ci ildə Bakı Rəssamlıq Məktəbini, 1961-ci ildə isə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) Jurnalistika şöbəsini bitirib.

Ədəbiyyata erkən yaşlarından böyük maraq göstərən Gündüz Abbasov tələbəlik illərində ədəbi yaradıcılıqla məşğul olub, hekayələr yazıb, tərcümələr edib. 1950-1960-cı illərdə onun "Papasının qızı", "Canlı körpü" və "Qanadlar" adlı üç kitabı çapdan çıxıb. Dövri mətbuatda yüzlərlə hekayə, felyeton, məqalə və oçerki dərc olunub.

O, bir müddət Azərbaycan Radiosunun Gənclər şöbəsinin müdiri işləyib. Sonra "Uşaqgəncnəşr" və "Azərnəşr" nəşriyyatlarının redaktoru kimi fəaliyyət göstərib. "Ədəbiyyat və incəsənət" qəzetində şöbə müdiri vəzifəsində çalışıb.

Gündüz Abbasov 1942-ci ildə "Sovet pəhləvanı" adlı qısametrajlı filmə çəkilib. Böyük kinoya isə 1958-ci ildə "Onun böyük ürəyi" filmi ilə gəlib. Kinodramaturq İmran Qasımovun ssenarisi əsasında rejissor Əjdər İbrahimovun çəkdiyi həmin bədii filmdə prokuror Rəcəb obrazı iyirmi səkkiz yaşlı Gündüz Abbasova həvalə edilib. O zaman Gündüz evli, iki uşaq atası idi. Çəkilişlər zamanı altıaylıq olan qızı Şəhla da "Onun böyük ürəyi" filmində Rəcəbin bacısı Səmayənin qızı Lalənin körpəlik dövrünü canlandırıb.



## Kinoaktyor, yazıçı, tərcüməçi, rəssam...

Film ekranlara çıxdığı vaxtdan böyük tamaşaçı rəğbəti ilə qarşılanıb. "Onun böyük ürəyi" Rəcəb rolunun ifaçısını - Gündüz Abbasovu kinoaktyor kimi məşhurlaşdırıb.

1959-cu ildə kinorejissor Əlisəttar Atakişiyevin Məmmədhüseyn Təhmasibin "Çiçəkli dağ" pyesi əsasında çəkdiyi "Bir qalanın sirri" film-nağılındakı Elşən rolu isə Gündüz Abbasovun kino yaradıcılığında xüsusi yer tutur. Məşhur aktyorlarla tərəf müqabili olan gənc aktyor öz oyunu ilə sübut edir ki, kino sənətində təsadüfi deyil. "Bir qalanın sirri"ndə Göygöz Kosaya qalib gələrək sevgilisi Mətanəti xilas edən, dağları yaran, oxuduğu kitabların köməyi ilə heyvanların dilini öyrənən, Həkim babanın qollarını açan yaraşıqlı qəhrəman Elşən rolu, necə deyərlər, sanki Gündüz Abbasovun boyuna biçilmişdi.

Onun kino yaradıcılığı kifayət qədər məhsuldar olub. Gündüz Abbasov 1958-1990-cı illərdə Cəfər Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasının istehsal etdiyi 20-dək filmdə bir-birindən maraqlı, dolğun və yaddaqalan rollar canlandırıb. "Bir qalanın sirri" film-nağılında Elşən, "Aygün" televiziya filmində Elyar, "Bizim küçə"də Rasim, "Leyli və Məcnun"da Zeyd, "Telefonçu qız"da Mehribanın atası, "Vulkana doğru"da Uzun, "Dədə Qorqud"da Bəybura, "Qərib cinlər diyarında" İblis, "Babək"də Pərvinin babası, "İşarəni dənizdən gözləyin"də şair, "Qəm pəncərəsi"ndə qoca kəndli, "Alman klinikasına şəxsi səfər"də milyonçu Lioznov, "Doğma sahillər"də Bəndalı kişi, "Yuxu"da Hidayət kişi və başqa rollarla adını istedadlı kinoaktyor kimi Azərbaycan kino tarixinə yazıb.

Gündüz Abbasov həm də "Mozalan" respublika satirik kinojurnalının bir çox kinosüjetində yaddaqalan rollar yaradıb.

Kino sənəti onu nə qədər məşhurlaşdırsa da, Gündüz Abbasov peşəkar şəkildə rəssamlıqla və yazıçılıqla məşğul olub. Kitablarındakı illüstrasiyaları da özü çəkib. Gündüz Abbasov həm də yaxşı tərcüməçi idi. O, Anatoli Aleksin, Aleksey Tolstoyun və Çandar Krişanın əsərlərini Azərbaycan dilinə çevirib. Eyni zamanda dublyaj üçün ssenariləri yüksək səviyyədə dilimizə tərcümə edib.

Gündüz Abbasov həm də peşəkar idmançı olub. O, respublika voleybol komandasının üzvü, daha sonra kapitanı kimi beynəlxalq yarışlarda da iştirak edib.

Ömrünün son illərində xatirələrini qələmə alır, "Keçmişsiz" adlı roman üzərində çalışır. Ancaq ömrü bir çox işi kimi, xatirələrini və bu romanını da yazıb tamamlamağa yetmir...

Rejissor Fikrət Əliyevin çəkdiyi "Yuxu" filmində ifa etdiyi Hidayət kişi rolu epizodik olsa da, Gündüz Abbasovun oynadığı digər rollar kimi yaddaqalandır. Hidayət aktyorun kinoda son işidir. "Yuxu" filminin ekranlarda nümayiş olunmasını görmək Gündüz Abbasova qismət olmayıb. Film 1993-cü ildə çəkilməyə başlanıb, çəkilişi 1994-cü ildə başa çatıb. Ancaq filmin tam istehsalı müəyyən səbəblərdən 2001-ci ildə başa çatıb.

Kinoaktyor, yazıçı, tərcüməçi və rəssam Gündüz Abbasov 1995-ci il avqustun 21-də, altmış beş yaşında dünyasını dəyişib.

İstedadı hər kəs tərəfindən etiraf edilsə də, nədənsə Gündüz Abbasovun heç bir fəxri adı, təltifi olmadı. Onun ən böyük və yeganə mükafatı tamaşaçı sevgisi, oxucu rəğbəti oldu.

*Zöhrə FƏRƏCOVA, "Azərbaycan"*

Elm xadimlərimiz

# Kimya elmində Şahtaxtinski imzası

**Azərbaycan elminə böyük töhfələr vermiş, onun inkişafında layiqli xidmətlər göstərmiş, dəyərli kəşflər etmiş alimlərimizdən biri də Toğrul Nemət oğlu Şahtaxtinskidir.**



Akademikin əsas elmi fəaliyyəti kimyəvi reaksiyaların kinetika və mexanizminin tədqiqi, üzvi və neft-kimya sintezi proseslərində karbohidrogenlərin katalitik çevrilmələrinin öyrənilməsi, həmçinin kimya proseslərinin modelləşdirilməsi, optimallaşdırılması və kimya texnologiyasının nəzəri əsaslarının işlənilməsi ilə əlaqəli geniş problemləri əhatə etmişdir. Görkəmli alim Toğrul Şahtaxtinskinin rəhbərliyi ilə oksidləşmə və oksidləşdirici ammonolizin mühüm təcrübi prosesləri hazırlanmış, mürəkkəb kimyəvi-texnoloji sistemlərin modelləşdirilməsi və optimal idarə olunmasının nəzəri əsasları, ayrıca proseslər üçün katalizatorun "qocalmasının" dinamikasının ümumi prinsipləri yaradılmış, suspenziya polimerizatoru, yanmanın elektrokimyəvi kamerası, qeyri-stasionar qarışdırıcı reaktorlar hazırlanmışdır.

Anadan olmasının 100 illiyi tamam olan tanınmış alim, kimya elmləri doktoru, akademik Toğrul Nemət oğlu Şahtaxtinski gənc nəsillərə nümunə olan şərəfli bir ömür yaşayıb. O, 1925-ci il oktyabrın 22-də Bakı şəhərində dünyaya göz açıb. Orta məktəbi yüksək göstəricilərlə başa vurduqdan sonra 1943-cü ildə Azərbaycan Sənaye İnstitutunun (indiki Neft və Sənaye Universiteti) Kimya-texnologiya fakültəsinə qəbul olub. Təhsilini həvəslə davam etdirərək elmi biliklərə də dərindən yiyələnib. Ali məktəbdə oxuduğu illərdə görkəmli alim, akademik M.F.Nağıyevin rəhbərliyi altında elmi-tədqiqat işləri aparmağa başlayıb. Yorulmaq bilmədən tədqiqat işləri aparan Toğrul Şahtaxtinski 1949-cu ildə institutu yüksək göstəricilərlə başa vuraraq kimyaçı-mühəndis diplomu alıb. Gələcəkdə böyük elm adamı olacaq T.Şahtaxtinskinin təcrübə və peşəkarlığını nəzərə alaraq onu Azərbaycan Elmlər Akademiyasına işə dəvət ediblər. Elə buradan da onun elmin zirvəsinə gedən yolları başlayıb.

Elm aləmində uğurlu addımlarını atan Toğrul Şahtaxtınski 1959-cu ildə texnika elmi üzrə namizədlik dissertasiyası müdafiə edib. 1960-cı ildən Azərbaycan Elmlər Akademiyasının Neft Kimya Prosesləri İnstitutunda laboratoriya müdiri vəzifəsində çalışıb. 1961-1962-ci illərdə Azərbaycan SSR EA Neft-Kimya Prosesləri İnstitutunda elmi işlər üzrə direktor müavini vəzifəsində işləyib. 1968-ci ildə kimya professoru elmi adını alıb. Onun doktorluq dissertasiya işi "Katalizatorun qaynayan təbəqəsində alifatik karbohidrogenlər və onların texniki qarışıqlarının oksidləşməsi və oksidləşmə ammonolizi" kimi mühüm bir problemə həsr olunmuşdur.

1971-1973-cü illərdə Naxçıvan Elmi Mərkəzinin rəhbəri olan Toğrul Şahtaxtinski 1972-ci ildə Azərbaycan EA-nın müxbir üzvü, 1976-cı ildə həqiqi üzvü seçilmişdir. 1975-2002-ci illərdə Azərbaycan Elmlər Akademiyasının Kimya Texnologiyasının Nəzəri Problemləri İnstitutunun, 2002-2010-cu illərdə isə Kimya Problemləri İnstitutunun (indiki Kataliz və Qeyri-Üzvi Kimya) direktoru, 1973-1981, 1990-2001-ci illərdə Azərbaycan EA Kimya Elmləri Bölməsinin akademik-katibi və 2001-2007-ci illərdə AMEA-nın akademik-katibi olmuşdur.

Görkəmli alim Toğrul Şahtaxtinski bütün mənalı ömrünü elmə, onun inkişafına həsr edib. Yaşadığı və fəaliyyət göstərdiyi illər ərzində bir-birindən dəyərli və gərəkli 500-dən çox elmi əsər yazıb. Akademik həm də 130-dan çox ixtira və patentin, 12 monoqrafiyanın müəllifidir. Akademikin zaman-zaman böyük zəhmət və əziyyətlər bahasına yazdığı əsərlər, etdiyi ixtiralar bu gün də elmin inkişafına xidmət göstərir.

Akademik Toğrul Şahtaxtinski elmimizi xarici ölkələrdə də layiqincə təmsil etmişdir. 1963-cü ildə Almaniya Demokratik Respublikasında, Üzvi Kimya İnstitutunda, Berlin və Rostov universitetlərində məruzələrlə çıxış etmişdir. 1966-cı ildə Buxarest, Yacc, Qluj Universitetlərində, iri kimya kombinatında etdiyi məruzələr iştirakçılar tərəfindən maraqla dinlənilmişdir. Görkəmli kimyaçı 1969-cu ildə Hamburq Universitetində, Münhen Ali Texniki Məktəbində, 1971-ci ildə "Basf" firmasının dəvəti ilə yenidən Almaniya Federativ Respublikasında, 1974-cü ildə Yaponiyada Tokio və Osaka universitetlərində, 1975-ci ildə Tokio şəhərində keçirilən beynəlxalq neft konqresində, 1977-ci və 1979-cu illərdə IV və VI Amerika-Sovet simpoziumlarında, 1980-ci ildə Fransada keçirilən katalizə dair Fransa-Sovet simpoziumunda, 1983-cü, 1986-cı və 1989-cu illərdə Macarıstan Elmər Akademiyasının Texniki Kimya İnstitutunda keçirilən konfransda etdiyi məruzələr yüksək dəyərləndirilib.

Görkəmli elm xadimi Toğrul Şahtaxtinski 1992-ci ildə Türkiyə-Azərbaycan simpoziumunda Azərbaycan nümayəndə heyətinin rəhbəri kimi qardaş ölkəyə getmiş və tanışlıq üçün Egey Universitetinə dəvət olunmuşdur. O, 1993-cü ildə "İşıqdan kimya" firmasının dəvəti ilə yenidən Türkiyənin İzmir şəhərinə getmiş və burada söylədiyi məruzələrlə böyük elm adamı olduğunu bir daha sübut etmişdir. O, keçmiş SSRİ məkanında, Leninqrad şəhərində (indiki Sankt-Peterburuq) 1965-1971-ci illərdə "Alifatik karbohidrogenlərin oksidləşməsi və oksidləşdirici ammonolizi" mövzusunda mühazirələr oxumuş, 1969-cu ildə Moskvada kataliz üzrə beynəlxalq konqresdə, 1994-cü ildə Alma-Atada (Qazaxıstan), 1977-ci ildə Riqada (Latviya), 1994-cü ildə Yaroslavl şəhərində elmi konfranslarda çıxış etmişdir.

Bütün bunlarla yanaşı, akademik Toğrul Şahtaxtinski elmimizin gələcəyi üçün bilikli, savadlı kadrların hazırlanmasına da böyük diqqət ayırmışdır. Akademikin başqa sahələrdə olduğu kimi, bu istiqamətdəki fəaliyyəti də müsbət nəticələr vermişdir. Müxtəlif illərdə onun rəhbərliyi altında 12 nəfər elmlər doktoru, 50 nəfərdən çox isə fəlsəfə doktoru müdafiə etmişdir. Akademik Toğrul Şahtaxtinski bu sahənin təbliğatı istiqamətində də çox mühüm işlər görmüşdür. Görkəmli elm xadimi 1975-2010-cu illərdə "Azərbaycan kimya jurnalı"nın baş redaktoru olmuşdur. Həmin jurnalda onlarca, yüzlərlə gənc kimyaçının əsərlərinin dərcinə yaşıl işıq yandırmışdır. 1976-2010-cu illərdə elmi dərəcələrin verilməsi üzrə dörd ixtisasın "Kimya texnologiyasının proses və aparatları", "Kimyəvi kinetika və kataliz", "Yüksək molekullu birləşmələrin kimyası" və "Qeyri-üzvi kimya" ixtisasları üzrə alimlik dərəcəsi verən Dissertasiya Şurasının sədri olmuşdur.

Xalq, dövlət və elm üçün görülən işlər heç vaxt diqqətdən kənarda qalmır, zaman-zaman layiqli qiymətini alır. Akademik Toğrul Şahtaxtınskinin də elmin inkişafındakı xidmətləri dövlətimiz tərəfindən layiqincə qiymətləndirilmişdir. Elmdə qazandığı nailiyyətlərinə görə "Fədakar əməyə görə" medalı (1970), "Xalqlar dostluğu" (1976) və "Şərəf nişanı" (1980) ordenləri ilə təltif edilmişdir. Görkəmli elm xadimi həmçinin Azərbaycan Ali Sovetinin "Fəxri fərmanı" (1985), "Azərbaycanın Əməkdar elm xadimi" (1991) fəxri adı, "Şöhrət" (1999) və "İstiqlal" (2005) ordenləri ilə təltif edilmişdir.

Əməkdar elm xadimi Toğrul Nemət oğlu Şahtaxtinski 2010-cu il oktyabrın 8-də ömrünün 85-ci ilində dünyasını dəyişmişdir. Onun adı və xeyirxah əməlləri xatirələrdə daim yaşayacaqdır.

*Vahid MƏHƏRRƏMOV, "Azərbaycan"*

# Şəmkir Musiqi Məktəbi gənclərin ən çox üz tutduqları məkandır

**Hazırda ölkəmizdə bütün sahələrdə olduğu kimi, mədəniyyətə və incəsənətə də dövlət tərəfindən xüsusi diqqət göstərilir. Tarixən zəngin olan Azərbaycan mədəniyyətinin bugünkü səviyyəyə yüksəlməsində Ulu Öndərin misilsiz xidmətləri olub. Milli musiqini xalqın ən böyük sərvəti hesab edən Ümummilli Lider Heydər Əliyev tərəfindən mənəvi dəyərlərin qorunması, təbliği və bu günlərə gəlib çatmasında çox mühüm işlər görülüb.**



Hazırda Prezident İlham Əliyevin incəsənət xadimlərinə yüksək diqqəti dövlət qayğısının əyani təzahürüdür. Azərbaycan mədəniyyətinin inkişafı dövlət başçısının daim diqqət mərkəzindədir. Milli musiqinin təbliği və inkişafı dövlət mədəniyyət siyasətinin əsasında dayanan prioritet məsələlərdəndir.

Musiqi hər bir xalqın milli mədəniyyətinin özəyi, bəşər övladının mənəvi aləmini zənginləşdirən ən böyük xəzinədir. Musiqi duyumlu gənclərin hazırlanması və ixtisaslaşması istiqamətində aparılan məqsədyönlü işlər Şəmkirdə də öz bəhrəsini verməkdədir.

Şəmkir Musiqi Məktəbi nailiyyətləri ilə bölgədə birincidir. Məktəbin rəhbəri Samirə Rüstəmova təcrübəsi, bilik və bacarığı ilə məktəbdə bir çox yeniliyə imza atıb, tarixi ənənələri yenidən dirçəldib. Bundan əlavə, keçirilən məktəbdaxili silsilə tədbirlər - sinif konsertləri, milli bayramlar, anım günləri, yaradıcı təqdimatlar şagirdlərlə bərabər, valideynlərə də sevinc və fərəh hissi yaşadır. "Simlərin sehrli sədası", "Səslərin ahəngi", "Musiqi dili ilə danışanlar", xüsusilə dahi bəstəkar Üzeyir bəy Hacıbəylinin 140 illiyi münasibətilə konsert proqramı, müəllim və şagirdlərin birgə vəhdəti izləyicidə xoş təəssüratlar yaratmışdır.

Samirə Rüstəmova söhbət zamanı bildirdi ki, məktəbdə şagirdlərin musiqi biliklərinə yiyələnmələri üçün hər cür şərait var. Onlara milli musiqimiz, xalq və bəstəkar mahnıları, dünya musiqisi öyrədilir, təbliğ olunur. Xüsusilə qeyd etmək istəyirəm ki, ilk dəfə qərb bölgəsində məhz Şəmkir Musiqi Məktəbində xalq çalğı alətləri orkestri yaradılmışdır. Bu, məktəb üçün yenilik və böyük bir uğurdur. Məktəb uşaq və yeniyetmələrdə musiqi zövqünün formalaşmasında xüsusi rol oynayır.

Şəmkir Musiqi Məktəbi bu tədris ilində bir daha sübut etdi ki, musiqi yalnız səslərdən ibarət deyil - musiqi həm də bir bəşəri dildir, saf duyğu və arzudur. Görkəmli pedaqoqlar şagirdlərin bədii zövqlərinin düzgün tərbiyələndirilməsi işində musiqini qüvvətli təsir gücünə malik vasitələrdən biri kimi həmişə yüksək qiymətləndirmişlər. Çünki musiqi təkcə şagirdlərin estetik tərbiyəsində deyil, həmçinin əqli, əxlaqi və fiziki tərbiyəsində də mühüm rol oynayır.

*Babək ƏLİYEV, Şəmkir rayonu*

# Xalçaçılıq mədəni irsinin təbliğinə həsr olunmuş birgə layihənin icrasına başlanılıb




**Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın bilavasitə təşəbbüsü və dəstəyilə ölkəmizin ənənəvi xalçaçılıq sənətinin UNESCO-nun Qeyri-maddi mədəni irs üzrə Reprezentativ Siyahısına daxil edilməsinin 15 illiyi münasibətilə "AzerGold" QSC və "Azərxalça" ASC mədəni irsin təbliği ilə bağlı birgə layihənin icrasına başlayıb.**

"Azərxalça" ASC-nin Mətbuat xidmətindən aldığımız məlumata görə, təşəbbüs çərçivəsində Qarabağ xalçaçılıq məktəbinə aid "Azərxalça" brendinə məxsus "Qasımuşağı" və "Çələbi" xalçalarını əldə edən hər bir müştəriyə "AzerGold" QSC tərəfindən istehsal olunmuş və üzərində Qarabağ xalçaçılıq məktəbinə məxsus "Qasımuşağı" və "Çələbi" xalçasının ornamentlərinin həkk olunduğu "Laçın" və "Qarabağ xalçası - Çələbi" gümüş sikkələri hədiyyə ediləcək.

Qeyd olunub ki, bu unikal əməkdaşlığın əsas məqsədi Azərbaycanın qədim xalçatoxuma ənənələrini mədənçilik sənayesi ilə sintez edərək, milli mədəni irsin təbliğinə töhfə verməkdir. Məlumatda o da bildirilib ki, layihə həmçinin özünəməxsus ornamentləri, zəngin rəng palitrası və simvolik kompozisiyaları ilə Azərbaycan xalçaçılığının nadir incilərinin bənzərsiz orijinal təfsirinin geniş auditoriyaya tanıdılmasını hədəfləyir.

UNESCO tərəfindən 15 il öncə qeyri-maddi mədəni irs kimi tanınan Azərbaycan xalçaçılıq sənəti öz milli dəyərlərini qoruyub saxlamaqla yeni və müasir inkişaf dövrünü yaşayır.

"Azərxalça" ASC-nin Mətbuat xidmətindən verilən məlumatda vurğulanıb ki, hər iki milli brendin ortaq təşəbbüsü Qarabağın xalçaçılıq irsinə həsr olunmuş sikkə kolleksiyası ilə orijinal xalça nümunələrini birləşdirərək, ənənə və müasirliyi, keçmişi və bu günü qovuşduran mənəvi körpünün yaradılmasına xidmət edir.

*Z.FƏRƏCOVA, "Azərbaycan"*

# Plasido Dominqo Heydər Əliyev Mərkəzində çıxış edib

## Konsertdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva iştirak edib









**Əfsanəvi tenor Plasido Dominqo noyabrın 14-də Bakıda Heydər Əliyev Mərkəzində çıxış edib.**

AZƏRTAC xəbər verir ki, konsertdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva iştirak edib.

Konsertdə Plasido Dominqo (Placido Domingo) ilə yanaşı, onun oğlu Plasido Dominqo Jr. (Placido Domingo Jr), Xalq artisti Yusif Eyvazov, Əməkdar artist Afaq Abbasova və isveçrəli opera ifaçısı Daria Rıbak (Daria Rybak) çıxış ediblər.

Səhnədə Üzeyir Hacıbəyli adına Dövlət Simfonik Orkestrini tanınmış italiyalı dirijor Frančesko İvan Çampa (Francesco Ivan Ciampa) idarə edib.

Gecədə C.Puççini, C.Verdi, P.Maskani kimi dünya klassiklərinin bəstələri səslənib.

Plasido Dominqonun Azərbaycan tamaşaçılarına bu dəfə də sürprizi olub. Əfsanəvi müğənni Dominqo və gecənin digər ifaçıları "Küçələrə su səpmişəm" xalq mahnısını birlikdə ifa ediblər.

Plasido Dominqo ilk dəfə deyil ki, Azərbaycan bəstəkarlarına müraciət edir. Xatırladaq ki, dahi müğənni 2010-cu ildə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 87-ci ildönümü münasibətilə keçirilən təntənəli mərasimdə Tofiq Quliyevin "Sənə də qalmaz" mahnısını ifa etmişdi.

# Günün birinci yarısında Abşeron yarımadasında yağış yağacaq



Azərbaycanda noyabrın 18-nə gözlənilən hava proqnozu açıqlanıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı gözlənilir. Günün birinci yarısında bəzi yerlərdə yağış yağacağı ehtimalı var. Şimal-şərq küləyi əsəcək, səhər cənub-şərq küləyi ilə əvəzlənəcək. Havanın temperaturunun gecə 10-14, gündüz 16-19 dərəcə isti olacağı ehtimal edilir. Atmosfer təzyiqi 770 millimetr civə sütunundan 768 millimetr civə sütununa enəcək. Nisbi rütubət 75-85 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Bəzi yerlərdə arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 8-12, gündüz 16-21, dağlarda gecə 0-4, gündüz 7-12 dərəcə isti olacağı bildirilir.

Naxçıvan şəhərində, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərurda hava əsasən yağmursuz keçəcək. Arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 2-7, gündüz 14-18 dərəcə isti müşahidə ediləcək.

Xankəndi şəhərində, Şuşa, Xocalı, Xocavənd, Füzuli, Ağdam, həmçinin Daşkəsən, Gədəbəy, Göygöldə hava əsasən yağmursuz keçəcək. Arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 3-8, gündüz 12-17 dərəcə isti olacağı gözlənilir.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilanda hava əsasən yağmursuz keçəcək. Arabir duman müşahidə ediləcək. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 2-7 dərəcə isti, dağlıq ərazilərdə 2 dərəcəyədək şaxta, gündüz 12-17 dərəcə isti olacağı proqnozlaşdırılır.

Gəncə və Naftalan şəhərlərində, Qazax, Samux, Goranboy, Tərtər, Şəmkir, Tovuz rayonlarında hava əsasən yağmursuz keçəcək. Arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 6-11, gündüz 15-20 dərəcə isti olacağı ehtimal edilir.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusarda hava əsasən yağmursuz keçəcək. Lakin günün birinci yarısında bəzi şərq rayonlarında qısamüddətli çiskinli olacağı ehtimalı var. Arabir duman müşahidə ediləcək. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 6-10, gündüz 13-18, dağlarda gecə 1-6, gündüz 8-13 dərəcə isti olacağı gözlənilir.

Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Bərdə, Beyləqan, Sabirabad, Saatlı, Göyçay, Ucar, Hacıqabul, Zərdab, Salyan, Neftçalada hava əsasən yağmursuz keçəcək. Lakin səhər bəzi şərq rayonlarında qısamüddətli az çiskinli olacağı ehtimalı var. Arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 8-12, gündüz 16-21 dərəcə isti olacağı proqnozlaşdırılır.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Biləsuvar, Cəlilabadda hava əsasən yağmursuz keçəcək. Arabir duman müşahidə ediləcək. Şimal-şərq küləyi əsəcək. Havanın temperaturu gecə 9-12, gündüz 16-20, dağlarda gecə 6-9, gündüz 12-17 dərəcə isti olacaq.


## OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Azərmətbuatyayımı" ASC* | (012) 441-19-91, (050) 322-33-17 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**




## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


**BEYNƏLXALQ HƏYAT**

# Özbəkistan və Türkmənistan prezidentləri sərhəd ticarət zonasını açıblar



**Özbəkistan Prezidenti Şavkat Mirziyoyev və Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov "Şavat-Daşoğuz" birgə sərhəd ticarət zonasının açılış mərasimində iştirak ediblər.**

Özbəkistan Prezidentinin Mətbuat Xidməti mərasimin yüksəksəviyyəli danışıqlardan sonra keçirildiyini bildirib.

Zonaya idarə, gömrük, karantin, fitosanitar və baytarlıq xidmətləri üçün inzibati binalar, ticarət pavilyonu və anbarlar daxildir. Burada dövlət xidmətləri və interaktiv sistemlər üçün vahid mərkəz, bank, tibbi və hotel xidmətləri, eləcə də geniş dayanacaq təklif olunacaq.

Zona Özbəkistanın Xorazm vilayəti ilə Türkmənistanın Daşoğuz vilayəti - ümumi əhalisi 3,5 milyondan çox olan iki əsas bölgə arasında ticarət və iqtisadi əlaqələrin genişləndirilməsinə kömək edəcək.

# Donald Tramp Venesuela Prezidenti ilə danışıqları istisna etmir

## "Maduro ilə bəzi danışıqlar apara bilərik və nə olacağını görəcəyik"







**ABŞ Prezidenti Donald Tramp Venesuela Prezidenti Nikolas Maduro ilə danışıqlar aparacağını açıqlayıb. "Maduro ilə bəzi danışıqlar apara bilərik və nə olacağını görəcəyik. Onlar danışmaq istəyirlər", - deyə Ağ Ev rəhbəri Florida ştatının Palm Biç şəhərindəki malikanəsində jurnalistlərə bildirib.**

Venesuela ilə bağlı "potensial variantları" Konqreslə müzakirə edib-etmədiyi soruşulduqda, Amerika lideri "Administrasiya Konqresi məlumatlandırmaq istəyir" cavabını verib. Prezident həmçinin Dövlət katibi Marko Rubioya qanunvericiləri məlumatlandırmağı tapşırdığını təsdiqləyib. "Bizə mütləq onların təsdiqi lazım deyil, amma düşünürəm ki, onları məlumatlandırmaq yaxşı olardı. Onların etmələrini istəmədiyim orduya, Mərkəzi Kəşfiyyat İdarəsinə və digər qurumlara təhlükə yarada biləcək çox həssas və məxfi məlumatların sızdırılmasıdır", - deyə Ağ Ev rəhbəri bildirib.

Tramp həmçinin Venesuelanın "demək olar ki, bütün həbsxana əhalisini" ABŞ-yə göndərdiyini iddia edərək keçmiş prezident Co Bayden administrasiyasını ölkəyə 20-25 milyon insanın axın etməsinə icazə verməkdə günahlandırıb.

Xatırladaq ki, Prezident Donald Tramp əvvəllər imzalanmış sərəncama uyğun olaraq ABŞ ordusunun Latın Amerikası narkotik kartellərinə qarşı əməliyyatlarda iştirakının genişləndirilməsini əmr edib. Avqustun sonunda ABŞ Venesuela sahillərinə sualtı qayıq və hərbi gəmilər də daxil olmaqla dəniz qüvvələri göndərib. Müdafiə naziri Pit Heqset ABŞ ordusunun Venesueladakı əməliyyatlara, o cümlədən "rejim dəyişikliyinə" hazır olduğunu bildirib.

Cavab olaraq Venesuela Prezidenti Nikolas Maduro 4,5 milyon milis döyüşçüsünün səfərbər olunduğunu elan edib və istənilən hücumu dəf etməyə hazır olduğunu vurğulayıb.

Narkotika qaçaqmalçılığına qarşı mübarizə adı ilə Venesuela sularında gəmilərə qarşı ABŞ-nin davam edən hərəkətləri Karakas və beynəlxalq ictimaiyyətin kəskin reaksiyasına səbəb olub və onlar bu cür hücumları beynəlxalq hüququn pozulması kimi qiymətləndirirlər.

Media ABŞ Hərbi Dəniz Qüvvələrinin ən böyük təyyarədaşıyan gəmisi olan USS Gerald R. Ford və onu müşayiət edən zərbə qrupunun "narkotik əleyhinə əməliyyat" çərçivəsində Latın Amerikasına gəldiyini bildirib.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Baş Prokurorluğunun rəhbərliyi və kollektivi prokurorluğun veteranı

**İLHAM ABBASOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Texniki Universitetinin rektorluğu və kollektivi Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Xidmətinin rəisi general-leytenant İlqar Musayevə atası

**ƏLİ MUSAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi cəmiyyətin əməkdaşı Coşqun Kərimliyə atası

**AKİF TAĞIYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Tibb Universitetinin rektoru professor Gəray Gəraybəyli Azərbaycan Respublikası səhiyyə nazirinin müavini İlqar Qasımova anası

**VALİDƏ QASIMOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj 4077
Sifariş 2343

Qiyməti 60 qəpik